"Azərbaycan Dövlət İqtisad Universiteti" Publik Hüquqi Şəxs

Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC

İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında

# HESABAT

Hesabat UNEC Elmi Şurasının
27/01/2023-cü il tarixli iclasının
qərarı ilə təsdiq edilmişdir

Tarix: 01/02/2023

İmza: ____________
(müəssisənin rəhbəri)

M.Y

2023

## Mündəricat

Mündəricat ........ 1
I. Giriş ........ 2
1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar ........ 2
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki ........ 3
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti ........ 11
II. Təhsil müəssisəsinin özünütəhlili ........ 13
4. Özünütəhlil qiymətləndirməsinin icmalı ........ 13
1. STRATEJİ İNKİŞAF ........ 13
2. KEYFİYYƏT TƏMİNATI ........ 17
3. TƏLİM VƏ TƏDRİS ........ 29
4. ELMİ TƏDQİQAT ........ 72
5. İDARƏETMƏ SİSTEMİ ........ 90
6. İNFRASTRUKTUR ........ 106
7. BEYNƏLMİLƏLLƏŞMƏ ........ 111
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri ........ 125
6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər ........ 128
III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər ........ 143

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Ali təhsil müəssisəsinin adı | “Azərbaycan Dövlət İqtisad Universiteti” Publik Hüquqi Şəxs |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi vəmüddəti | 07 İyun 2016-cı il / 5 illik |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsilmüəssisələri istisna olmaqla) | – |
| Ali təhsil müəssisəsinin rəhbəri | Ədalət Cəlal oğlu Muradov |
| Fakültələrin sayı | 13 (on üç) |
| Kafedraların sayı | 17 (on yeddi) |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 22 (iyirmi iki) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 20 (iyirmi) (61 (altmış bir)) MBA proqramı üzrə 1 (bir) ixtisaslaşma, 29 (iyirmi doqquz) istiqamət |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | 11 (on bir) (iqtisadi-8 (səkkiz), texniki-3 (üç)) |
| Ali təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 14588<br>Magistratura: 4477<br>Doktorantura: 171<br>Elmlər doktorluğu proqramı üzrə: 50 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 764 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 333 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | unec@unec.edu.az / +994124371086 |
| Müəssisənin hüquqi ünvanı | Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6 |
| Müəssisənin faktiki ünvanı | Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| **Sədr:** | | | |
| 1. | dos. Gəray Musayev | Tədris üzrə prorektor | geray.musayev@unec.edu.az |
| **Sədr müavini:** | | | |
| 2. | i.f.d. Hüseyn Həsənov | Keyfiyyət təminatı şöbəsinin müdiri | hasanov.huseyn@unec.edu.az |
| **Katib:** | | | |
| 3. | Əddin Muştaqov | Keyfiyyət təminatı şöbəsinin baş mütəxəssisi | addin.mushtagov@unec.edu.az |
| **Üzvlər:** | | | |
| 4. | prof. Sakit Yaqubov | Elm üzrə prorektor | s.yagubov@unec.edu.az |
| 5. | dos. Şaiq Əsgərov | İnzibati və təşkilati məsələlər üzrə prorektor | shaig.asgerov@unec.edu.az |
| 6. | dos. Səadət Qəndilova | Tələbələrlə iş üzrə prorektor | s.gandilova@unec.edu.az |
| 7. | i.f.d. Raqif Qasımov | Rəqəmsallaşma üzrə prorektor | raqif.qasimov@unec.edu.az |
| 8. | s.f.d. Neman Muradlı | Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor | neman.muradli@unec.edu.az |
| 9. | Nəsimi İsmayılov | İqtisadi məsələlər üzrə prorektor | nasimi.ismailov@unec.edu.az |
| 10. | dos. Cəfər Eyvazlı | Ümumi işlər üzrə prorektor | jafar_eyvazli@unec.edu.az |
| 11. | i.f.d. Elşən Bağırzadə | Rektorun müşaviri | elshan.baqirzade@unec.edu.az |
| 12. | h.f.d. Ərəbiyyə Mustafayeva | Elmi katib | arabiyya@unec.edu.az |
| 13. | dos. Eldar Azadov | Tədrisin metodiki və keyfiyyət təminati mərkəzinin direktoru | eldar_azadov@unec.edu.az |
| 14. | prof. Zahid Məmmədov | Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru | z.mamedov@unec.edu.az |
| 15. | prof. Yadulla Həsənli | İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru | yadulla.hasanli@unec.edu.az |
| 16. | dos. Zöhrə Həsənova | Elektron idarəetmə mərkəzinin direktoru | z.hasanova@unec.edu.az |

| | | | |
|---|---|---|---|
| 17. | i.f.d. Xalidə Yusifova | Tələbə işləri mərkəzinin direktoru | xalida.yusifova@unec.edu.az |
| 18. | dos. Söhrab İsayev | İmtahan mərkəzinin direktoru | sohrab.isayev@unec.edu.az |
| 19. | t.f.d. Adilə Abdullayeva | UNEC Kitabxana-informasiya mərkəzinin direktoru | adila.abdullayeva@unec.edu.az |
| 20. | Zaur Əziz | UNEC Extern tədris mərkəzinin direktoru | zaur_aziz@unec.edu.az |
| 21. | Seymur Nəcəfov | Maliyyə və təminat departamentinin direktoru-baş mühasib | s.najafov@unec.edu.az |
| 22. | Aytac Rzayeva | Karyera mərkəzinin direktoru | aytac_rzayeva@unec.edu.az |
| 23. | Qələndər Məmmədli | Ömürboyu təhsil mərkəzinin direktoru | galandar.mammadli@unec.edu.az |
| 24. | f.f.d. Tural Nağıyev | Laboratoriyaların işinin təşkili mərkəzinin direktoru | tural-nagiyev@unec.edu.az |
| 25. | Nəvai Əliyev | Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin direktor müavini | navai_aliyev@unec.edu.az |
| 26. | i.f.d. Rəşad Muradov | Ümumi şöbənin müdiri | r.muradov@unec.edu.az |
| 27. | Nizami Qəhrəmanov | İnsan resursları şöbəsinin müdiri | nizami.qahramanov@unec.edu.az |
| 28. | Kəmalə Bünyadova | Hüquq şöbəsinin müdiri | k.bunyadova@unec.edu.az |
| 29. | Hikmət Babayev | Daxili audit şöbəsinin müdiri | h.babayev@unec.edu.az |
| 30. | Turan Süleymanov | Strateji inkişaf şöbəsinin müdiri | turan.suleymanov@unec.edu.az |
| 31. | f.f.d. Leyla Nəzirzadə | Təcrübənin təşkili şöbəsinin müdiri | leyla_nazirzada@unec.edu.az |
| 32. | Elnarə Ömərova | İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri | mamedova.elnara@unec.edu.az |
| 33. | Rəna Hüseynova | Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi vətəşkili şöbəsinin müdiri | r.huseynova@unec.edu.az |
| 34. | dos. Sevda Sərdarova | Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin direktor müavini-Tədrisin təşkili şöbəsinin müdiri | sardarova_sevda@unec.edu.az |
| 35. | dos. İlqar Seyfullayev | Doktorantura şöbəsinin müdiri | ilgar.seyfullayev@unec.edu.az |
| 36. | Rahib Muradov | Təsərrüfat şöbəsinin müdiri | rb.muradov@unec.edu.az |

| | | | |
|---|---|---|---|
| 37. | dos. Fariz Əhmədov | Beynəlxalq magistratura və doktoranturamərkəzinin rəhbəri | f.ahmadov@unec.edu.az |
| 38. | dos. Nazim Hacıyev | UNEC Biznes məktəbinin direktoru | mba_magistr@unec.edu.az |
| 39. | prof. Mehmet Yüce | Türk dünyası iqtisad fakültəsinin dekanı | mehmet.yuce@unec.edu.az |
| 40. | dos. Mənsur Bərxudarov | Rus iqtisad məktəbinin direktoru | mansur.barxudarov@unec.edu.az |
| 41. | dos. Aida Quliyeva | SABAH mərkəzinin rəhbəri | a.guliyeva@unec.edu.az |
| 42. | dos. Hafis Hacıyev | Maliyyə və mühasibat fakültəsinin dekanı | hafiz_hajiyev@unec.edu.az |
| 43. | dos. Mirağa Əhmədov | Biznes və menecment fakültəsinin dekanı | miraga_ahmadov@unec.edu.az |
| 44. | dos. Lalə Məmmədova | UNEC Dizayn məktəbinin direktoru | lala.mammadova@unec.edu.az |
| 45. | dos. Elçin Eyvazov | İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı | elchin.eyvazov@unec.edu.az |
| 46. | dos. Elman Cəfərov | Rəqəmsal iqtisadiyyat fakültəsinin dekanı | elman.jafarov@unec.edu.az |
| 47. | dos. Elçin Səmədov | Mühəndislik fakültəsinin dekanı | elchin.samadov@unec.edu.az |
| 48. | Ramil Quluzadə | Beynəlxalq iqtisadiyyat məktəbinin direktoru | ramil.guluzade@unec.edu.az |
| 49. | Səbuhi Tanrıverdiyev | Qiyabi və əlavə təhsil mərkəzinin direktoru | sabuhi.tanriverdiyev@unec.edu.az |
| 50. | dos. Gülnarə Rzayeva | Ümumi fənlərin tədrisinin təşkili departamentinin direktoru | gulnara_rzayeva@unec.edu.az |
| 51. | İlkan Əliyev | Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri | ilkan.aliyev@unec.edu.az |
| 52. | Cabbar Cəlilov | Tələbə-rektor | cabbarcelilov@unec.edu.az |
| 53. | Nəzrin İbrahimli | Tələbə Elmi Cəmiyyətinin sədri | nazrin.ibrahimli@unec.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | i.f.d. Gəray Musayev | 3. Təlim və tədris |
| 2 | i.f.d. Hüseyn Həsənov | 2. Keyfiyyət təminatı |
| 3 | Əddin Muştaqov | 2.1. Keyfiyyət təminatı siyasəti<br>2.2. Daxili keyfiyyət təminatı mexanizmləri<br>2.3. Keyfiyyət təminatı mədəniyyəti<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (1/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (16/26)*** |
| 4 | prof. Sakit Yaqubov | 4. Elmi Tədqiqat<br>6. İnfrastruktur |
| 5 | dos. Şaiq Əsgərov | 5. İdarəetmə sistemi |
| 6 | dos. Səadət Qəndilova | 3.Təlim və tədris<br>5. İdarəetmə sistemi |
| 7 | i.f.d. Raqif Qasımov | 3.Təlim və tədris<br>5. İdarəetmə sistemi<br>6. İnfrastruktur |
| 8 | s.f.d. Neman Muradlı | 7. Beynəlmiləlləşmə |
| 9 | Nəsimi İsmayılov | 5. İdarəetmə sistemi<br>6. İnfrastruktur |
| 10 | dos. Cəfər Eyvazlı | 5. İdarəetmə sistemi |
| 11 | i.f.d. Elşən Bağırzadə | 1. Strateji İnkişaf<br>1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (2/26)***<br>***Excell Forma 1 – SİP-in hazırlanması və icrası*** |
| 12 | h.f.d. Ərəbiyyə Mustafayeva | 5.1 İdarəetmə orqanları<br>5.2 İnsan resursların idarə edilməsi |
| 13 | dos. Eldar Azadov | 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması<br>3.2 Təhsil proqramları<br>3.3 Tədrisin təşkili<br>3.4 Tədris metodları və üsulları |

| | | |
|---|---|---|
| | | 3.5 Təlim və tədris resursları<br>3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi<br>3.7 Professor-müəllim heyəti<br>3.8 Tələbəyönümlü tədris<br>3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>4.3 Elmi-tədqiqat fəaliyyəti<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (3/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (10/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (17/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (18/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (19/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (23/26)***<br>***Excell Forma 3 – ATM-ə təhsilalan qəbulu*** |
| 14 | prof. Zahid Məmmədov | 4.1 Elmi-tədqiqat strategiyası<br>4.3 Elmi-tədqiqat fəaliyyəti<br>***Excell Forma 10 – Elmi tədqiqat fəaliyyəti*** |
| 15 | prof. Yadulla Həsənli | 4.1 Elmi-tədqiqat strategiyası |
| 16 | dos. Zöhrə Həsənova | 3.5 Təlim və tədris resursları<br>5.4 İnformasiya idarəetmə sistemi<br>6.1 Tədris infrastrukturu<br>***Excell Forma 7.2 – Digər tədris resursları*** |
| 17 | i.f.d. Xalidə Yusifova | 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması<br>3.2 Təhsil proqramları<br>3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi<br>5.4 İnformasiya idarəetmə sistemi<br>6.1 Tədris infrastrukturu<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (15/26)*** |
| 18 | dos. Söhrab İsayev | 3.3 Tədrisin təşkili<br>3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (5/26)***<br>***Excell Forma 5 – Kredit borcu, bərpa və xaric olunma*** |

| | | |
|---|---|---|
| 19 | t.f.d. Adilə Abdullayeva | 3.5 Təlim və tədris resursları<br>4.2 Tədqiqat resursları<br>6.1 Tədris infrastrukturu<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (13/26)***<br>***Excell Forma 7.1 – Kitabxana*** |
| 20 | Zaur Əziz | 3.4 Tədris metodları və üsulları<br>3.5 Təlim və tədris resursları<br>5.4 İnformasiya idarəetmə sistemi<br>6.1 Tədris infrastrukturu<br>***Excell Forma 7.2 – Digər tədris resursları*** |
| 21 | Seymur Nəcəfov | 4.2 Tədqiqat resursları<br>5.3 Maliyyə resurslarının idarə edilməsi<br>6.1 Tədris infrastrukturu<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (4/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (8/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (11/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (12/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (26/26)***<br>***Excell Forma 6 – Maddi - texniki baza və sosial-məişət şəraiti***<br>***Excell Forma 12 – Maliyyə təminatı*** |
| 22 | Aytac Rzayeva | 3.3 Tədrisin təşkili<br>3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (6/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (9/26)***<br>***Excell Forma 2 – Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi;***<br>***Excell Forma 9 – Karyera xidməti və məzunlarla davamlı əlaqə.*** |
| 23 | Qələndər Məmmədli | 3.2 Təhsil proqramları |
| 24 | f.f.d. Tural Nağıyev | 4.2 Tədqiqat resursları<br>6.1 Tədris infrastrukturu<br>6.2 Elmi-tədqiqat infrastrukturu |
| 25 | Nəvai Əliyev | 3.2 Təhsil proqramları<br>***Excell Forma 4 – Fakültə, kafedralara dair cari məlumatlar***<br>***Excell Forma 7.3 – Sağlamlıq imkanları məhdud şəxslər üçün*** |

| | | |
|---|---|---|
| | | ***uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti*** |
| 26 | i.f.d. Rəşad Muradov | 5.1 İdarəetmə orqanları<br>5.4 İnformasiya idarəetmə sistemi<br>5.5 İctimaiyyətlə əlaqələr<br>6.1 Tədris infrastrukturu |
| 27 | Nizami Qəhrəmanov | 3.7 Professor-müəllim heyəti<br>5.1 İdarəetmə orqanları<br>5.2 İnsan resurslarının idarə edilməsi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (7/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (20/26)***<br>***Excell Forma 4 – Fakültə, kafedralara dair cari məlumatlar***<br>***Excell Forma 8 – Peşəkar inkişaf*** |
| 28 | Kəmalə Bünyadova | 5.1 İdarəetmə orqanları |
| 29 | Hikmət Babayev | 5.3 Maliyyə resurslarının idarə edilməsi |
| 30 | Turan Süleymanov | 7.1 Beynəlmiləlləşmə siyasəti<br>7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati struktur<br>7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar<br>7.4 Beynəlmiləlləşmə performansı<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (14/26)***<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (24/26)***<br>***Excell Forma 11 – Beynəlmilləşmə siyasətinin icrası*** |
| 31 | f.f.d. Leyla Nəzirzadə | 3.3 Tədrisin təşkili<br>3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (21/26)*** |
| 32 | Elnarə Ömərova | 3.2 Təhsil proqramları<br>5.5 İctimaiyyətlə əlaqələr |
| 33 | Rəna Hüseynova | 4.1 Elmi-tədqiqat strategiyası<br>4.2 Tədqiqat resursları<br>6.2 Elmi-tədqiqat infrastrukturu |
| 34 | dos. Sevda Sərdarova | 3.3 Tədrisin təşkili<br>3.4 Tədris metodları və üsulları<br>3.5 Təlim və tədris resursları<br>3.7 Professor-müəllim heyəti<br>3.8 Tələbəyönümlü tədris |

| | | |
|---|---|---|
| | | 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>5.4 İnformasiya idarəetmə sistemi<br>***Özünütəhlil Hesabatına əlavə olunan sənədlər; (6/26)***<br>***Excell Forma 2 – Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi;***<br>***Excell Forma 8 – Peşəkar inkişaf*** |
| 35 | dos. İlqar Seyfullayev | 4.3 Elmi-tədqiqat fəaliyyəti<br>4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti |
| 36 | Rahib Muradov | 6.1 Tədris infrastrukturu |
| 37 | dos. Fariz Əhmədov | 3.2 Təhsil proqramları<br>3.3 Tədrisin təşkili<br>3.4 Tədris metodları və üsulları<br>3.5 Təlim və tədris resursları<br>3.8 Tələbəyönümlü tədris<br>3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>***Excell Forma 5 – Kredit borcu, bərpa və xaric olunma*** |
| 38 | dos. Nazim Hacıyev | |
| 39 | prof. Mehmet Yüce | |
| 40 | dos. Mənsur Bərxudarov | |
| 41 | dos. Aida Quliyeva | |
| 42 | dos. Hafis Hacıyev | |
| 43 | dos. Mirağa Əhmədov | |
| 44 | dos. Lalə Məmmədova | |
| 45 | dos. Elçin Eyvazov | |
| 46 | dos. Elman Cəfərov | |
| 47 | dos. Elçin Səmədov | |
| 48 | Ramil Quluzadə | |
| 49 | Səbuhi Tanrıverdiyev | |
| 50 | dos. Gülnarə Rzayeva | |
| 51 | İlkan Əliyev | 3.5 Təlim və tədris resursları |
| 52 | Cabbar Cəlilov | 3.5 Təlim və tədris resursları |
| 53 | Nəzrin İbrahimli | 3.5 Təlim və tədris resursları |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Azərbaycan Dövlət İqtisad Universitetinin akkreditasiyası barədə Elm və Təhsil Nazirliyinin 11.03.2016-cı il tarixli Kollegiya qərarını və Azərbaycan Respublikasının Elm və Təhsil nazirinin 20.05.2016-cı il tarixli 329 saylı əmrinin 5-ci bəndinin (akkreditasiya zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi) icrasını təmin etmək məqsədilə 17.11.2016-cı il tarixli 197/2/2016 saylı əmr olmuşdur.

10.04.2017-ci il tarixli 010-011-415/02/2017 nömrəli çıxış məktubu ilə keçmiş Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinə 2014/2015-ci tədris ilində keçirilmiş akkreditasiya zamanı qeyd olunan iradların aradan qaldırılması və verilmiş tövsiyələrlə əlaqədar aşağıdakı görülmüş işlər haqqında məlumat göndərilmişdir:

1. Universitet məzunlarının ÜOMG-sinin mövcud qaydalara uyğun hesablanaraq diplomların əlavəsində yazılması təmin edilmişdir;
2. Buraxılış işlərinin tərtibi və qiymətləndirilməsi üzrə müvafiq metodiki tövsiyələr hazırlanmışdır;
3. Dövlət Attestasiya Komissiyası sədrlərinin fakültə Elmi Şurasına hesabatların vaxtında verilməsi ilə bağlı müvafiq strukturlar məlumatlandırılmışdır;
4. Müvafiq kafedralarda ixtisaslar üzrə məlumat paketi hazırlanmışdır;
5. Buraxılış və kurs işlərinin, magistr dissertasiyalarının mövzularının dövrün aktual məsələləri istiqamətində və bununla bağlı sənədləşmənin müvafiq standartların tələblərinə uyğun tərtib edilməsi təmin edilmişdir;
6. Universitetin kafedraları arasında elmi əlaqələr gücləndirilərək təsərrüfat hesablı müqavilə ilə elmi tədqiqat işlərinin yerinə yetirilməsi üzrə fəaliyyət təşkil edilmişdir;
7. Professor-müəllim heyətinin elmi-tədqiqat və müdafiə olunmuş dissertasiya işlərindəki mühüm elmi nəticələrinin istehsalatda tətbiqinin həyata keçirilməsi ilə əlaqədar müvafiq təkliflər hazırlanmışdır;
8. UNEC-in professor-müəllim heyətinin nüfuzlu jurnallarda məqalələrinin çap olunmasının təşviqi həyata keçirilir;
9. Yerinə yetirilən dissertasiya işlərindən əldə olunan nailiyyətlərin kafedralarda müvafiq fənn proqramlarında, mühazirə mətnlərində və təqdimat slaydlarında öz əksini tapması təmin edilir;
10. Universitetdə fəaliyyət göstərən xarici ölkələrin (Çin, Cənubi Koreya, Misir, Malaziya, Banqladeş) mədəniyyət mərkəzlərinin işinin təkmilləşdirilməsi təmin edilmişdir;
11. UNEC müəllimlərinin İnsan resursları şöbəsi tərəfindən ixtisasartırma planı tərtib edilmişdir;

12. Ştat cədvəli faktiki vəzifələrə uyğun dəqiqləşdirilmiş və kafedralarda professor-müəllim heyətinin sayı ilə laborantların say nisbəti normativlərə uyğunlaşdırılmışdır;

13. Professor-müəllim heyətinin yaş həddini nəzərə almaqla yeni gənc mütəxəssislərin cəlb olunması prosesi uğurla həyata keçirilir;

14. Məzunların təhsildən sonra işlə təminatının monitorinqi aparılmış və əmək bazarının tələblərinə uyğun ixtisaslar müəyyən edilmişdir;

15. Universitetin arxivində bütün sənədlərin saxlanılması işinin sistemləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür;

16. UNEC-də bütün kargüzarlıq sənədlərinin vaxtında və keyfiyyətli hazırlanmasını və Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Dövlət idarə, müəsisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun tərtibi təmin edilmişdir.

## II. Təhsil müəssisəsinin özünütəhlili

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə təlimat kitabçasının təsdiq edilməsi barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir.

Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili 01.12.2022-ci il tarixli 268/1/2022 saylı əmri ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

*1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti*

UNEC Elmi Şurasının 6 dekabr 2018-ci il tarixli No. EŞ-162 saylı qərarı ilə “UNEC-100 İnkişaf Strategiyası (2019-2030)” qəbul edilmişdir. “UNEC-100 İnkişaf Strategiyası (2019-2030)”, UNEC-in uzunmüddətli strateji inkişaf sənədidir. Sənəd, UNEC-in 100 yaşının tamam olacağı 2030-cu ilə qədərki dövr ərzində onun fəaliyyətinin əsas strateji istiqamətlərini özündə ehtiva edir. Qeyd edilən strateji sənəd ali təhsil sektorunda baş verən və proqnozlaşdırılan əsas qlobal və milli tendensiyalar, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, 3-cü nəsil universitetlərin əsas xüsusiyyətləri və UNEC-in SWOT təhlilinin nəticələri nəzərə alınaraq hazırlanmışdır. Sənəd, “Təqdimat”, “UNEC haqqında”, “Missiya, gələcəyə baxış və əsas dəyərlər”, “Strateji məqsədlər, hədəflər və fəaliyyətlər”, “Maliyyələşdirmə” və “Monitorinq və qiymətləndirmə” olmaqla 6 bölmədən ibarətdir. “UNEC-100 İnkişaf Strategiyası”nda 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəf müəyyən olunmuşdur. Eyni zamanda, sənəddə qeyd olunan hədəf və məqsədlərin həyata keçirilməsi üçün konkret strateji fəaliyyət istiqamətləri də öz əksini tapmışdır. Sənədin icrası məqsədilə UNEC prorektorları arasında müvafiq iş bölgüsü aparılmış və görülən işlərin monitorinqi və hesabatlılığını təmin edəcək müvafiq daxili mexanizm və prosedurlar müəyyən edilmişdir.

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

*1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu*

UNEC 100 İnkişaf Strategiyasında UNEC-in missiyası belə müəyyən edilmişdir: "Ölkəsi və insanlıq naminə universal dəyərlərə əsaslanaraq, yüksək keyfiyyətli tədqiqatlar aparmaq, təhsil vermək və sosial xidmətlər göstərmək". Bu missiyaya uyğun olaraq, sənəddə UNEC-in yüksək keyfiyyətli təhsil, tədqiqat və sosial xidmətlər göstərən universitetə çevrilməsi istiqamətində konkret məqsəd və hədəflər müəyyən edilmişdir.

*1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu*

UNEC-100 inkişaf strategiyasında universitetin gələcəyə baxışı belə müəyyən edilmişdir: "100 yaşında dünyanın ən yaxşı 500 universitetindən birinə çevrilmək". Bu isə yüksək keyfiyyətli kadr hazırlığının həyata keçirildiyi, məzunlarının əmək bazarında ciddi nüfuza sahib olduğu, tədqiqatları və sosial xidmətləri ilə iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafına əhəmiyyətli töhfələri olan universitet deməkdir. Bu eyni zamanda Azərbaycan Respublikasının qəbul etdiyi bir sıra strateji inkişaf sənədləri ilə, o cümlədən də "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" ilə uyğunluq təşkil edir.

*1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu*

UNEC-100 İnkişaf Strategiyasında 7 strateji məqsəd, bu məqsədlər üzrə müvafiq olaraq 31 strateji hədəf və hər bir hədəfin reallaşdırılması üçün konkret strateji fəaliyyətlər müəyyən edilmişdir. Strateji məqsəd, hədəf və fəaliyyətlərin mümkün ölçüdə bir-birinə uyğunluğu nəzərə alınmışdır.

*1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi*

"UNEC-100 İnkişaf Strategiyası"nda 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəf müəyyən olunmuşdur.

*1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması*

UNEC-100 İnkişaf Strategiyasının 2022-2023-cü illər üzrə təsdiq edilmiş icra göstəricilərində bu tədbirlər müəyyən edilmişdir. UNEC-100 İnkişaf Strategiyasının icra

göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü 28.02.2022-ci il tarixli 60/1/2022 saylı əmrlə təsdiq edilmişdir.

*1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi*

UNEC-100 İnkişaf Strategiyasında müəyyən edilən strateji məqsəd və hədəflər əsasən kəmiyyət və keyfiyyət göstəriciləri ilə ifadə edilmişdir. Bundan başqa Strategiyanın təsdiq edilən icra göstəriciləri də konkret, ölçülə bilən göstəricilərdir və nəticələri qiymətləndirməyə imkan verir.

*1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyasında qeyd edildiyi kimi fəaliyyətlərin icrası UNEC-in öz vəsaiti, əldə etdiyi qrantlar və sponsorların maliyyə dəstəyi ilə həyata keçirilir. Strategiyada qeyd edilən konkret fəaliyyətlər üzrə UNEC büdcəsindən müvafiq qaydada vəsaitlər ayrılır. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün təsdiq edilmiş icra göstəricilərinə əsasən insan resursları olaraq məsul struktur bölmələrin əməkdaşları, infrastruktur resursları olaraq isə daxili, xarici fiziki və informasiya infrastrukturu resursları nəzərdə tutulmuşdur.

*1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti*

SİP-də nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətlərin maliyyələşdirilməsi müəyyənləşdirilərək illik icra göstəricilərinin reallaşdırılması məqsədilə nəzərə alınır.

*1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyasının 4-cü strateji məqsədi və 3.2., 4.1., 4.2., 4.3., 4.4., 4.5. strateji hədəfləri birbaşa bu məsələləri özündə ehtiva edir.

*1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması*

İcra göstəricilərinin hazırlanması və təsdiqi zamanı nəzərə alınır.

*1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması*

UNEC-100 İnkişaf Strategiyası hazırlanan zaman UNEC-in SWOT təhlili aparılmışdır. Bu təhlilin nəticələri Strategiyada da öz əksini tapmış və nəzərə alınmışdır.

*1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyası hazırlanarkən, UNEC Rektorluğu, UNEC kollektivi, UNEC tələbə təşkilatları və işəgötürənlərlə aktiv müzakirələr aparılmış və bu sənəd qeyd edilən müzakirələrin nəticəsi olaraq ortaya çıxmışdır.

*1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi*

UNEC-100 inkişaf strategiyasında müəyyən edilən hədəflərin reallaşdırılması istiqamətində UNEC prorektorları, onların kurasiyasında olan struktur bölmələr arasında konkret iş bölgüsü aparılmış və strategiyanın icra göstəriciləri ilə birlikdə təsdiq edilmişdir. Struktur bölmələr də öz iş planlarını UNEC-100 İnkişaf Strategiyası əsasında tərtib etmişlər.

**1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi**

*1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti*

Strategiyanın icrası üzrə ildə yarımillik və illik hesabatlar nəzərdə tutulmuşdur. Bu hesabatlar müvafiq prorektor tərəfindən kurasiyasında olan struktur bölmələri ilə birlikdə hazırlanır və Rektora təqdim edilir. Hesabatlar DocNet Elekton Sənəd Dövriyyəsi Sistemi üzərindən təqdim edilir və müvafiq struktur bölmələr üçün əlçatandır.

*1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti*

Müvafiq prorektorun rəhbərliyi ilə onun kurasiyasında olan struktur bölmələrin və aidiyyəti digər rəhbər şəxslərin iştirakı ilə müzakirəsi həyata keçirilir.

*1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti*

İcra göstəricilərinin hər biri üzrə monitorinq tezlikləri müəyyən edilmişdir.

*1.2.4 SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti*

Rektorun rəhbərliyi ilə keçirilən müvafiq görüşlərdə müzakirə edilir. 15.07.2022-ci il tarixli D/Y-12324/2022 nömrəli “UNEC-100 İnkişaf Strategiyasının icrası haqqında ümumiləşdirilmiş hesabat” adlı xidməti məlumat rektora təqdim edilmişdir.

*1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti*

Tədbirlər həyata keçirilir və nəticələr bütün kollektiv üçün açıqdır. Elmi Şurada müvafiq prorektorların hesabatları dinlənilir və maraqlı tərəflər üçün əlçatanlıq universitetin rəsmi saytında paylaşılmaqla təmin edilir.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

*2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı*

Universitetin KİS/001 saylı Keyfiyyət Siyasəti sənədi 16.03.2012-ci il tarixində nəşr edilmiş və 29.03.2016-cı il tarixində isə sənədə müəyyən düzəlişlər edilmişdir. 2016-cı ildən etibarən hər il üzrə KİS-in tətbiqi ilə əlaqədar daxili auditin keçirilməsi və yekun hesabatın hazırlanması məqsədilə rektorun daxili əmrləri mövcuddur.

*2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti*

29.03.2016-cı il tarixində üzərində düzəlişlər edilmiş Keyfiyyət Siyasəti sənədi KİS-in davamlı təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün universitetin fəaliyyətində nəzərdə tutulan, aşağıda adları qeyd olunan 6 qabaqcıl vəzifəni sadə və anlaşılan formada özündə ehtiva edir:

- Azərbaycan Respublikasının qanunlarına və TS EN İSO 9001 “Keyfiyyət İdarəetmə Sistemi” beynəlxalq standartın tələblərinə riayət etmək;
- Keyfiyyəti İdarəetmə Sistemi üzrə hədəflər müəyyən etmək və bu hədəflərin həyata keçirilməsini təmin etmək, nəticələri qiymətləndirmək;
- İşçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün maarifləndirmə tədbirlərini həyata keçirmək;
- Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğunluğunu qiymətləndirmək və effektivliyini artırmaq üçün monitorinqlər keçirmək və nəticələrini təhlil etmək;
- Bu siyasətlə həm işçilərimizin, həm də müştərilərimizin tanış olmasını təmin etmək;
- Keyfiyyət siyasətinin qüvvədə olmasını daima izləmək.

Bu fəaliyyətin icrası ilə bağlı 10 meyar, daha sonra 11 meyar, 3 qiymətləndirmə ölçüsü (icra edilir, qismən, icra edilmir) çərçivəsində fakültələr və digər struktur bölmələr üzrə hesabatlar tərtib edilmişdir.

*2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi*

22.09.2016-cı il tarixli 5767/2016 nömrəli təqdimatın dərkənarına əsasən 29.03.2016-cı ildə təsdiq edilmiş “Keyfiyyət Siyasəti” sənədi bütün struktur bölmələrlə paylaşılmış və keyfiyyət siyasəti barədə məlumatlı olmaları təmin edilmişdir.

Universitet üzrə müxtəlif strukturlardan seçilmiş əməkdaşlara İSO 9001:2015 "Keyfiyyət İdarəetmə Sistemi" ilə bağlı Türk Standartları İnstitutu tərəfindən təlimlər keçirilmiş və bu təlimlərin nəticəsi olaraq həmin əməkdaşlara 04.07.2018-ci il tarixində sertifikatlar təqdim edilmişdir. Sertifikat almış əməkdaşlar qazandıqları bilik və bacarıqları digər əməkdaşlarla bölüşmüşlər. Bundan əlavə müəllim kabinetlərində də həmin sənəd professor-müəllim heyəti ilə paylaşılmışdır.

*2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)*

29.03.2016-cı il tarixində üzərində düzəlişlər edilmiş Keyfiyyət Siyasəti sənədi özündə ehtiva etdiyi 6 qabaqcıl vəzifəni müəyyənləşdirərkən universitet üzrə təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini təkmilləşdirmək kimi prioritet istiqamətlər nəzərə alınmışdır. Bundan əlavə müxtəlif illərdə 11, 12, 14 sual üzrə hazırlanmış sorğu cədvəlləri İSO standartlarının müvafiq maddələrini özündə əks etdirir.

UNEC Elmi Şurasının 28.09.2022-ci il tarixli 185 nömrəli qərarı ilə Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və müvafiq meyarları (işə götürənlər, tələbələr, təhsil sistemi, fakültə, idarəetmə) özündə ehtiva edən Strateji İnkişaf Planı (2022-2026) təsdiq edilmişdir.

### 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

*2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)*

09.03.2012-ci il tarixli 29/1 nömrəli əmrlə Keyfiyyət İdarəetmə Sisteminə (KİS) keçidlə əlaqədar Təşkilat Komissiyası yaradılmış və müvafiq dəyişikliklərlə hal-hazıra kimi komissiya öz işini davam etdirir. UNEC Elmi Şurasının 19.09.2014-cü tarixli 131.4 qərarına əsasən 30.09.2014-cü il tarixli 121/3 nömrəli əmrlə Tədrisin Keyfiyyətinin Qiymətləndirilməsi və İdarəedilməsi Mərkəzi yaradılmış və dörd şöbədən (Tədrisin keyfiyyətinə nəzarət şöbəsi, İmtahanların təşkili şöbəsi, Statistika və təhlil şöbəsi, İnformasiya- kommunikasiya texnologiyaları şöbəsi) ibarət strukturu təsdiq edilmişdir.

UNEC Elmi Şurasının 29.06.2015-ci il tarixli 139 nömrəli qərarı ilə 2015/2016-cı tədris ili tədrisin keyfiyyət ili elan edilmişdir. Keyfiyyətin yüksəldilməsi ilə bağlı davamlı inkişafın təmin edilməsi üçün Elmi Şuranın 18.09.2015-ci il tarixli № EŞ-140 nömrəli qərarı ilə "tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə tədbirlər planı" təsdiq edilmişdir. Həmin tədbirlər planının icrasını təmin etmək məqsədilə 10.11.2015-ci il tarixli 104/1/2015 saylı əmrlə UNEC-də "Özünüqiymətləndirmə və Keyfiyyətin Yüksəldilməsi" üzrə daimi Şura yaradılmışdır.

UNEC-də “Tədrisin Keyfiyyəti Tələbələrin gözü ilə” layihəsinin icra olunması haqqında 29.09.2016-cı il tarixli 152/1/2016 saylı əmrlə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”-nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının 3.3. və 3.2.3. bəndlərini, eləcə də, Avropa Keyfiyyət Təminatı Assosiasiyasının “Keyfiyyət təminatı üzrə standart və qaydalar”-nın müvafiq tələblərini əsas tutaraq təhsilalanların keyfiyyət təminatı prosesinə cəlb edilməsini təmin etmək məqsədi ilə 2016/2017-ci tədris ilində adı çəkilən layihənin icrasına başlanılmışdır.

UNEC Elmi Şurasının 06.12.2018-ci il tarixli № EŞ-162 nömrəli qərarı ilə 7 Strateji Məqsəd və 31 Strateji hədəfdən ibarət “UNEC – 100” İNKİŞAF STRATEGİYASI təsdiq edilmişdir.

UNEC-in Elmi Şurasının 24.09.2021-ci il tarixli № EŞ-180 nömrəli qərarının icrasını təmin etmək məqsədilə 23.11.2021-ci il tarixli 757/3/2021 nömrəli əmrlə "Tədrisin keyfiyyətinin qiymətləndirilməsi və idarə edilməsi mərkəzi" və "Tədris-metodiki mərkəz" 15.12.2021-ci il tarixindən birləşdirilərək onların bazasında "Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzi" yaradılmışdır.

23.06.2022-ci il tarixli 431/3/2022 saylı əmrlə Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin Keyfiyyət təminatı şöbəsi 01.07.2022-ci il tarixindən həmin mərkəzin tərkibindən çıxarılaraq müstəqil struktur bölmə kimi müəyyən edilmiş və 27.12.2019-cu il tarixli 259/1/2019 saylı əmrin 6-cı bəndinə əlavə olaraq, Keyfiyyət təminatı şöbəsi rektora tabe struktur vahidi kimi fəaliyyətinə davam etməkdədir. UNEC Elmi Şurasının 28.09.2022-ci il tarixli 185 nömrəli qərarı ilə Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və Strateji İnkişaf Planı (2022-2026) təsdiq edilmişdir.

*2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması*

UNEC tədqiqat mərkəzlərində dövlət qurumları, özəl şirkətlər və digər maraqlı tərəflərdən əməkdaş kimi 50-dən çox nümayəndə cəlb olunmuşdur. Bundan əlavə 2014-2022-ci illərdə 32 müxtəlif şirkətlərlə memorandumlar imzalanmışdır.

12.10.2016-cı il tarixində UNEC Avropa İttifaqının maliyyə dəstəyi ilə “Bolonya prosesi və keyfiyyət təminatı üzrə Avropa standartları və təlimatları” mövzusunda təlimlər təşkil olunmuşdur. Təlimlər “Ali təhsil sisteminin Avropa ali təhsil məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə dəstək göstərilməsi” adlı tvinninq layihəsi çərçivəsində həyata keçirilmişdir. https://unec.edu.az/unec-de-ali-tehsilde-keyfiyyet-teminati-standartlari-ile-elaqedar-novbeti-telimkecirilib/

19.11.2021-ci il tarixində UNEC Azərbaycan və Türkiyə ali təhsil müəssisələri arasında “Keyfiyyət təminatında təcrübə mübadiləsi” adlı beynəlxalq hibrid formada keçirilən vebinara ev sahibliyi etmişdir. Tədbirdə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin nümayəndəsi, Türkiyənin Hacəttəpə, Boğaziçi, Ankara, İstanbul və Yıldız Teknik universitetləri ilə yanaşı, Azərbaycanın 21 ali təhsil müəssisəsinin keyfiyyət təminatı mərkəzlərinin rəhbərləri iştirak etmişdirlər. https://unec.edu.az/azerbaycan-ali-tehsilinde-yenilik-keyfiyyet-teminatinda-beynelxalq-tecrube-mubadilesi/

UNEC-də 2022/2023-cü tədris ilinin payız semestrində yeni tədris olunacaq 50 yeni fənn üzrə dördüncü təlim proqramı keçirilmişdir. Təlim proqramında 400 nəfər UNEC əməkdaşı ilə yanaşı, Odlar Yurdu Universitetinin, Əmək və Sosial Münasibətlər Akademiyasının, Dövlət Gömrük Komitəsi Akademiyasının və Qərbi Kaspi Universitetinin əməkdaşları da iştirak etmişdirlər. Təlimlər Türkiyənin Hacettepe, İstanbul, Ankara, Yıldız Teknik, Marmara, Uludağ, Qazi, İstinye, Artvin Çoruh universitetlərindən dəvət edilmiş təlimçilər tərəfindən 30 saatlıq proqram üzrə həyata keçirilmişdir. https://news.unec.edu.az/xeber/106-tedris/8954-turkiyeli-professorlar-unec-de-yeni-fenler-uzre-telimler-kechirler

*2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti*

UNEC-də “Keyfiyyət ili” çərçivəsində görüləcək işlərin 7 başlıqdan ibarət Tədbirlər Planı “UNEC – 100” İnkişaf Strategiyasının 1.2, 1.3, 1.6, 2.1 Strateji Hədəflərini, İSO 9001 Keyfiyyət İdarəetmə Sistemi üzrə məqsəd və hədəflərin proqramı və onların izlənilməsi Strateji Məqsədlər üzrə müvafiq Strateji fəaliyyətləri də özündə ehtiva edir.

*2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması*

Fəaliyyət planı üzrə icra mexanizmi DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi və PİNT tsikli vasitəsi ilə tənzimlənir. Belə ki, tədbirlər planına əsasən görülmüş işlərlə bağlı sistemdə atılan addımlar icra mexanizmlərini aşağıdakı qaydada özündə ehtiva edir:

- Planlaşdırma: sənədlərin yaradılması, imza və viza mərhələsi, həmçinin bu mərhələdə aidiyyəti üzrə səlahiyyətli şəxslər tərəfindən şərhlərin yazılması və rəy bildirilməsi;
- İcra: sənədə müvafiq dərkənarla icraçı və həmicraçıların təyin edilməsi fəaliyyət bölgüsü və müvafiq mexanizmin rəsmiləşdirilməsi;
- Nəzarət: sənədə dərkənarın son icra müddətinin qoyulması və icraya nəzarətə məsul şəxsin təyin edilməsi (ümumilikdə rəhbərlik tərəfindən dərkənar yazılmış sənədlərin icrasının

vaxtında təmin edilməsinə nəzarət Ümumi şöbə tərəfindən həyata keçirilir );

• Tədbir al (düzəlişlər et): planlanma mərhələsində verilmiş qərar əsasında görülmüş işlərlə bağlı müvafiq səlahiyyətli şəxsin xidməti məlumatına uyğun olaraq müvafiq tədbirin alınması ilə qeyd olunan fəaliyyətlərin davam etdirilməsi və ya icra olunacaq fəaliyyətlərlə bağlı əlavə vaxta ehtiyac yarandığı üçün icra müddətinin uzadılması.

*2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması*

Elmi Şuranın 18.09.2015-ci il tarixli № EŞ-140 nömrəli qərarı ilə təsdiqlənmiş "Tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə" Tədbirlər Planı 6 başlıq və 57 tədbirdən ibarətdir.

10.11.2015-ci il tarixli 104/1/2015 saylı əmrlə UNEC-də "Özünüqiymətləndirmə və Keyfiyyətin Yüksəldilməsi" üzrə yaradılmış daimi Şuranın aşağıdakı vəzifə və səlahiyyətləri var:

1. Keyfiyyət İdarəetmə Sistemi çərçivəsində alınan qərarların, hazırlanan təklif və hesabatların təsdiq edilməsi;
2. Keyfiyyət İdarəetmə Sistemi çərçivəsində alınan qərarların universitetin bütün struktur bölmələrində tətbiqini tələb etmək.

UNEC Elmi Şurasının 06.12.2018-ci il tarixli № EŞ- 162 nömrəli qərarı ilə təsdiq edilmiş UNEC-100 İnkişaf Strategiyasının icra göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü 28.02.2022-ci il tarixli 60/1/2022 saylı əmrlə təsdiq edilmişdir.

*2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti*

UNEC Elmi Şurasının 06.12.2018-ci il tarixli № EŞ-162 nömrəli qərarı ilə təsdiq edilmiş UNEC-100 İnkişaf Strategiyasının 7 Strateji Məqsədi aşağıda qeyd edilmişdir:

1. Yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək;
2. Tədqiqat universitetinə çevrilmək;
3. Sahibkar universitetə çevrilmək;
4. Sosial xidmətlərdə aparıcı universitetə çevrilmək;
5. Beynəlmiləl universitetə çevrilmək;
6. Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq;
7. Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək.

UNEC Elmi Şurasının 28.09.2022-ci il tarixli № EŞ-185 nömrəli qərarı ilə təsdiq edilmiş daxili keyfiyyət təminatı sistemi üzrə Strateji Fəaliyyət Planı “ESG 2015” və “UNEC 100 Strateji İnkişaf Strategiyası” ilə, ali təhsil müəssisələrinin idarə olunması üzrə keyfiyyət təminatı meyarlarının inteqrasiyası əsasında hazırlanmışdır. SFP-nı özündə aşağıdakı meyarları ehtiva edir:

1. İşə götürənlər: Dövlət və özəl sektor, ictimaiyyət;
2. Tələbələr;
3. Təhsil sistemi (proqramları və kurrikulum);
4. Fakültə (akademik heyət);
5. İdarəetmə (inzibati menecment).

*2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması*

UNEC-in Keyfiyyəti İdarəetmə Sistemi TS EN İSO 9001 standartının ən son variantının tələblərini özündə əks etdirir. Hazırkı sənəddə aşağıda sadalanan proses və prosedurlarına istinadlar edilmişdir:

| Say | Sənəd № | Normativ sənəd |
|---|---|---|
| 1. | KİS/Pr/01 | Sənədlərə nəzarət proseduru |
| 2. | KİS/Pr/01-1 | Sənədlərin strukturu və tərtibat qaydaları |
| 3. | KİS/Pr/02 | Qeydlərə nəzarət proseduru |
| 4. | KİS/Pr/03 | Daxili audit proseduru |
| 5. | KİS/Pr/04 | Uyğun olmayan məhsul və fəaliyyətə nəzarət proseduru |
| 6. | KİS/Pr/05 | Düzəldici və önləyici fəaliyyət proseduru |
| 7. | KİS/Pr/06 | Keyfiyyəti İdarəetmə Sisteminin rəhbərlik tərəfindən təhlil proseduru |
| 8. | KİS/Pr/07 | Satınalma proseduru |
| 9. | KİS/Pr/08 | Kitabxananın idarəedilməsi proseduru |
| 10. | KİS/Pr/09 | Məmnunluğun qiymətləndirilməsi proseduru |
| 11. | KİS/Pr/10 | Xəbərləşmə proseduru |
| 12. | KİS/Pr/11 | Risklər və onların idarə edilməsi proseduru |
| 13. | KIS/Ps/01 | İnsan resurslarının idarə edilməsi proseduru |
| 14. | KIS/Ps/02 | Tədris prosesi |
| 15. | KIS/TI/01 | Kargüzarlıq işinin təşkilinə dair təlimat |
| 16. | KIS/TI/02 | Arxiv işinin təşkilinə dair təlimat |

2020/2021-ci tədris ili üçün distant dərslərin keyfiyyətini təmin etmək məqsədilə professor-müəllim heyəti və tələbələr üçün təlimatlar 12.09.2020-ci il tarixli, D/Y-7111/2020 nömrəli "Distant dərslərin keçirilməsi zamanı müəllim və tələbələrin davranışlarına dair təlimatın təsdiq edilməsi haqqında" xidməti məktubla təsdiq edilmişdir.

UNEC Elmi Şurasının 14.09.2020-ci il tarixli № EŞ-173 nömrəli qərarı ilə əməkdaşların, təhsilalalanların intizam qaydaları və etik davranış kodeksi təsdiq edilmişdir.

UNEC-in rəsmi saytında – https://unec.edu.az/ struktur bölmələr, görülmüş işlər, qaydalar, təlimatlar, video çarxlar və video təlimatlar haqqında məlumatlar hər kəs üçün əlçatandır.

DocNet Elektron Sənəd Dövriyyəsi Sistemində bütün istifadəçilər üçün "TƏLİMATLAR" yaradılmış və müvafiq məlumatlar öz əksini tapmışdır.

EDUMAN LMS-də professor-müəllim və təhsilalan heyəti üçün bildiriş şəklində məlumatlandırma təşkil edilir.

*2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi*

28.02.2022-ci il tarixli 60/1/2022 saylı əmrlə UNEC – 100 İnkişaf Strategiyasının 7 strateji məqsədi üçün strateji hədəflər və onların icra göstəriciləri təsdiq edilmişdir. Həmin icra göstəriciləri üzrə isə illərə görə kəmiyyət ölçüsü, monitorinq və hesabat tezliyi, nəzərdə tutulan strateji fəaliyyətlərlə bağlı icrası strukturlar və cavabdeh səlahiyyətli şəxslər müəyyən edilmişdir.

UNEC Elmi Şurasında tədris illəri üzrə fakültələr, kafedralar üzrə mənimsəmə və keyfiyyət göstəriciləri haqqında hesabatlar (prorektorların, struktur bölmə rəhbərlərinin hesabatları) müzakirə edilir və zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilir.

*2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti*

Tvinninq layihəsi çərçivəsində UNEC-in təqdim etdiyi İnstitusional Pilot Qiymətləndirmə üzrə Qiymətləndirmə Hesabatı Tvinninq layihəsinin rəhbərləri tərəfindən 12.05.2017-ci il tarixində təsdiqlənmişdir.

UNEC – 100 İnkişaf Strategiyasının 1.3 Hədəfinin icrasını təmin etmək məqsədilə beynəlxalq səviyyədə təcrübəli keyfiyyət təminatı agentliyi olan FIBAA (Foundation for International Business Administration Accreditation) tərəfindən akkreditasiyadan keçirilməsi nəzərdə tutulan 3 ixtisasın – "Maliyyə", "Biznesin idarə edilməsi" və "İqtisadiyyat" təhsil proqramlarının ÖH-ları hazırlanmışdır.

*2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti*

Azərbaycan Dövlət İqtisad Universitetinin akkreditasiyası barədə Elm və Təhsil Nazirliyinin 11.03.2016-cı il tarixli Kollegiya qərarını və Azərbaycan Respublikasının Elm və Təhsil nazirinin 20.05.2016-cı il tarixli 329 saylı əmrinin 5-ci bəndinin (akkreditasiya zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi) icrasını təmin etmək məqsədilə 17.11.2016-cı il tarixli 197/2/2016 saylı əmr olmuşdur.

10.04.2017-ci il tarixli 010-011-415/02/2017 nömrəli çıxış məktubu ilə keçmiş Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinə 2014/2015-ci tədris ilində keçirilmiş akkreditasiya zamanı qeyd olunan iradların aradan qaldırılması və verilmiş tövsiyələrlə əlaqədar görülmüş işlər haqqında məlumat göndərilmişdir.

*2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti*

Maraqlı tərəflərin məmnunluq səviyyəsinin öyrənilməsi üçün müvafiq tədqiqat metodlarının tətbiqi ilə ümumilikdə 21 sorğu keçirilmişdir. Xarici maraqlı tərəflər arasında keçirilmiş sorğularda respondent sayı 1507-2345 nəfər aralığında olmuş, 60 faizdən yuxarı məmnunluq səviyyəsi qeydə alınmışdır. Daxili maraqlı tərəflər üzrə keçirilmiş sorğular üzrə məmnunluq səviyyəsi 75 faizdən, ümumilikdə maraqlı tərəflər arasında keçirilmiş sorğular üzrə məmnunluq səviyyəsi isə 72 faizdən yuxarı olmuşdur.

2019-cu ilin aprel ayından "Bir pəncərə" (BP) xidməti təqdim edilmiş və tələbələrin istifadəsinə verilmişdir. BP sistemi vasitəsi ilə tələbə müvafiq təhsil sənədlərini hazırlanması üçün şəxsi kabinetindən 7/24 xidmətə müraciət edə bilir. Hazırlanmış sənəd, imza və möhürlə təsdiq olunmuş, QR kodla PDF formatında tələbənin elektron ünvanına göndərilir.

https://birpencere.unec.edu.az/index.php/az/ linkinə daxil olaraq çat bölməsindən BP-də qarşılaşdıqları problemlərini qeyd edir və müraciətlər Bir pəncərə şöbəsi tərəfindən cavablandırılır. Bundan əlavə BP sistemi vasitəsilə tələbə "İrad və təkliflər"-ini də göndərə bilir və həmin müraciəti aidiyyəti üzrə şöbələr və ya dekanlıqlar tərəfindən cavablandırılır. Həmçinin tələbələrin UNEC-in sosial media imkanlarından istifadə etməklə də aidiyyəti üzrə müraciət etmək imkanları var.

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

*2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması*

09.03.2012-ci il tarixli 29/1 nömrəli əmrlə Keyfiyyət İdarəetmə Sisteminə (KİS) keçidlə əlaqədar Təşkilat Komissiyası yaradılmış və müvafiq dəyişikliklərlə indiyə kimi komissiya öz işini davam etdirir. 2016-cı ildən hər il üzrə KİS-in tətbiqi ilə əlaqədar daxili auditin keçirilməsi və yekun hesabatın hazırlanması məqsədilə rektorun əmri olur. Əmr, audit qrafiki, auditorların şöbələr üzrə bölgü qrafiki, audit iştirakçılarının qeydiyyatı və audit sorğu cədvəli əsasında daxili audit keçirilir və yekunda KİS üzrə rəhbərlik təmsilçisinə hesabat təqdim olunur.

23.11.2021-ci il tarixli 757/3/2021 nömrəli əmrlə Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzində Müəllim təlim bölməsi yaradılmışdır. UNEC Elmi Şurasının 31.05.2022-ci il tarixli EŞ-183 nömrəli qərarı ilə adı dəyişdirilərək UNEC Akademik İnkişaf bölməsi adlandırılmışdır.

AR TN-dən daxil olmuş 21.09.2016-cı il tarixli 02-11-6577/17 saylı məktub əsasında 11.10.2016-cı il tarixli 160/1/2016 saylı əmrlə AR TN tərəfindən həyata keçirilən Tvinniq layihəsi çərçivəsində Keyfiyyət təminatı üzrə Avropa ali təhsil standartları əsasında pilot qiymətləndirilmənin həyata keçirilməsi məqsədi ilə işçi qrupu yaradılmışdır.

23.01.2019-cu il tarixli 20/1/2019 saylı əmrlə Tədris materiallarının keyfiyyətinin yüksəldilməsi və müasir standartlara uyğun hazırlanması məqsədilə işçi qrup yaradılmışdır.

UNEC-də 01.05.2015-ci il tarixindən UNEC-də DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi tətbiq edilməsi ilə struktur bölmələr arasında daxili yazışmalarla səmərəli kommunikasiya şəbəkəsinin qurulması təmin edilir.

*2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması*

21.10.2016-cı il tarixli 171/1/2016 saylı əmrlə 2016/2017-ci tədris ilində, 18.10.2017-cı il tarixli 187/1/2017 saylı əmrlə 2017/2018-ci tədris ilində, 26.09.2018-ci il tarixli 185/1/2018 saylı əmrlə 2018/2019-cu tədris ilində, 08.10.2019-cu il tarixli 193/1/2019 saylı əmrlə 2019/2020-ci tədris ilində, 08.10.2019-cu il tarixli 193/1/2019 saylı əmrlə 2020/2021-ci tədris ilində keyfiyyət elçilərinin tərkibi təsdiq edilmişdir.

21.10.2016-cı il tarixli 171/1 saylı əmrlə müəyyən edilmiş UNEC keyfiyyət elçiləri fakültələr üzrə 03 noyabr 2016-cı il tarixindən fəaliyyətə başlamış və müvafiq indikatorlar əsasında keyfiyyətin müşahidəsi və keyfiyyət mədəniyyətinin inkişafına töhfə vermişlər.

EDUMAN sistemi vasitəsilə professor-müəllim heyəti tərəfindən tədris materiallarının yüklənməsi, tələbə biliyinin qiymətləndirilməsi, “tələbə məmnunluq anketlərinin” mövcudluğu və imtahan nəticələrindən sonra elektron qaydada apellyasiyaya müraciət etmək imkanlarının olması əks-əlaqəyə, keyfiyyət müşahidəsi və mədəniyyətinin davamlı inkişafının izlənilməsinə və araşdırılmasına xidmət edir.

Əks-əlaqənin qurulmasında görülən işlərdən biri 2019-cu ilin aprel ayından “Bir pəncərə” (BP) xidməti tələbələrin istifadəsinə təqdim edilmişdir. BP sistemi vasitəsi ilə tələbə müvafiq təhsil sənədlərini hazırlanması üçün şəxsi kabinetindən 7/24 xidmətə müraciət edə bilir. Hazırlanmış sənəd, imza və möhürlə təsdiq olunmuş, QR kodla PDF formatında tələbənin elektron ünvanına göndərilir.

https://birpencere.unec.edu.az/index.php/az/ linkinə daxil olaraq çat bölməsindən BP-də qarşılaşdıqları problemlərini qeyd edir və Bir pəncərə şöbəsi tərəfindən cavablandırılır. Bundan əlavə BP sistemi vasitəsilə tələbə “İrad və təkliflər”-ini də göndərə bilir və həmin müraciəti aidiyyəti üzrə şöbələr və ya dekanlıqlar tərəfindən cavablandırılır. Həmçinin tələbələrin UNEC-in sosial media imkanlarından istifadə etməklə də aidiyyəti üzrə müraciət etmək imkanları var.

KİS ilə bağlı auditlər keçirilmiş və yekunda “Vəzifə təlimatları üzrə bölgülərin aparılması”, “Məqsəd və hədəflər, onların izlənilməsi”, “Risklərin təhlili və qiymətləndirilməsi” və s. bu kimi meyarları özündə əks etdirən hesabatlar təqdim edilmişdir.

*2.3.3 Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər*

UNEC rəhbərliyinin keyfiyyətin təmin olunmasında töhfəsi olaraq aşağıdakıları qeyd etmək yerinə düşər.

İlk öncə 10.11.2015-ci il tarixli 104/1/2015 saylı əmrlə UNEC-də “Özünüqiymətləndirmə və Keyfiyyətin Yüksəldilməsi” üzrə sədri rektor olmaqla daimi Şura yaradılmışdır.

Daha sonra inzibati heyət–tələbə kommunikasiyasının qurulması istiqamətində 2018/2019-cu tədris ilində tələbələrlə iş üzrə prorektor tərəfindən hazırlanmış qrafikə əsasən UNEC-də bütün fakültələr üzrə təhsilin I il tələbələri ilə rektorun iştirakı ilə görüşlər təşkil edilmişdir.

22.01.2018-ci il tarixində UNEC rektoru keyfiyyət elçiləri ilə görüş keçirmiş və tədrisin keyfiyyətin yüksəldilməsinin UNEC-in əsas hədəflərindən olduğunu bildirən rektor keyfiyyət elçilərinin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib, işlərin daha da təkmilləşdirilməsi üçün keyfiyyət elçiləri mexanizminin institutlaşmasının vacibliyini vurğulamışdır. https://unec.edu.az/unec-in-keyfiyyet-elcileri-ile-gorus/

UNEC Elmi Şurasının 27.02.2018-ci il tarixli № EŞ-57 nömrəli qərarı ilə UNEC Keyfiyyət Elçiləri İnstitutunun (ictimai təşkilat) Əsasnaməsi təsdiq edilmişdir.

2019 -2021-ci illər üzrə tədrisin keyfiyyəti təminatı ilə əlaqədar UNEC-də 16 tədbir üzrə yerli və beynəlxalq təlimçilər tərəfindən 100-dən çox təlim keçirilmişdir. 2020/2021 tədris ilində 79 yeni fənn üzrə beynəlxalq təlimçilər tərəfindən keçirilmiş təlimlərdə 576 nəfər iştirakçı olmuşdur. Yeni təhsil proqramlarına keçidlə əlaqədar tədris ediləcək yeni fənlər üzrə təlimlərdə 337 nəfər iştirakçı sertifikat qazanmışdır.

Professor-müəllim heyəti üçün 2016-cı ildə UNEC gənc müəllimlərinin peşə bacarıqlarını inkişaf etdirmək və onların akademik həyata inteqrasiyasını sürətləndirmək, 2017-ci ildə professor-müəllim heyətinin müasir tədris bacarıqlarının daha da təkmilləşdirmək, 2018-ci ildə akademik heyətinin elmi və pedaqoji potensialının yüksəltmək və 2019-cu ildə isə professor-müəllim heyətinin elmi potensialının və pedaqoji bacarıqlarının artırmaq, bu sahədə xarici təcrübənin öyrənmək məqsədi ilə UNEC-in Quba Tədris, İdman və İstirahət Mərkəzində Qış məktəbləri təşkil edilmişdir.

Keyfiyyətin təmin olunmasında rəhbərliyin töhfəsinə bariz nümunə kimi hesabat dövründə – 2016/2017-2021/2022-ci tədris illərində professor-müəllim heyəti üzrə 85 nəfərin, digər əməkdaşlar üzrə isə 61 nəfərin beynəlxalq təcrübə mübadiləsində iştirak etməsini göstərmək olar. Həmçinin, nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış UNEC-in professor-müəllim heyətinin xaricdə tədqiqat apardığı müddətdə UNEC-dəki əməkhaqlarının saxlanılması ilə bağlı UNEC-in Elmi Şurasının 28.02.2019-cu il tarixli 164 nömrəli qərarını da UNEC rəhbərliyinin institusional dayanıqlılıq və müvafiq sahələr üzrə heyətin özünüinkişafı istiqamətində görülən iş və fəaliyyətlərə aid etmək olar.

23.01.2019-cu il tarixli 20/1/2019 saylı əmrlə yaradılmış işçi qrup tərəfindən 24-26.05.2019-cu il tarixlərində UNEC-in Quba Tədris, İdman və İstirahət Mərkəzində “Tədris və attestasiya materiallarının tərtibində müasir yanaşmalar” mövzusunda kafedralar üzrə 60 nəfər əməkdaşa təlim keçirilmişdir. Təlim nəticəsində kafedralarda tədris materiallarının təkmilləşdirilməsi ilə bağlı müzakirələr aparılmış və ilkin mərhələ olaraq 2019/2020-ci tədris ilində tədris olunacaq fənlər üzrə sistemdə olan test tapşırıqlarının nəzəri, texniki və məzmun baxımından yoxlanılması və yeni test bankının hazırlanması 03.07.2019-cu il tarixli D/Y-8113/2019 nömrəli “Yeni test bankının hazırlanması haqqında” xidməti məktubla təsdiq edilmişdir.

UNEC Elmi Şurasının 31.05.2022-ci il tarixli № EŞ-183 nömrəli Qərarı ilə “İlin gənc müəllimi” mükafatı təsis edilmişdir.

23.06.2022-ci il tarixli 431/3/2022 saylı əmrin 6-cı bəndinə əsasən Keyfiyyət təminatı şöbəsi 27.12.2019-cu il tarixli 259/1/2019 saylı əmrin 6-cı bəndinə əlavə olaraq rektorun tabeliyində hesab olunmuşdur.

*2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti*

UNEC-in strukturlararası fəaliyyətinin koordinasiyası DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilir. Strukturlar arasında daxili yazışmalarda ilkin olaraq sənəd layihəsi yaradılır, daha sonra rəy verilməsi və baxılması üçün göndəriləcək səlahiyyətli şəxs seçilir və müvafiq qaydada imza, viza marşurutları müəyyən edilir. Bu zaman iyerarxiyaya əməl olunaraq viza üzrə marşrutun təyini müəyyən edilmiş UNEC daxili qaydalara uyğun həyata keçirilir. Sənəd ən sonda seçilmiş şəxsin baxılması və müvafiq dərkənarla icra, həmicra, məlumata və nəzarətə yönəldilir. Bundan əlavə DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə eyni kontekstdə olan sənədləri hər hansı bir sənədlə əlaqələndirməklə onlarla bağlı müvafiq məlumat təqdim edilir.

KİS üzrə hesabatda strukturlar və fakültələrdə icra vəziyyəti yoxlanılan meyarlardan biri kimi “Əməkdaşların keyfiyyət siyasəti barədə hansı səviyyədə məlumatlı olması” qeyd edilmişdir.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

*3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti*

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı həm bakalavriat həm də magistratura səviyyələrində qəbul planı yerlərinə illər üzrə faktiki qəbul nəzərə alınmaqla hazırlanmış məlumatlar bazası Tədrisin Metodiki və Keyfiyyət Təminatı Mərkəzi (TMKTM) tərəfindən təhlil edilir və fakültələrə göndərilir. Fakültə, məktəb və mərkəzlər bu məlumatları nəzərə alaraq öz təkliflərini TMKTM ümumiləşdirilməsi üçün təqdim edir. Strukturlar tərəfindən təqdim edilən proqnoz göstəriciləri Universitetin rəhbərliyi ilə razılaşdırılır və müvafiq qaydada Elm və Təhsil Nazirliyinə göndərilir. Bununla yanaşı tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı universitetin auditoriya fondu, akademik heyət, kadr potensialı, maddi texniki baza kimi imkanlar da nəzərə alınır. Magistratura səviyyəsinə qəbul sifarişlərinin hazırlanması zamanı bakalavriat səviyyəsindən məzun olan umumi tələbə kontingentinin sayı nəzərə alınır.

*3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti*

Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun hazırlanması üçün UNEC öz tərəfindən əmək bazarının aktiv iştirakçılarını universitetə dəvət edir və Əmək yarmarkaları keçirir. UNEC-də "Karyera planlaşdırılması və inkişafı" kafedrasının akademik heyəti əsasən əmək bazarının iştirakçılarıdır. UNEC-də sonuncu təhsil illərində təhsil alan tələbələrin ayrı-ayrı müəssisələrə İstehsalat təcrübəsi keçmələri üçün göndərilməsi zamanı əldə edilən müvafiq məlumatlar tələbə qəbulu sifarişlərinin hazırlanmasında nəzərə alınır. Bundan başqa UNEC-in müvafiq strukturları universitetdən məzun olan tələbələrin hansı sahədə daha çox işlə təmin olmaları haqqında məlumatları toplayır və tələbə qəbulu sifarişlərinin hazırlanmasında bu məlumatlardan istifadə edilir. Tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi üçün universitetin auditoriya fondu, akademik heyət, kadr potensialı, maddi texniki baza kimi imkanlar da nəzərə alınır.

*3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti*

Universitet tərəfindən hazırlığı həyata keçirilən kadrların əmək bazarında işlə təmin oluna bilmələri istiqamətində UNEC-in müvafiq strukturları daim araşdırmalar aparır. Bu işlərin daha səmərəli həyata keçirilməsi ilə əlaqədar UNEC-də Karyera mərkəzi

yaradılmışdır. Bununla yanaşı pedoqoji təcrübəyə malik əmək bazarında çalışan mütəxəssislərin tədrisə cəlb edilmələrinə böyük üstünlük verilir. Həmin mütəxəssislərin əmək bazarında hansı ixtisaslara daha çox ehtiyac olduğu fikirləri öyrənilir və gələcəkdə tələbə qəbulu ilə bağlı sifarişlərin hazırlanmasında nəzərə alınır. Bundan başqa universitetdə mütamadi olaraq təşkil olunan Əmək yarmarkaları zamanı təhsil müəssisəsinə dəvət olunan işəgötürənlərin də bu istiqamətdə fikirləri önəm daşıyır.

*3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti*

UNEC-ə subbakalavrların bakalavriat səviyyəsi, ali təhsil müəssisələrindən məzun olanların isə təkrar təhsil üzrə qəbulu həyata keçirilir. Qəbul olan tələbələr öz təhsil müəssisələrində dinlədikləri fənlərin və qazandıqları kreditlərin tanınması və UNEC-də ayrı-ayrı ixtisasların tədris planlarında mövcud olan fənlərlə uyğunlaşdırılması ilə əlaqədar fakültə rəhbərlərinə müraciət edirlər. Bununla bağlı fakültə rəhbərləri təqdim olunan fənlərin uyğunlaşdırılması və tanınması üçün UNEC-in rektoruna müvafiq təqdimatlarla müraciət edirlər. Təqdim olunan fənlərin və kreditlərinin tanınması və ayrı-ayrı ixtisasların tədris planlarında olan fənlərlə uyğunlaşdırılması UNEC rektorunun 20.12.2018-ci il tarixində 255/1/2018 saylı əmri ilə yaradılmış “Fənlərin uyğunlaşdırılması” komissiyası tərəfindən həyata keçirilir. Komissiya fakültələr tərəfindən təqdim olunan təklifləri öz iclaslarında müzakirəyə çıxararaq qərar qəbul edir və bu keçirilən iclasların protokollarında öz əksini tapır.

## *3.2 Təhsil proqramları*

*3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi*

18 iyul 2018-ci il Azərbaycan Respublikası Nazirlər Kabinetinin 311 saylı qərari ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nində qeyd edilmiş 5-ci səviyyə – orta ixtisas, 6-cı səviyyə – bakalavr, 7-ci səviyyə – magistr, 8-ci səviyyə – fəlsəfə doktoru, elmlər doktoru və təkrar ali təhsil üzrə universitetdə mütəxəssis hazırlığı həyata keçirilir. Belə ki, bakalavriat səviyyəsi üzrə 22 ixtisas, magistr səviyyəsi üzrə 20 ixtisas 61 ixtisaslaşma, MBA proqramı üzrə “Biznesin idarə edilməsi” ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 29 istiqamət və fəlsəfə doktoru üzrə 11 ixtisas üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

*3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti.*

UNEC qarşısında duran əsas vəzifələrdən biri tədris prosesini müasir tələblərə uyğun

təşkil edilməsidir. Universitetdə mövcud ixtisaslar üzrə tədris prosesinin təşkili Ali təhsil səviyyəsinin Dövlət Təhsil Proqramına uyğun hazırlanmış və Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş Tədris planları əsasında həyata keçirilir. Balakavr səviyyəsi üzrə 2016-2017-ci tədris ilindən 2021-2022-ci tədris ilinə qədər iki Təhsil Proqramı tətbiq olunub. Birinci Təhsil Proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 913 saylı qərarı ilə 2014-cü ildə, ikinci Təhsil Proqramı isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 343 saylı qərarı ilə 2020-cı ildə qəbul edilmişdir. Magistratura səviyyəsində 2016-cı ildə İqtisadiyyat və idarəetmə ixtisasları üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 640 saylı, texniki və texnoloji ixtisaslar üzrə 2012-ci ildə 1463 saylı qərarı ilə təsdiq edilmişdir. Təhsil Proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin məsələn: Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə nazirliyi, Mərkəzi Bank, Ernst and Young, Deloitte, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi, SOCAR, KPMG, Kapital Bank, Baker Tilly kimi nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alınmışdır. Bu Təhsil Proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənləri əsasən əmək bazarının iştirakçıları tədris edirlər.

*3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti*

Təhsil Proqramı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı”na uyğun hazırlanmışdır. İxtisas üzrə məzunun kompetensiyaları hazırlanarkən ixtisasın çərçivəsi, fənlər üzrə təlim və öyrənmə metodları, qiymətləndirmə üsulları, təlim nəticələri, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialı nəzərə alınır.

Tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti ixtisasın Təhsil Proqramlarında və ona uyğun hazırlanmış Tədris planlarında öz əksini tapmışdır. Belə ki, ixtisasın peşə və kompetensiya formalaşdıran əsas və seçmə fənləri müəyyənləşdirilmişdir. Təhsil Proqramlarına uyğun ixtisasın tədris planları hazırlanmış hal-hazırda kadr hazırlığı bu tədris planlarına uyğun həyata keçirilir.

*3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu.*

UNEC-də Ömürboyu təhsil Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 iyul 2018-ci il 311 saylı qərarı ilə təsdiqlənmiş Azərbaycan Respublikasının ömürboyu təhsil 5, 6, 7, və 8-ci səviyyələr üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin qoyduğu tələblər, onları təsdiq

edən sənədlər əsasında həyata keçirilir. UNEC-də AzMKÇ-də keyfiyyətin təmin olunması aşağıdakı tələblər nəzərə alınmaqla həyata keçirilir: keyfiyyətin daxili təminatı sistemi, keyfiyyətin qiymətləndirilməsi meyarları, kvalifikasiyaların müvafiq dövlət Təhsil Proqramlarına, əmək bazarının tələblərinə uyğunluğu və s. Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydasında əksini tapmış əlavə təhsil istiqamətlərindən "Təkrar ali təhsil" istiqaməti UNEC-də uğurla reallşdırılır. UNEC Ömürboyu Təhsil Mərkəzi hər kəs üçün əlçatan olan sertifikatlı kurs proqramları hazırlayaraq qısa müddətdə mütəxəssis olmaq istəyən, yeni bir sahəyə maraqlı olan insanlar üçün təhsil almaq imkanı yaradır.

*3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu*

UNEC-də tədrisi həyata keçirilən ixtisasların (ixtisaslaşmaların) bakalavriat səviyyəsi üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2020-ci il 343 saylı qərarı, Magistratura səviyyəsində İqtisadiyyat və idarəetmə ixtisasları üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2016-cı ildə 640 saylı qərarı, texniki və texnoloji ixtisaslar üzrə 2012-ci ildə 1463 saylı qərarla təsdiqlənmiş Təhsil Proqramlarında qeyd edilmiş hər ixtisas üzrə ayrı-ayrılıqda Təhsil Proqramlarının və fənlərin gözlənilən təlim nəticələrininə uyğun həyata keçirilir.

*3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu.*

Tədris planları bakalavriat səviyyəsində 240 (4 il) AKTS, magistratura səviyyəsində isə 120 (2 il) AKTS kreditdən ibarətdir. Təhsil proqramının tələblərinə uyğun olaraq bakalavriat səviyyəsində fənlər Tədris planlarında da üç bloka bölünmüşdür. Bu bloklara Ümumi fənlər, İxtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) aiddir. Ümumi fənlər bloku öz növbəsində iki yerə ayrılır məcburi fənlər 24 AKTS və seçmə fənlər 6 AKTS ümumilikdə 30 AKTS. İxtisas fənləri ümumilikdə 120 AKTS və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTS, Təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTS müəyyən edilmişdir. Magistratura səviyyəsi üzrə hazırlanmış Tədris planlarında ixtisas fənləri blokuna 60 AKTS (məcburi fənlərə 12, ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə isə 48 AKTS), Təcrübə və tədqiqat blokuna isə 60 AKTS müəyyən edilmişdir.

UNEC-də dərs saatlarının bölgüsü və onun Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarının və 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları”nın tələbləri qorunmaqla həyata keçirilir. Belə ki, UNEC- də professor-müəllim heyətinin bir stat üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, az olmamaqla bölgüsü həyata keçirilir. İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit, magistraturada təhsilin normativ müddəti iki il müəyyənləşdirilərək 120 kredit müəyyənləşdirilmişdir.

*3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu*

Təhsil proqramında həyata keçiriləcək kadr hazırlığının təmin edilməsi məqsədi ilə tədris olunan fənlər 3 bloka bölünmüşdür. Ümumi fənlər, İxtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər. Təhsil proqramları hazırlanarkən və hər bir ixtisas üzrə fənlərin müəyyənləşdirilməsi zamanı əmək bazarının iştirakçıları ilə məsləhətləşmələr aparılaraq, xarici nüfuzlu universitetlərin təcrübəsi öyrənilərək həyata keçirilmişdir. Fənlərin müəyyənləşdirilməsi zamanı təhsil proqramlarının tələbləri nəzərə alınmışdır. Belə ki, hər bir ixtisas üzrə müəyyənləşdirilmiş fənlər məzunlara hansı bacarığı, səriştəni verəcəyi nəzərə alınmışdır. Fənlərin təlim nəticələri Təhsil proqramının 6-cı- “Proqramın və hər bir fənnin təlim nəticələri” bəndinə uyğun hazırlanmışdır.

*3.2.8. Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu*

Təsdiq edilmiş təhsil proqramları əsasında UNEC tərəfindən ayrı-ayrı ixtisaslar üzrə tədris planları hazırlanmışdır. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50 %-dən çox olmamalıdır. Tədris planlarının hazırlanması zamanı tələbələrin həftəlik dərs saatları 22,5 saat olmaqla mövcud təhsil proqramının qarşıya qoyduğu tələbələr qorunub saxlanılmışdır.

*3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı.*

UNEC-də mövcud təhsil proqramları və onun əsasında hazırlanmış tədris planları təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə UNEC-in unec.edu.az rəsmi İnternet saytında yerləşdirilmişdir.

*3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti.*

Təhsil proqramlarının hazırlanmasına 2019-cu ildən başlanılmış və 2020-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Təhsil proqramlarının hazırlanması prosesinə əmək bazarının çox saylı iştirakçıları dəvət olunmuşdur. Bu prosesdə işəgötürənlərin tövsiyyələri maksimum dərəcədə nəzərə alınmışdır. Təhsil Proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin məsələn: Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə nazirliyi, Mərkəzi Bank, Ernst and Young, Deloitte, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi, SOCAR, KPMG, Kapital Bank, Baker Tilly kimi nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alınmışdır. Bu Təhsil Proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənləri əsasən əmək bazarının iştirakçıları tədris edirlər.

### *3.3 Tədrisin təşkili*

*3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti*

Bakalavriat səviyyəsi üçün tədris planları hazırlanarkən AR NK-nin 348 saylı qərarının tələblərinin qarşıya qoyduğu normativlər qorunmaqla hazırlanmışdır. Belə ki, bir kredit 30 saat götürülməklə hər semestr ərzində 30 kredit tələbi nəzərə alınmışdır. Ümumilikdə tələbələrin məzun olmaları üçün 240 kredit toplamaları şərti Tədris Planlarının tərtib edilməsi zamanı Təhsil Proqramının tələbinə uyğun hazırlanmışdır. Bu tələblər magistr səviyyəsi üçün də keçərli olmuş, belə ki, burada da hər semestr 30 kredit müəyyənləşdirilmiş və təhsil müddəti 2 il nəzərdə tutulduğu üçün magistrlərin məzun olmaları üçün ümumilikdə 120 kredit tələbi qorunub saxlanılmışdır.

*3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti*

UNEC-də təhsil proqramlarına uyğun hazırlanmış tədris planlarına əsasən həm bakalavriat həm də magistratura səviyyələri üzrə hər bir fakültə fənlərin prekvezitliyi və korrekvezitliyi nəzərə alınmaqla tədris qrafikləri hazırlayırlar. Hazırlanmış tədris qrafikləri universitetin müvafiq strukturunda təsdiq edilərək TMKTM-ə təhvil verilir.

*3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti*

Tədris Planları bakalavriat səviyyəsində 240 (4 il) AKTS magistratura səviyyəsində isə 120 (2 il) AKTS kreditindən ibarətdir. Təhsil Proqramının tələblərinə uyğun olaraq bakalavriat səviyyəsində fənlər Tədris Planlarında üç bloka bölünmüşdür. Bu bloklara Ümumi fənlər, İxtisas fənləri və ATM tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) aiddir. Ümumi fənlər

bloku öz növbəsində iki yerə ayrılır: məcburi fənlər 24 və seçmə fənlər 6 ümumilikdə 30 AKTS. İxtisas fənləri ümumilikdə 120 AKTS və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTS, Təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTS müəyyən edilmişdir. Magistratura səviyyəsi İqtisadiyyat və idarəetmə ixtisasları üzrə hazırlanmış Tədris planlarında ixtisas fənləri blokuna 60 AKTS (məcburi fənlərə 12, ATM tərəfindən müəyyən edilən fənlərə isə 48 AKTS), Təcrübə və tədqiqat blokuna isə 60 AKTS müəyyən edilmişdir.Texniki və texnoloji ixtisaslarda 14 kredit humanitar fənlərə (12 kredit məcburi 2 kredit seçmə), 76 ixtisas fənləri bölümünə (52 kredit məcburi 24 kredit seçmə) elmi tədqiqat işlərinin hazırlanmasına18 kredit və təcrübələrə isə hər biri 6 kredit olmaqla 12 kredit ayrılır.

*3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti*

UNEC-də Tədris Planları hazırlanarkən Ümumi və İxtisas fənləri blokuna ayrılan kredit həcmi və fənlərin sayı AR Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci ildə F-343 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları"nın tələblərinə uyğun hazırlanmışdır. Bu da keyfiyyətli mütəxəssis hazırlığına əlverişli şərait yaradır.

*3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti.*

Təhsil Proqramlarında hər fənn üzrə gözlənilən təlim nəticələri müəyyən edilmişdir. Ayrı-ayrılıqda Təhsil proqramında yer alan fənlər üzrə ən azı 6 gözlənilən təlim nəticələri müəyyənləşdirilmişdir. Bu təlim nəticələri məzunların əldə edə biləcəkləri səriştə, bacarıq və bunun əsasında müəyyən kompetensiyalara yiyələnmələrinə hesablanmışdır. Fənlərin təlim nəticələri ixtisasın təlim nəticələri ilə əlaqələndirilmiş, tədris prosesində iqtisadiyyatda baş verən dəyişikliklərə və onun inkişaf dinamikasına uyğun bunlara daim nəzarət edilir və uyğun olmayan təlim nəticələri yenisi ilə əvəz edilərək təkmilləşdirilir. Bundan başqa 166 yeni fənn üzrə təlimlər həyata keçirilmişdir. Yeni fənn üzrə hazıralanan tədris proqramlarında və sillabuslarında fənnin təlim nəticələrini özündə əks etdirən, ixtisasın peşə kompetensiyalarını öyrədə biləcək bacarıq səriştələrə əsaslanan, eynilə dünya təcrübəsini əks etdirəcək proqramlar hazırlanmışdır.

*3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti*

Sillabuslar ayrı-ayrı dillər üzrə tədris aparan müvafiq kafedraların professor müəllim

heyəti tərəfindən hazırlanır. Fənlər üzrə sillabuslar ixtisas üzrə məzunun əldə edəcəyi peşə kompetensiyaları, fənnin və təhsil proqramının təlim nəticələri, nəzərə alınmaqla hazırlanır. UNEC-də yeni və köhnə təhsil proqramlarında və tədris planlarında olan fənlər üzrə sillabusların hazırlanması zamanı bu sahədə yeniliklər, xarici və yerli mütəxəssislərin təlimləri nəticəsində əldə olunan biliklər də nəzərə alınır. Hazırlanmış sillabuslarda təlim nəticələrinin burada öz əksini tapmasına mütamadi olaraq kafedralar Rektorun əmri ilə universitet və fakültələr üzrə yaradılmış monitorinq qrupları və digər müvafiq strukturlar tərəfindən nəzarət həyata keçirilir.

*3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti*

Tələbənin 5 günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. UNEC-də həftəlik auditoriya saatlarının həcmi isə 22,5 saat nəzərdə tutulmuşdur. 22,5 saatı isə tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir. Magistratura səviyyəsində həftəlik dərs yükü 12-16 saat nəzərdə tutulmuşdur. Onu da qeyd etmək lazımdır ki, tələbələr üçün Təhsil proqramlarında 5 günlük iş rejimi nəzərdə tutulduğu halda UNEC-də 4-5 günlük iş rejimi nəzərdə tutulmuşdur ki, bu da tələbəyə əlavə olaraq dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan yaradır.

*3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti.*

UNEC-də tələbələrin Fərdi Tədris Planları AR NK-nin 348 saylı qərarında qeyd edilən 3.3 “Tələbənin fərdi tədris planının tərtibi” bəndinə əsasən hazırlanır. Hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır və hal-hazırda fakültələrdə saxlanılır.

*3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti*

Kredit sisteminin tələblərinə uyğun ali təhsil müəssisəsi tərəfindən ixtisasın (ixtisaslaşmanın) Təhsil Proqramı əsasında ixtisasın (ixtisaslaşmanın) tədris planı və ixtisasın (ixtisaslaşmanın) illik işçi Tədris Planın hazırlanır. UNEC-də tədrisi aparılan ixtisasların tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, tədris olunan fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks

etdirən müvafiq ixtisaslar üzrə illik işçi Tədris Planları (forma 3) 2016/2017, 2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022-ci tədris illəri üzrə təsdiqlənmişdir və fakültələrdə saxlanılır.

*3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti*

Müəllimin illik işçi tədris planı kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə edilərək təsdiq olunur. Müəllimin illik işçi tədris planları müvafiq qaydada kafedralarda saxlanılır.

*3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)*

UNEC-də tədrisin təşkili ixtisaslar üzrə Təhsil Proqramları əsasında hazırlanmış tədris planları əsasında təşkil edilir. Tədris planlarında hər bir fənnin tədrisində mühazirə, məşğələ və laboratoriya dərsləri nəzərdə tutulmuşdur. Mühazirələr birləşdirilmiş qruplarda məşğələlər isə tədris olunan materialların daha da səmərəli mənimsənilməsi və tələbələrin hər birinin qiymətləndirilməsinin həyata keçirilməsi üçün birləşdirilmiş qrupun daxilində olan hər bir qrupa ayrı-ayrılıqda məşğələ dərsləri təşkil edilir. Laboratoriya dərsləri əsasən texniki və texnoloji ixtisaslarda nəzərdə tutulmuşdur. Bu dərslərin daha səmərəli təşkili ilə əlaqədar UNEC-in III tədris binasında ixtisaslaşdırılmış müasir avadanlıqlarla təhciz edilmiş 18 laboratoriya fəaliyyət göstərir.

*3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti*

UNEC-də akademik məsləhətçilərin fəaliyyəti AR NK-nin 348 saylı qərarının 5-ci bəndinə əsasən təşkil edilmişdir. UNEC-də tyutor məsləhət xidməti təhsilalanlarla və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi və tələbələrin kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, Elektron universitet, İkili diplom, Minor və mübadilə proqramları barədə məlumatlandırılması, eyni zamanda EDUMAN sistemində kommunikasiya paneli üzərindən məsləhətlərin verilməsini, tələbələrin ayrı-ayrı təhsil illəri üzrə FTP-in tərtib edilməsini təşkil edir.

*3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti*

UNEC-də bakalavriat səviyyəsində tələbələr tərəfindən sərbəst işlərin işlənib

hazırlanması “Dizayn”, texniki və texnoloji ixtisaslar istisna olmaqla nəzərdə tutulmamışdır. “Dizayn”, texniki və texnoloji ixtisaslar istisna olmaqla digər ixtisaslarda sərbəst işlərin qiymətləndirilməsi əvəzinə digər daha səmərəli qiymətləndirmə mexanizmi tətbiq edilir. Onu da qeyd edək ki, “Dizayn” ixtisasında sərbəst işlər “fərdi işlər”, texniki və texnoloji ixtisaslarda laboratoriya işləri, türk bölməsi və magistratura səviyyəsi tələbələri layihə işləri həyata keçirilir.

*3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti*

UNEC-də bakalavriat səviyyəsində istehsalat və magistratura səviyyəsində, elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrin təşkili və keçirilməsi NK-nin 19 sentyabr 2008-ci il tarixli 221 saylı qərarı ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” əsasnaməsinə Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Təhsil proqramına uyğun həyata keçirilir.

Təcrübənin təşkili şöbəsi UNEC rektorunun 02 noyabr 2016-cı il tarixli 751/3/2016 saylı əmrilə yaradılmışdır. UNEC-də bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinin təşkili və keçirilməsi qaydaları UNEC  EŞ-nın 28 fevral 2019-cu il tarixli iclasının EŞ – 164 saylı qərarı ilə təsdiq edilmişdir. Hazırda istehsalat təcrübəsi prosesi həmin qaydalarla tənzimlənir.

*3.3.15 Stajkeçmənin təşkili vəziyyəti*

Stajkeçmənin təşkili ilə bağlı qeyd etmək istərdik ki, UNEC-in professor-müəllim heyəti xarici təhsil müəssisələrinə təcrübə toplamaları üçün ezamiyyə olunur və  həm də UNEC-ə xarici təcrübəli mütəxəssislər professor müəllim heyətinə təlim keçmələri üçün dəvət olunurlar.

Sonda təlim iştirakçıları bu təlimlərlə əlaqədar attestasiyadan keçirlər və onlara sertifikatlar təqdim olunur.

*3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti*

UNEC-də Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci ildə F-343 saylı qərarı ilə təsdiqlənmiş “Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsi Proqramları”nda nəzərdə tutulmadığı üçün təşkil olunmur.

*3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti*

Buraxılış işinin hazırlanması və müdafiəsinin təşkili Elm və Təhsil Nazirliyinin 13 mart 1997-ci il 152 saylı əmri ilə “Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması” məsələlərini tənzimləmək məqsədilə təsdiq edilmiş sənədi əldə rəhbər tutularaq həyata keçirilir.

Magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili AR-nın “Təhsil haqqında” Qanunu, NK-nin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”, NK-nin 24 iyun 2010-cu il № 117 saylı qərarı ilə təsdiqlənmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”, Elm və Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”, Elm və Təhsil Nazirliyinin 2016-cı il 30 sentyabr tarixli 640 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin magistratura səviyyəsində iqtisadiyyat və idarəetmə, texnologiya mühəndisliyi ixtisasları üzrə dövlət standartları”, Ali təhsilin magistratura və doktorantura səviyyələrində təhsili tənzimləyən normativ-hüququ aktlar və UNEC daxili qaydaları UNEC-in Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin Əsasnaməsi, UNEC-in rəhbərliyinin və Elmi Şurasının qərarı, eləcə də digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmiş “Magistr dissertasıyasının hazırlanması, təqdim edilməsi və qiymətləndirilməsi qaydaları”na uyğun olaraq həyata keçirilir.

*3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti*

İmtahan sessiyası AR NK-nin 348 saylı qərarı ilə təsdiqlənmiş Qaydaların tələblərinə uyğun keçirilir. UNEC-də payız və yaz semestri imtahanları Elm və Təhsil nazirinin payız və yaz semestri imtahanlarının keçirilməsi ilə bağlı əmrindən sonra universitet rektorunun əmri ilə təşkil olunur. Universitetdə imtahanlar yazılı və test formasında həyata keçirilir. Yazılı imtahanlar əsasən peşə hazırlığı, hansı ki, kompetensiya əsaslı, səriştə və bacarıq aşılayan fənlər üzrə keçirilir. İmtahan sessiyasından sonra sessiyanın nəticələrinə həsr edilmiş hesabat Elmi Şurasında müzakirə edilir və daha sonra Elm və Təhsil Nazirliyinə təqdim edilir.

*3.3.19 Yay semestrinin təşkili vəziyyəti*

UNEC-də Yay semestri AR NK-nin 348 nömrəli qərarı ilə təsdiq edilmiş qaydalara, həmçinin UNEC EŞ-nın 31 may 2022-ci il, 183 saylı qərarı ilə təsdiq edilmiş “UNEC-də Yay semestrinin təşkili və keçirilməsi Qaydaları” əsasında təşkil edilir.

*3.3.20 Akademik borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*

Bakalavriat səviyyəsi üzrə




Magistratura səviyyəsi üzrə



*3.3.21 Akademik borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası*

Bakalavriat səviyyəsi üzrə




Magistratura səviyyəsi üzrə




*3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti.*

UNEC-də dərs saatlarının bölgüsü və onun Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu AR NK-nin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı və 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları"nın tələbləri qorunmaqla həyata keçirilir. Belə ki, UNEC- də professor-müəllim heyətinin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, az olmamaqla bölgüsü həyata keçirilir. Saathesabı dərs yükü 240 saat olmaqla tətbiq edilir. Tədrisin təşkili tədris planlarında olan fənlərin

sillabuslarına və fənn proqramlarına uyğun həyata keçirilir. Mühazirə və məşğələ dərsləri 2 akademik saat olmaqla təşkil olunur. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar UNEC üzrə umumi və hər fakültə üzrə ayrı-ayrılıqda monitorinq qrupları yaradılmışdır. Keçirilmiş monitorinq nəticələri üzrə aidiyyəti fakültələrdə müzakirələri keçirir, bu zaman müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər hazırlanır və gələcəkdə bu qüsurlar aradan qaldırılır. Bu prosesin səmərəliliyinin artırılması ilə əlaqədar kafedra əməkdaşlarının açıq dərsləri təşkil olunur. Açıq dərslərin kafedra iclaslarında müzakirəsi həyata keçirilir.

### *3.4 Tədris metodları və üsulları*

*3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interektiv metod və texnalogiyalardan istifadə vəziyyəti.*

2016/2017-2021/2022-ci tədris illərində UNEC-də təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interektiv metod və texnalogiyalardan istifadə edilir. Belə ki, innovativ, yaradıcı və interektiv metodlardan olan – frontal sorğu metodundan, ev tapşırıqlarının cavablandırılması üzrə qiymətləndirmə metodundan, test tapşırıqları əsasında Quizizz.com, Google Forms, Kahoot kimi onlayn tətbiq vasitələrindən, Çevrilmiş (Flipped) tədris metodundan mühazirə və məşğələ dərslərinin təşkilində istifadə edilir. Təlim nəticələrinin əldə olunmasını təmin edən Distant, Hibrid, Modul əsaslı müasir təlim texnalogiyalarından da istifadə edilir.

*3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti*

Tədris metodlarında tələbəyönümlü tədrisin təşkili üzrə Çevrilmiş (Flipped) tədris metodundan, fənlərin spesifikliyindən asılı olaraq problem yönümlü, İnsert, Flayer kimi tədris metodundan istifadə etməklə həyata keçirilir. Fənlər üzrə proqramlar kompetensiya əsaslı, nəzəriyyə və praktiki tətbiqləri özündə əks etdirəcək bilik və bacarıqlar üzrə qurularaq həyata keçirilir. Bununla yanaşı spesifik fənlər üzrə nəzəri biliklərin praktiki tətbiqlər üzrə tədrisinin təşkil edilməsi üçün 29 sayda laboratoriya mövcuddur. Bunula yanaşı Texniki və texnaloji ixtisaslar üzrə fənlərin tədrisində daha çox istifadə edilən virtual laboratoriyalardan da istifadə edilir. Fənnin spesifikliyindən kompyüter laborotoriyalarında kompyüterlər SPSS proqramı, 1 C proqramı, Adobe Photoshop proqramı, Blender proqramı və Sketch Adobe İllustrator CC proqramı, CorelDraw Adobe İllustrator proqramı, AUTOCAD , 15PC proqramı, Microsoft Project, Visual Studio və notepad++, Cisco Paket Tracer, Cisco Paket Tracer, Anaconda - jupyter notebook, Corel photo point, Corel draw proqramları ilə təchiz edilmişdir.

*3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti*

Əyani və qiyabi təhsil formalarının spesifikliyindən asılı olaraq müasir tədris metodlarından istifadə etməklə tədris prosesi təşkil edilir. Belə ki, əyani təhsil forması üzrə 3.4.2 indikatorunda qeyd edilən müasir təlim metod və texnalogiyalarından istifadə edilməklə tədris prosesinin təşkili haqqında məlumat öz əksini tapmışdır. Qiyabi təhsil forması üzrə isə Quizizz.com, Google Forms, Kahoot.com, Frontal sorğulardan istifadə edilməklə tədris prosesi təşkil edilir.

*3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti*

Müasir tədris metodlarından – Distant, Hibrid, Modul, "Çevrilmiş"(Flipped Education) təlim metodu, Layihə əsaslı öyrənmə təlim metodu, Problem əsaslı öyrənmə təlim metodu,. Frayer, İnsert, Klaster, Oyunlar üzrə olan təlim metodu, Case study, Beyin həmləsi, Quizizz, Kahoot, Google forms və s. bu kimi müasir metodlardan aidiyyəti ixtisaslar üzrə istifadə edilir və bu təhsilalanların motivasiyalarının artmasına və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsinə olduqca müsbət təsir göstərir.

*3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti*

Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış müasir tədris metodlarının və üsullarının tətbiq edilməsi artıq 2015-ci ildən olmaqla UNEC-də İnkluziv Təhsil Mərkəzinin köməkliyi ilə təşkil edilir. Belə ki, tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq onlar üçün Brayl əlifbası ilə çap olunmuş dərs materilları, fənnin mövzuları üzrə qısaldılmış videoyazılar, audiomühazirələr, semestr ərzində dərslərində iştirakı ilə bağlı çətinlik yaranan tələbələr üçün hibrid (həm offline, həm online) formada dərslərin təşkil edilməsi həyata keçirilir.

UNEC-də tədrisin keyfiyyətinin artırılması üçün auditoriyalar smart lövhələr, proyektorlar, distant dərslərin keçirilməsi ilə əlaqədar 6 yüksək texniki təchizata malik studiya, 100 hibrid auditoriya və elektron tribunalarla təhciz edilmişdir.

*3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti*

2015-ci ildən etibarən UNEC-də EDUMAN tədrisin elektron idarəedilməsi sistemi tətbiq olunur. Sistemin alt sistemi olan müəllim və tələbə kabineti vasitəsilə tələbələrə dərs vəsaitləri, mühazirə mətnləri, təqdimatlar, test sualları, video və audio materiallar, müvafiq mövzuya dair əlavə materiallara keçid linklərinin əlçatanlığına şərait yaradılmışdır. Bundan

əlavə onlayn və hibrid keçirilmiş dərslərin video yazıları tələbə kabinetlərinə göndərilir. Dərs vəsaitlərinin yüklənməsi və keyfiyyətinin yoxlanması müvafiq struktur tərəfindən hər semestrin başlanğıcında təmin edilir. UNEC-də tədrisin keyfiyyətinin artırılması üçün auditoriyalar smart lövhələr, proyektorlar, distant dərslərin keçirilməsi ilə əlaqədar 6 yüksək texniki təhcizata malik studiya, 100 hibrid auditoriya və elektron tribunalarla təhciz edilmişdir.

*3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti*

Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməsini təmin etmək üçün tələbələrlə, fakültə rəhbərləri ilə, Tədrisin təşkili şöbəsinin köməkliyi ilə təlimatlar, yeni metodun tətbiqi ilə əlaqəli videoçarxlar hazırlanaraq təqdim edilir. Tətbiq edilən metodların reallaşma vəziyyəti üzrə, təhsilalanların məmnuniyyətini müəyyən etmək üçün sorğular keçirilir. Sorğu anketinin cavablandıılrlması üzrə təhsilalanların məmnuniyyəti müəyyən edilərək aidiyyəti üzrə tədbirlər keçirilir.

*3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti*

2016-2017-ci tədris ilindən 21.10.2016-cı il tarixli 171/1/2016 nömrəli əmrə əsasən UNEC-də yaradılmış “Keyfiyyət elçiləri” tərəfindən dərslərdə və tədris materiallarının vəziyyəti ilə əlaqədar monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə mütəmadi tədbirlər həyata keçirilmişdir.

2020-2021-ci tədris ilindən 15.12.2020-ci il tarixli 207/1/2020 nömrəli əmrə əsasən yaradılmış UNEC monitorinq qrupu ilə yanaşı fakültə, məktəb və mərkəzlərdə də bu cür qruplar yaradılmışdır. Monitorinq qrupları tərəfindən hər semestr üzrə keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqları aradan qaldırılması ilə əlaqədar müvafiq preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Monitorinq nəticələrinə əsasən ənənəvi tədrisi həyata keçirilən fənlərin də (2021/2022-ci tədris ili üzrə 30 ənənəvi tədris olunan fənnin) tədris proqramları yenilənmişdir. Fənlərin yenilənmiş proqramları ilə yanaşı fənnin tədrisində vacib sayılan innovativ metodlar üzrə tədris prosesinin qurulması üzrə masterclasslar təşkil edilmişdir.

### *3.5 Təlim və tədris resursları*

*3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti*

UNEC-də 2015/2016-cı tədris ilindən “Tədrisin Elektron İdarəetmə Sistemi – EDUMAN” tətbiq olunmağa başlanmış və hal-hazırda tədris prosesinin böyük bir hissəsi bu sistem

vasitəsilə idarə edilməkdədir. EDUMAN sistemi UNEC-də tədris prosesinin bütün mərhələlərini əhatə etməklə, ümumilikdə tədris prosesinin idarəedilməsinin müasir tələblər səviyyəsində qurulması, habelə proseslərin idarəedilməsində obyektivliyin və çevikliyin təmin edilməsi məqsədilə qurulmuşdur.

"EDUMAN"-da hal-hazırda aktiv şəkildə istifadə olunan 30-dan çox modul mövcuddur. Bu sistem dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya sahələrini, EXAM modulu imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apellyasiyanın təşkili, təqaüdün müəyyən olunmasını, Bir pəncərə modulu tələbə, məzun və əməkdaşların günün 24 saatı, həftənin 7 günü müxtəlif tipli arayışların imza və möhürlə təsdiq olunmuş, QR kodla, PDF formatında əldə olunmasını, UNEC tədris binalarına giriş-çıxış sistemi müxtəlif yoxlamaların aparılması ilə əməkhaqlarının ödənilməsi üçün tabellərin hazırlanmasını əhatə edir. Ümumilikdə qeyd edə bilərik ki, EDUMAN öyrənmə və tədris ehtiyaclarının böyük əksəriyyətini ödəyə bilir.

EDUMAN-da mövcud olan Müəllim (muallim.unec.edu.az) və Tələbə kabinetləri (kabinet.unec.edu.az) istifadəçi yönümlülüyü təmin etmək üçün hazırlanmış modullardır.

EDUMAN-da distant təhsil modulu çərçivəsində tələbələr üçün ənənəvi dərslərdən əlavə olaraq distant öyrənmə imkanı yaradılmışdır. 2020-ci ilin əvvəlindən etibarən EDUMAN-da mövcud olan distant təhsil modulu vasitəsilə UNEC-də sinxron dərslər başlamışdır. Pandemiya şəraitinin tələblərinə uyğun olaraq isə elə həmin ildə ümumilikdə bütün dərslər sinxron öyrənməyə yönləndirilmişdir. Sinxron dərslərin video yazıları və müəllimlər tərəfindən yüklənmiş materiallar distant təhsil üçün baza rolunu oynamışdır. UNEC EXTERN mərkəzində mövcud olan altı studioda asinxron tədris vəsaitlərinin çəkilişi baş tutmuşdur. Bundan əlavə onlayn dərslərin video yazıları da tələbə kabinetlərinə göndərilməklə asinxron öyrənmə üçün tədris materiallarının əlçatanlığı təmin edilmişdir.

*3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti*

UNEC-də 4 tədris binası üzrə cəmi 262 tədris auditoriyası mövcuddur. Bu auditoriyalarda müasir tədris prosesini aparmaq üçün bütün auditoriyalarda elektron tribuna (PC), proyektor, nəzarət kamerası quraşdırılmışdır. Onlardan 100 hibrid auditoriya ağıllı lövhə və kameralarla, 3 dizayn studio PC, proyektor, dizayn avadanlıqları, 6 linqofon otaq PC, proyektor, linqofon avadanlıqları, Differensial termik analiz cihazı, Raman spektrometri, qaz və maye xramotoqrafları, 1 kompozit materiallar elmi-tədqiqat mərkəzi UV spektrofotometri, Elektrik və dielektrik ölçmələri üçün LCRmetrləri, 2 Fizika, 2 Kimya, 2

Elektronika1 Material mühəndisliyi, 1 Aziz Sancar adına Qida təhlükəsizliyi, 1 Qida kimyası, 1 Ekologiya mühəndisliyi, 1 Qida texnologiyası, 1 Maşın və sənaye mühəndisliyi laboratoriyaları PC, proyektor, labotaroriya işlərinin görülməsi və təcrübənin artırılması ücün cihaz və avadanlıqlar ilə təchiz olunmuşdur.

Ümumilikdə 8 sayda imtahan zalı fəaliyyət göstərir ki, onlar da 50 müşahidə kamerası və 580 monoblok, 130 HP tipli kompüterlə təchiz olunmuşdur.

*3.5.3.Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti*

2015-ci ildən UNEC-də EDUMAN-nın qurulması ilə birlikdə tələbələrin dərsdə iştirakının və aktivliyinin təmin edilməsi üçün elektron jurnal bölməsi fəaliyyət göstərməkdədir. Əyani dərslər zamanı tələbənin dərsdə olması onların qiymətləndirməsi müəllim tərəfindən elektron jurnalda müvafiq olaraq qaib, iştrak edir və ya bal yazılması ilə aparılmaqda, hibrid və online dərslərdə isə zoom platforması vasitəsilə dərsə qoşulan tələbənin dərsdə iştirak etməsi sistem tərəfindən həmin an müəyyən edilərək birbaşa elektron jurnalda genarasiyası müəllim tərəfindən isə müvafiq balın yazılması ilə qeydiyyatı təmin edilir.

*3.5.4.Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu*

EDUMAN sistemində mövcud olan fənn kataloqu, təqvim tematik plan bölməsi və digər mövcud bölmələr təhsil proqramlarına uyğunlaşdırılmışdır. Belə ki, fənn bölməsi vasitəsilə fənnin sillabusunun və mövzularının sistemə yüklənilməsi, təqvim tematik plan bölməsi vasitəsilə isə fənnin mövzularının ardıcıl keçirilməsi təmin edilir. Lakin proqramın tamamilə rəqəmsallaşdırılması 2023-cü ilin yay aylarında təhvil verilməsi nəzərdə tutulan FTP, Tədris yükü və yay semestri adlı layihəsi ilə təmin olunması planlaşdırılmışdır. Hazırda texniki tapşırıq təsdiq olunmuş, layihə texniki yazılım prosesindədir.

*3.5.5.İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti*

Ümumilikdə tədris binaları üzrə 12 kompüter laboratoriyası mövcuddur. Laboratoriyalar 288 ədəd kompüter ilə təchiz edilmiş və hamısı internetə qoşulmuşdur. Əlavə olaraq hər tədris binasında bütün auditoriya, oxu zalı, kitabxanalar və wi-fi zonaları hamısı internetlə təhciz olunmuş və tələbələrin istifadəsinə verilmişdir. UNEC-in III tədris binasında kitabxana və oxu zalları ilə bərabər tələbə müzakirə otağı da internetlə təmin olunmuşdur.

| № | Tədris binası | Otaq | Kom.Sayı |
|---|---|---|---|
| 1 | I | 217 | 19 ədəd |
| 2 | | 218 | 15 ədəd |
| 3 | | 219 | 29 ədəd |
| | | | |
| 1 | II | 100 | 24 ədəd |
| 2 | | 110 | 20 ədəd |
| 3 | | 202 | 35 ədəd |
| | | | |
| 1 | III | B32 | 22 ədəd |
| 2 | | B33 | 21 ədəd |
| 3 | | 331 | 24 ədəd |
| | | | |
| 1 | IV | 311 | 30 ədəd |
| 2 | | 315 | 21 ədəd |
| 3 | | 407 | 28 ədəd |
| 12 | Cəmi: | | 288 ədəd |

*3.5.6.ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu*

UNEC-də bakalavriat səviyyəsi, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə, qiyabi təhsilalma forması üzrə isə dərslər əyani təhsil formasının imtahan sessiyasında təşkil edilir. Magistratura səviyyəsi üzrə isə dərslər axşam saatlarında (18.40-21.30) təşkil edilir.

Ümumilikdə auditoriya fondunun sahəsi 13503 kv.m. təşkil edir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu cədvəldəki kimidir.

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 2,17 |
| II növbə | 2,23 |
| III növbə (magistratura) | 3,4 |
| Qiyabi | 7,47 |

*3.5.7.Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası*

2020-2021-ci tədris ilinədək ümumilikdə 7963.5 kv.m. inzibati və akademik heyətin fəaliyyətini təmin edirdi. Lakin həmin tədris ilinin payız semestrindən etibarən isə III tədris

binası istifadəyə verildiyi üçün 1037,3 kv.m artım dinamikası müşahidə olunmuşdur. Hazırda 9000.8 kv. m. istifadədədir. Bunun 6395.82 kv.m. inzibati heyətin, 2604.98 kv.m. isə akademik heyətin istifadəsi nəzərdə tutulmuşdur.

*3.5.8.Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası*

01.11.2018-ci il tarixində UNEC-də 24/7 kitabxananın açılışı olmuş və 28.12.2018-ci il tarixli 1153/3/2018-ci il nömrəli əmr ilə fəaliyyətə başlamışdır.

28.12.2018-ci il tarixli 1150/3/2018 nömrəli əmr ilə Universitetin Elmi Şurasının 06.12.2018-ci il tarixli EŞ-162 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə 15.04.2019-cu il tarixində UNEC-in Əsaslı kitabxanasının bazasında Kitabxana-İnformasiya Mərkəzi (KİM) yaradılmışdır. 29 yanvar 2020-ci il tarixində UNEC KİM yeni elektron kitabxanası (library.unec.edu.az) istifadəyə verilmişdir. Kitabxana EDUMAN sisteminə inteqrasiya edilmiş və resurslardan tələbələrin fasiləsiz istifadəsi təmin edilmiş, eləcə də, çat sistemi vasitəsilə yaranan suallarını ünvanlaması üçün şərait yaradılmışdır. 17 noyabr 2020-ci il tarixində UNEC KİM-dən istifadə qaydaları təsdiq edilmişdir.

Əlavə olaraq qeyd olunmalıdır ki, UNEC kitabxanasının EBSCO, İPRSmart, Emerald Publishing kimi beynəlxalq elmi-metrik bazalara çıxış imkanları təmin edilmişdir. Bundan əlavə ADA universitetinin kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Marmara Universitetinin kitabxanası ilə memorondum izlanmışdır.

Hazırda akademik heyətdən 782, təhsilalanlardan isə 5427 nəfər daimi qeydiyyatda olan oxucu sayımız mövcuddur. İllər üzrə kitabxana fondundan istifadə sayı haqqında cədvəl əlavə olunur:

| **İllər üzrə** | **Ənənəvi kitabxanadan istifadə** | **Elektron kitabxanadan istifadə** |
|---|---|---|
| 2016 | 64575 | 11876 |
| 2017 | 67400 | 15288 |
| 2018 | 68000 | 8726 |
| 2019 | 147520 | 49223 |
| 2020 | 26637 | 37007 |
| 2021 | 49459 | 24250 |
| 2022 | 271988 | 72554 |

*3.5.9.ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası*

| **İllər** | **Daxil olan kitablar (Çap şəklində)** | **Dərslik və dərs vəsaiti (Çap şəklində)** |
|---|---|---|
| 2016 | 7392 | 7045 |
| 2017 | 1793 | 1006 |
| 2018 | 2739 | 2568 |
| 2019 | 3074 | 2224 |
| 2020 | 1758 | 1341 |
| 2021 | 1819 | 1287 |
| 2022 | 1490 | 1129 |
| **Cəmi:** | **20065** | **16600** |

*3.5.10.Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası*

UNEC KİM-in fondundakı kitabların əksəriyyətini universitetdə həyata keçirilən tədris dillərində (Azərbaycan, ingilis, rus və türk) dərslik və dərs vəsaitləri təşkil edir. Bundan əlavə kitab fondu tədris proqramlarına müvafiq şəkildə universitetin nəşriyyatında, yerli və xarici nüfuzlu nəşriyyatlarda çap olunmuş aktual elmi nəşrlərlə zənginləşdirilmişdir.

| **İllər** | **Dərslik, dərs vəsaitlərin sayı** | **Elektron kitab** | **Çap şəklində olan kitabların sayı** | **Bədii ədəbiyyatların sayı** | **Monoqrafiyaların sayı** | **Digər tədris dillərində mövcud olan ədəbiyyat sayı (rus, ingilis, türk)** |
|---|---|---|---|---|---|---|
| 2016 | 50440 | | 74271 | 6558 | 14235 | 6144 |
| 2017 | 51446 | | 73064 | 6677 | 13212 | 6301 |
| 2018 | 52994 | | 76289 | 6753 | 15221 | 7711 |
| 2019 | 55068 | | 80166 | 7261 | 16349 | 8207 |
| 2020 | 56409 | | 80739 | 7331 | 16454 | 8481 |
| 2021 | 57696 | 1110 | 82501 | 7417 | 16493 | 8824 |
| 2022 | 58825 | 1355 | 83936 | 7433 | 16580 | 9475 |

İngilis dilində dərslik və dərs vəsaitinin digər dillərdə olan ədəbiyyat sayına nisbət

| İllər | İngilis dilində dərslik sayı | Digər dillərdə (az, rus, türk) dərslik sayı | İngilis dilində dərsliklərin digər dillərdəki dərsliklərdə payı % ilə | İngilis dilindəki dərsliyin digər dillərdəki dərsliklərə nisbəti |
|---|---|---|---|---|
| 2016 | 4142 | 46298 | 8,95 | 6/67 |
| 2017 | 4173 | 47273 | 8,83 | 3/34 |
| 2018 | 4191 | 48803 | 8,59 | 3/35 |
| 2019 | 5043 | 50025 | 10,08 | 1/10 |
| 2020 | 5140 | 51269 | 10,03 | 1/10 |
| 2021 | 5212 | 52484 | 9,93 | 1/10 |
| 2022 | 5311 | 53514 | 9,92 | 1/10 |

*3.5.11.ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası*

UNEC-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası aşağıdakı cədvəldə əks olunmuşdur.

| 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| 438.668 azn | 388.997 azn | 493.025 azn | 269.544 azn | 239.984 azn | 301.164 azn |

*3.5.12.Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti*

UNEC-də tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı həyata keçirilməli olan tədbirlərin istiqamətlərini müəyyən etmək üçün 2020-ci tədris ilindən etibarən ildə iki dəfə olmaqla Monitorinq Komissiyası yaradılır. Komissiya üzvlərinin iştrakı ilə monitorinqlər keçirilir. Monitorinqlər tədris prosesinin təşkili ilə əlaqəli olması ilə yanaşı, tədris resurslarının istifadəsi və yenilənməsi üzrə də keçirilir. Monitorinq zamanı aşkar edilmiş çatışmazlıqlar üzrə tədbirlər - fənlər üzrə proqramlarının kompetensiya əsaslı qurulması, müasir dərsliklərin yenilənməsi, müasir təlim metod və texnaologiyalar üzrə aparılır.

Monitorinq nəticələrinə uyğun olaraq 2020-ci ildə ənənəvi dərslər üçün 20 fənn proqramı yenilənmişdir. Bu məqsədlə 1500 nəfərə yaxın müəllimin iştrakı ilə 166 fənn üzrə 4 təlim proqramı təşkil edilmişdir.

*3.5.13.Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti*

UNEC-də bütün fənlər üzrə tədris materialları (sillabus, mühazirə mətnləri, təqdimatları və dərsliklər) mövcuddur. Bununla yanaşı 1700 sayda dərslərin 20 dəqiqədən ibarət izahları əhatə edən videoyazıları da mövcudur. Qeyd edilən tədris materialları elektronlaşdırılaraq şəxsi kabinetə yerləşdirilir. Hər tədris ilində semetrin əvvəlində tədris materiallarının tələbələr üçün əlçatanlığının təmin etmək üçün monitorinqlər həyata keçirilir, monitorinq nəticələrinə uyğun aidiyyəti üzrə kafedralara məlumatlar təqdim edilir və bütün tədris materialllarının şəxsi kabinetlərinə yerləşdirilməsi təmin edilir.

*3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti*

UNEC-də İnkluziv Təhsil Mərkəzinin əsas məqsədi sağlamlıq imkanları məhdud tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Mərkəz fiziki məhdudiyyətli insanların ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərin aradan qaldırılması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində maarifləndirmə işlərini həyata keçirir.

1) 2015-2016-cı tədris ilindən Mərkəzdə Brayl əlifbası ilə çap olunmuş dərs materilları hazırlanır, kompüterlərdə səs- yazı çevirmə proqramları mövcuddur.

2) Müəllimlər tərəfindən mühazirələrin audio-formatları hazırlanmışdır (davam edir), online keçirilən bütün mühazirələr video-formatda mövcuddur.

3) 2018-2019-cu tədris ilində UNEC-də Beynəlxalq mütəxəssislər tərəfindən “İnklüziv Təhsilin təşkili: Qarşıda Duran Vəzifələr və müasir yanaşmalar” mövzusunda 2 günlük təlimlər keçirilmişdir. Təlimlərdə 120 müəllim iştirak etmişdir.

*3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti*

Tədris ilinin hər semestri üzrə keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Hər semestr üzrə keçirilən monitorinq nəticələri ümumləşdirilməklə tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aidiyyəti üzrə tədbirlər görülür. Müxtəlif tədris illərində monitoriq nəticələrinə əsasən təlim və tədris resurlarının təkmilləşdirilməsi məqsədilə aşağıdakı təlim və tədbirlər görülmüşdür:

| № | Tədris ili | Tədbir və ya təlimin adı | Akademik heyətinin iştirakı (fazilə) |
|---|---|---|---|
| 1 | 2017-2018 | Tədris materiallarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması | 13 % |
| | | Müasir tədris auditoriyalarının pedaqoji və psixoloji xüsusiyyətləri | |
| | | Tədqiqat dizaynı və metodları, ədəbiyyatın nəzərdən keçirilməsi və tədqiqat suallarının inkişaf etdirilməsi | |
| | | Ali təhsil müəssisələrində mühazirə və seminarların təşkili | |
| 2 | 2018-2019 | Elmi məqalələrin yazılması qaydaları. | 12 % |
| | | Beynəlxalq jurnallara məqalələrin göndərilməsi qaydaları | |
| | | Tələbə nəaliyyətlərinin artırılması yönümlü müasir tədris metodları | |
| | | Tələbələrin biliyinin qiymətləndirilməsində müasir və motivasiya əsaslı metodlardan istifadə | |
| | | Sərbəst işlərin (tapşırıqların) müəyyən edilməsi və qiymətləndirilməsinin effektiv metodları | 10% |
| | | Seminar dərslərində tələbələrin bilik və bacarıqlarını qiymətləndirmə metodları | 12% |
| | | Tədris prosesində motivasiyanı təmin edən üsullar və onların tətbiqi | |
| | | Dərsin refleksiya hissəsində stifadə olunan metodlar - yaddaş oyunu, sual qutusu, çıxış kartı | |
| | | Auditoriyalarda liderlik və komandalarla işləmə bacarıqlarının tətbiq edilməsi | |
| | | Tələbələrin yaradıcı düşüncəsinə təsir edən metodların istifadəsi: Beyin xəritələri; Skeçlər; Keys (case); Rol oynama; In-basket | |
| 3 | 2019-2020 | İKT sahəsində istifadəçi bacarıqlarının təkmilləşdirilməsi | 4% |
| | | Distant dərslərin evdən keçirilməsi qaydaları üzrə | 100% |
| | | Tədris və attestasiya materiallarının tərtibində müasir yanaşmalar | 9% |
| | | Sillabusun tərtib edilməsi, məzmunu və strukturuna qarşı tələblər | 90% |
| | | Distant təhsildə tədrisin təşkili və metodik təminatı | 92% |
| | | Professor - müəllim heyətinin elmi və metodik fəaliyyətinin təkmilləşməsi | 11% |
| | | Mühazirə mətnlərinin hazırlanması qaydaları | 92% |
| 4 | 2020-2021 | I təlim proqramı- 13 yeni fənn üzrə | 6% |
| | | Pedaqoji fəaliyyətdə müasir tədris üsulları | 34% |
| | | Məşğələ dərslərində biliyin qiymətləndirilməsi metodları | 80% |
| 5 | 2021-2022 | II təlim proqramı- 66 yeni fənn üzrə | 75% |
| | | III təlim proqramı-37 yeni fənn üzrə | 30.2% |
| | | IV təlim proqramı- 50 yeni fənn üzrə | 57% |
| | | İngilis dilinin tədrisinin təkmilləşdirilməsi istiqamətində | - |
| | | "Ekonometrika" fənninin təlimi | - |

*3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu*

UNEC-də tələbələrin sosial, mədəni və idman fəaliyyətlərinin təmin edilməsi üçün hazırda 11 sayda tələbə təşkilatları fəaliyyət göstərir.

1. Tələbə Rektor
2. Tələbə Gənclər Təşkilatı
3. İqtisadçı Vətənpərvərlər Təşkilatı
4. UNEC Könüllüləri Təşkilatı
5. "İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım" İctimai Birliyi
6. Tələbə Həmkarlar İttifaqı Komitəsi
7. "Rəqəmsal Könüllülər" Təşkilatı
8. UNEC Future Club
9. Tələbə Elmi Cəmiyyəti
10. "İqtisadçı Tələbələrə Dəstək" İctimai Birliyi
11. UNEC "Cross-Cultural Club"

Bundan əlavə UNEC idman klubunda Futbol, Voleybol, Basketbol, Badminton, Şahmat, Dama, Stolüstü tennis, Gimnastika, Cüdo, Yunan Roma güləşi, Sərbəst güləş, Fitness, Səmti müəyyənetmə idman növləri üzrə komandalar mövcuddur və respublika səviyyəli yarışlarda iştirak edirlər.

*3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti*

16.09.2022-ci il tarixli 184 saylı Elmi Şuranın qərarının icrası məqsədilə 04.10.2022-ci il tarixli 835 saylı əmrlə Psixoloji xidmət mərkəzi yaradılmışdır. Mərkəz yarandığı tarixdən 168 seans və 6 dəfə "imtahan qabağı stress və onun aradan qaldırılma yolları" mövzusunda təlim keçirmişdir.

### *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

*3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.*

UNEC-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların tələbləri əsasında formalaşdırılmışdır. Qiymətləndirmə sistemi formalaşdırılarkən effektivlik, obyektivlik və şəfaflıq prinsiplərinə istinad olunmuşdur. Bu yanaşmada başlıca məqsəd təhsilalanlarda nəzəri biliklərlə yanaşı praktiki bacarıqların formalaşdırılmasıdır.

Qiymətləndirmə sisteminin əsasını formalaşdıran qaydalar Elmi Şuranın qərarları ilə müəyyən edilir. Ümumulikdə qiymətləndirmə cari və aralıq qiymətləndirmə mərhələlərindən ibarət olmaqla 100 ballıq sistemə əsaslanır. Semestr ərzində həyata keçirilən cari qiymətləndirmə fənlənrin spesifik tədrisi formalarına müvafiq olaraq fərqli attestasiya üsullarından istifadə etməklə həyata keçirilir və ümumilikdə 50 balın formalaşdırılmasını təmin edir. Qalan 50 balın formalaşdırılması isə aralıq qiymətləndirmə mərhələsində - sessiya imtahanları əsasında formalaşdırılır.

*3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti*

UNEC-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi müxtəlif attestasiyalar test və yazılı üsularından istifadə edilməklə, habelə qabiliyyət imtahanları vasitəsilə həyata keçirilir. Magistratura səviyyəsində qiymətləndirmə yalnız yazılı üsulda həyata keçirilir. Bakalavriat səviyyəsində xarici dil fənləri üzrə qiymətləndirmə üçün müxtəlif bacarıqları ehtiva edən qiymətləndirmə (danışıq, yazı, dinləmə, qrammatıka, oxu) - “kombinə olunmuş üsul” tətbiq edilir.

Ümumilikdə qiymətləndirmə zamanı “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ” ilə müəyyən edilən meyarlara istinad olunur. Bununla yanaşı qabiliyyət fənləri üzrə qiymətləndirmələr incəsənət və təsviri sənətlə bağlı qəbul olunmuş ümumi meyarlara, xarici dil fənləri üzrə isə bu sahədə beynəlxalq səviyyədə fəaliyyət göstərən dil qrumlarının qəbul edilən meyarlara istinad olunur.

*3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti*

UNEC-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinin üz-üzə və məsafədən keçirilməsi üçün müvafiq texniki imkanlar mövcuddur. Qiymətləndirmə əsasən mərkəzləşdirilmiş formada imtahan zallarında keçirilir. Qabiliyyət imtahanları bütünlüklə, xarici dil fənlərində isə danışıq bacarığı üzrə qiymətləndirmə üz-üzə keçirilir. Zərurət yarandığı hallarda qiymətləndirmə məsafədən də həyata keçirilir. Belə ki, pandemiya dövründə qiymətləndirmələr bütünlüklə məsafədən keçirilmişdir. Hal-hazırda pandemiya məhdudiyyətləri ilə əlaqədar ölkəyə gəlməsinə icazə verilməyən əcnəbi təhsilalanlar üçün imtahanların məsafədən keçirilməsi davam etdiririr. Qeyd olunanlarla yanaşı cari qiymətləndirmə üzrə bəzi attestaiyalar online formada keçirilir. Ümumilikdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinin imtahan zallarında və bu məqsədlə nəzərdə tutulmuş auditoriyalarda keçirilməsinə üstünlük verilir.

*3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti*

Bakalavriat səviyyəsində fənlər üzrə attestasiyalar Elmi Şuranın müvafiq qərarı əsasında təsdiq edilən fənn siyahılarına müvafiq olaraq test, yazılı və şifahi üsullarda, magistratura səviyyəsində isə yazılı üsulda keçirilir. Test üsulunda attestasiya olunan fənlər üzrə imtahanlar mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir. Bu imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən testlərin kömpyuter tərəfindən seçimi tətbiq edilir. Belə ki, elektron imtahan sisteminə imtahan vermək məqsədilə daxil olan hər bir tələbəyə proqramın alqoritminə uyğun olaraq kompüter tərəfindən 50 test seçilməklə təqdim edilir. Bu imtahanlarda insan faktorunun olmaması subyektivliyi tam aradan qaldırmaqla obyektivliyin tam təmin edilməsinə imkan yaradır. İmtahanların xüsusi zallarda qruplar şəklində keçirilməsi və nəticənin imtahan bitdikdən sonra dərhal bilinməsi, imtahan nəticəsinin isə tələbənin şəxsi kabinetinə göndərilərək arxivləşdirilməsi şəfaflığı təmin edir. Qiymətin əsaslandırılması kompüter tərəfindən məhz standart bilik və bacarıq əsaslı nəticələrlə müqayisə edilir və yekun bal formalaşdırılır.

Bakalavriat səviyyəsində baza ixtisas fənləri üzrə yazılı üsulda attestasiya olunan fənlər üzrə imtahanlar kağız üzərində cavablandırma əsasında mərkəzləşdirilmiş qaydada, digər fənlər habelə magistarura səviyyəsində isə aidiyyəti struktur bölmələr tərəfindən, həyata keçirilir. Bakalvriat səviyyəsində imtahan sualları semestrin əvvəlində tələbələrə təqdim edilir. Magistratura səviyyəsində isə suallar ümumiyyətlə magistrantlara təqdim edilmir. Bununla imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən imtahan sual variantlarının məxfiliyi təmin edilir. Fənn üzrə imtahanların eyni saatda keçirilməsi mümkün olduğu halda imtahanda iştirak edən tələbələrin hamısına eyni imtahan sual variantı təqdim edilir. İmtahanlar fərqli növbələrdə keçirildiyi zaman isə hər bir növbə üzrə fərqli imtahan sual variantı təqdim olunur. Bununla yanaşı olaraq təhsilalanlara eyni imtahan saatında bir neçə imtahan sual variantının təqdim edilməsi təcrübəsindən də istifadə edilir. Bu imtahanlarda subyektivliyi tam aradan qaldırmaq mümkün olmasa da obyektivliyin təmini üçün mümkün olduğu hallarda (eyni fənni tədris edən 5 müəllim olduğu halda) tələbələrin cavablandırdığı sualların hər birinin – “bir müəllim – bir sual” prinsipi əsasında yoxlanması həyata keçirilir. Bu halda subyektivlik faktorunun imtahan qiymətinə təsiri maksimum 20 faiz təşkil edir. İmtahanların xüsusi zallarda qruplar şəklində keçirilməsi və cavab vərəqlərinin yoxlandıqdan sonra müəllimlərin apardığı qiymətləndirmə ilə tanış olmaq məqsədilə tələbələrə təqdim edilməsi şəfaflığı təmin edir. İmtahan suallarına verilən cavabların müvafiq normativ sənədlə təsdiq edilmiş 10 ballıq qiymətləndirmə meyarları əsasında qiymətləndirilir.

Pandemiya dövründə təhsilalanların attestasiyası test üsulunda (qabiliyyət fənləri istisna olmaqla yalnız) distant formada həyata keçirilmişdir. Pandemiya bitdikdən sonra isə ixtisaslar üzrə baza fənlərin kağız üzərində cavablandırma əsasında ənənəvi formada (imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda) yazılı attestasiyası bərpa edilmişdir. Bununla paralel olaraq yazılı üsulda keçirilən imtahanların elektronlaşdırılması istiqamətində tədbirlər görülmüş və proqram təminatının hazırlanmasının 2022/2023-cü tədris ilində yekunlaşdırılması planlaşdırılmışdır. Proqram istifadəyə verildikdən sonra imtahanlar eyni prinsiplər əsasında kompüterlər vasitəsilə keçirilməklə kağızdan istifadə edilməsi aradan qaldırılacaqdır.

*3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti.*

UNEC-də təhsilalanların özünü qiymətləndirmə bacarığının formalaşdırılması semenar məşğələlərinin keçirilməsi zamanı baş verir. Belə ki, seminar məşğələlərində qrup daxilində bir neçə alt qrup yaradılır. Həmin alt qruplara müəllim tərəfindən suallar ünvanlanır və onlar həm müəllim tərəfindən həm də quplar bir birilərini qiymətləndirirlər. UNEC-də Çevrilmiş təhsil metodu ilə müəyyən fənlər üzrə tədris təşkil olunmuşdur. Bu metod tələbələrin sərbəst öyrənmə bacarığına yiyələnmələrinə və özünüqiymətləndirməyə şərait yaradır.

*3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti*

UNEC-də 2015/2016-cı tədris ilindən fəaliyyət göstərən təhsilin elektron idarəetmə sistemi – EDUMAN platforması fəaliyyət göstərir. Qiymətləndirmə prosesi həmin platformanın modulları əsasında təşkil edilir, keçirilir və nəticələrin qeydiyyatı aparılır. Təhsilalanlarla kommunikasiya onların elektron şəxsi kabinetləri vasitəsilə həyata keçirilir. Ümumilkdə təhsilalanların cari və aralıq qiymətləndirmə üzrə bütün nəticələri vahid elektron bazada olmaqla UNEC-in serverlərində saxlanılır.

*3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti*

Sağlamlıq imkanları məhdud təhsilalnların qiymətləndirilməsi onların istəyinə müvafiq olaraq test və yazılı üsullardan istifadə etməklə həyata keçirilir. Bundan əlavə onların istəyi əsasında məhz onlar üçün xüsusi imtahan məkanı təmin edilir. Bu məqsədlə İnkluziv təhsil mərkəzi fəaliyyət göstərir.

*3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti*

Spesifik fənlər üzrə cari və aralıq qiymətləndirmələrin keçirilməsi qaydası semestrin əvvəlində təhsilalanlara təqdim edilir. Bu qaydalara rəqabətlilik baxımından bütün təhsilalanlar üçün eyni şəraitin yaradılmasını təmin edir. Cari qiymətləndirmə üzrə qabiliyyət tələb edən fənlər fərdi iş tapşırıqlarının yerinə yetrilməsi və aktivlik balının formalaşdırılması əsasında təmin olunur. Qiymətləndirmə kollegial qərar əsasında təmin olunur. Bu məqsədlə hər tədris ili üzrə müvafiq qiymətləndirmə komissiyası təsis olunur. Bununla yanaşı olaraq obyektivliyin təmin edilməsi baxımından apellyasiya müraciətlərinin qəbulu və cavablandırılması ümumi tələblər nəzərə alınmaqla həyata keçirilir.

*3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2010-cu il 117 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* təhsilinin məzmunu və təşkili Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına uyğun tənzimlənir. Bakalavriat səviyyəsində yekun dövlət attestasiyası "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə" ilə müəyyən edilən prosedur və tələblər əsasında dövlət imtahanı və buraxılış işlərinin müdafiəsi vasitəsilə təmin olunur. Magistratura səviyyəsində yekun dövlət attestasiyası isə "Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə" ilə müəyyən edilən qaydalar əsasında yerinə yetirilmiş magistr dissertasiya işlərinin müdafiəsi ilə həyata keçirilir.

*3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti*

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi nəticələri ilə bağlı hər tədris ilində 2 dəfə Elmi Şuranın iclaslarında hesabat verilir, müzakirələr keçirilir və müvafiq qərarlar qəbul edilir. Qəbul edilən qərarlar tədrisin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirmənin üsul və vasitələrinin təkmilləşdirilməsi məqsədini daşıyır.

*3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması*

Tələbələrin məlumatlandırılması məqsədi ilə EDUMAN sistemi və həmin sistemin tərkibində Tələbə kabineti yaradılmışdır. Tələbələr bütün məlumatları tələbə kabinetlərindən əldə etmək imkanlarına malikdirlər. Onlar bu sistemdə akademik borclarını, transkriptlərini görə bilirlər ki, bu da onlara bütün məlumatların əldə edilməsini əlçatan edir. Tədris prosesinin bütün mərhələləri haqqında ətraflı məlumatları özündə əks etdirən "Tədris kataloqu" hazırlanaraq nəşr edilmiş və elektorn formada UNEC-in rəsmi internet saytında yerləşdirilmişdir.

Bundan başqa universitetdə akademik məsləhətçilərin tyutorların fəaliyyəti və onların tələbələrlə mütamadi əlaqələri bu məsələlərin həllini daha da əlçatan edir.

*3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu*

UNEC-i bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nda qeyd edildiyi kimi bakalavr və magistr diplomları, eləcə də diploma əlavələr verilir. Diplom və əlavələr müraciət məktubu ilə Elm və Təhsil Nazirliyindən məzunların sayına uyğun təhvil alınır. UNEC-də təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi "Qaydası"nın 1 nömrəli əlavəsində verilmiş formaya uyğun müvafiq arayış verilir. Arayışlar müraciət məktubu ilə Elm və Təhsil Nazirliyindən təhvil alınır.

### 3.7 Professor-müəllim heyəti

*3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti*

Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun

və eyni zamanda elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq istəyən gənclər üçün UNEC-in gənc müəllim layihələri və təhsil standartlarının yeni modelinin, eləcə də ingilis dilinin tədrisinə yeni yanaşmanın tətbiq edilməsi ilə əlaqədar ingilis dili müəllimləri üçün isə yaradılmış komissiyalarda müsahibə vasitəsilə həyata keçirilir.

*3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti*

UNEC-in 14.10.2015-ci il tarixli 80/1/2015 №-li əmri ilə 2015/2016-cı tədris ilindən hal-hazıradək tətbiq edilən Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Differensial Əməkhaqqı Sistemi akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdırır.

Akademik heyətin texnoloji səriştələrinin yüksəldilməsi məqsədilə 31.03.2020-ci il tarixdən 10.04.2020-ci il tarixədək keçirilmiş "Distant dərslərin evdən keçirilməsi qaydaları" və 31.08.2019-cu il tarixdən 04.09.2020-ci il tarixədək keçirilmiş "Distant təhsildə tədrisin təşkili və metodiki təminatı" mövzusunda təlimlər təşkil olunmuşdur. Eyni zamanda yeni işə qəbul olan müəllimlər üçün tədrisin elektron idarə edilməsi, "EDUMAN" sitemində və s. işləməklə əlaqədar təlimlər keçirilir.

*3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti*

24.06.2019-cu ildən 19.11.2021-ci il tarixinədək 15 adda akademik heyətə interaktiv və aktiv tədris metodlarının distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli şəkildə 15 adda təlimlər təşkil edilmişdir.

Təşkil edilmiş təlimlərdə təlimçi qismində **-** Professor Fariz Hüseynov**-**North Dakota State University**,** Sevınc Məmmədova**-** The University of George Washington, Prof.Dr.Cengiz Hakan Aydın**-** Anadolu Universitesi**,** Amir Orucov -The University of Luqano**,** Səbuhi Sərdarlı**-** Kansas State University**,** Full Professor Agıda Manızade**-** Radford University**,** Babək Məmmədov**-** Clemson University, Nicat Abbaslı- ARTA Turizm siyasəti və strategiya şöbəsinin Tədqiqat və Statistika Sektorunun müdiri, Hacəttəpə Universitetindən - Maviş Emel Kulak Kayıkcı, Ankara Universitetindən -Ali Sınağ, Boğaziçi Universitetindən - Gözde Erhan Ünal, Yıldız Tekniki Universitetindən - Recep Başak, İstanbul Universitetindən Eray Yurtsevən və s.kimi təlimçilərin dəvəti üzrə təlim proqramları təşkil edilmişdir. Təşkil edilən təlim proqramlarında UNEC əməkdaşları ilə yanaşı digər universitetlərin də əməkdaşları iştirak etmişdir.

*3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti*

Akademik heyət öz ixtisas sahələrinə aid təlim kurslarında iştirak edir. Akademik heyətə öz ixtisas sahələrinə aid 2020-2021-ci illərdə 4 təlim proqramı həyata keçirmişdir. Təlim proqramlarında 166 sayda yeni fənlər üzrə beynəlxalq təcrübələrə əsaslanan təlimçilərdən ibarət kurslarda 1466 nəfər əməkdaş iştirak etmişdir. Hazırda da bu kurslar davam edir və universitet əməkdaşlarının ixtisasartırma kursları ilə yanaşı eynilə xarici dili (ingilis dilinin A1, A2, B1, B2 bilik səviyyələri üzrə), İKT sahəsi üzrə texnaloji biliklərinin artırılması və inkişaf etdirilməsi istiqamətində kurs və təlimlər təşkil edilir.

*3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti*

Akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak edir. Bildiririk ki, Hesabat dövrü ərzində 2016-2019-cu illərdə fevral aylarında UNEC müəllimlərinə Beynəlxalq səviyyəli ekspertlər tərəfindən UNEC Quba Tədris, İdman və İstirahət Mərkəzində intensiv təlimlər keçirilmişdir. Bununla yanaşı UNEC akademik heyət üzvləri xarici ali təhsil müəssisələrində keçirilən beynəlxalq səviyyəli inkişaf proqramlarında iştirak edə bilirlər. Belə ki, hesabat dövrü ərzində 2016-2017-ci tədris ilində ümumilikdə 108, 2017-2018-ci tədris ilində ümumilikdə 98, 2018-2019-cu tədris ilində ümumilikdə 136 nəfər, 2021-2022-ci tədris ilində isə 11 nəfər UNEC müəllimi beynəlxalq səviyyəli inkişaf proqramlarında iştirak etmişdir. 2019/2020 və 2020/2021-ci illərdə dünyada mövcud olan pandemiya səbəbilə müəllimlərin iştirakı qeydə alınmamışdır. UNEC-in akademik heyət üzvləri – "Binzesin idarə edilməsi" kafedrasının dosenti Hacıyev Nazim Özbəy oğlu, "Beynəlxalq iqtisadiyyat və biznes" kafedrasının dosenti Alıyev Xətai Şahin oğlu, "Beynəlxalq iqtisadiyyat və biznes" kafedrasının müəllimi Əlizadə Təhmasib Cəmiyyət oğlu və başqa əməkdaşlar nüfuzlu xarici universitetlərdə 1 ilədək uzunmüddətli inkişaf proqramlarında iştirak etmişlər.

*3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti*

Azərbaycan Dövlət İqtisad Universitetində professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Differensial Əməkhaqqı Sistemi və Nüfuzlu elmi nəşrlərdə əsərləri dərc edilən UNEC əməkdaşlarının mükafatlandırılması Qaydaları vasitəsilə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqları qiymətləndirilir. Bundan başqa 207/1/2020 nömrəli 15.12.2020-ci il tarixli əmrə əsasən yaradılmış UNEC monitorinq qrupu ilə yanaşı fakültə, məktəb və mərkəzlərdə də bu cür qruplar yaradılmışdır. Yaradılmış

bu nəzarət qrupları tərəfindən hər semestr üzrə keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqları aradan qaldırılması ilə əlaqədar müvafiq preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Monitorinq nəticələrinə əsasən ənənəvi tədrisi həyata keçirilən fənlərin də (2021/2022-ci tədris ili üzrə 30 ənənəvi tədris olunan fənnin) tədris proqramları yenilənmişdir. Fənlərin yenilənmiş proqramları ilə yanaşı fənnin tədrisində vacib sayılan innovativ metodlar üzrə tədris prosesinin qurulması üzrə masterclasslar təşkil edilmişdir.

*3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti*

UNEC-də dərs yüklərinin bölgüsü Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” normativlərə yəni bir ştat professor-müəllim heyətinə 500 saatdan az olmamaqla o cümlədən minimum 60 faiz aktiv 40 faiz passiv yük olmaqla həyata keçirilir. Professor müəllim heyəti arasında dərs yüklərinin bölgüsü zamanı Differensial əməkhaqqı sisteminə görə fəaliyyətlərinin nəticələri nəzərə alınır.

*3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)*

UNEC üzrə əsas iş yeri ATM olan professor-müəllim heyətinin sayının (764) tələbə sayına (19065) nisbəti 1/25, əsas iş yeri ATM olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayının (866) tələbə sayına (19065) nisbəti 1/22, əsas iş yeri ATM olan, əvəzçiliklə və saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayının (1097) tələbə sayına (19065) nisbəti isə 1/17 təşkil edir.

*3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti*

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70% UNEC əməkdaşıdır. Belə ki, UNEC-də 866 nəfər ştatda və 231 nəfər saathesabı qaydada pedaqoji fəaliyyətlə məşğul olan akademik heyətin 764 nəfərinin əsas iş yeri UNEC-dir.

*3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi*

Yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar olaraq tədrisi nəzərdə tutulmuş yeni fənlər üzrə mütəxəssislərə və praktik biliklərə malik kadrlara olan ehtiyac ölkənin əmək bazarından professor-müəllim heyətinin cəlb edilməsini zəruri edir. Bu məqsədlə də müvafiq qaydada kənardan professor-müəllim heyəti cəlb olunur.

*3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti*

Akademik heyətə qiymətləndirmə meyarları elmi fəaliyyət (nüfuzlu elmi nəşrlərdə dərc olunan məqalələr, məqalələrə verilmiş istinadlar və s.) və tədris fəaliyyəti (dərslik, dərs vəsaiti, tələbələrin məmnunluq anketi və s.) əsasında 2015-2016-cı tədris ilindən differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilir.

*3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti*

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin sayı 71 nəfərdir.

### *3.8 Tələbəyönümlü tədris*

*3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi*

UNEC-də təhsilalanlar birinci təhsil ili istisna olmaqla yuxarı təhsil ilində təhsil alanlar fərdi tədris planlarının tərtib edilməsində iştirak edirlər. Növbəti tədris ili üçün tələbələrin fərdi tədris planı tərtib olunarkən, akademik təqvimdə qeyd edildiyi kimi ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Tələbə sentyabrın 10-dək həmin fərdi tədris planını almalıdır. Fərdi tədris planında tələbə sentyabrın 10-dək düzəlişlər edə bilər. Növbəti tədris ilində isə tələbələr öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilməsinə icazə verilmir. Yalnız payız semestrindən akademik borcu qalanlar qış tətilinin ilk həftəsində növbəti semestr üçün fərdi tədris planlarında ali təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada müvafiq düzəlişlər edə bilərlər. Fərdi tədris planı təhsil müəssisəsi tərəfindən tədris ilinin başlanğıcına qədər təsdiq edilir və bu tədris planının bir nüsxəsi tələbədə, bir nüsxəsi isə ali təhsil müəssisəsinin müəyyən etdiyi qurumda saxlanılır.

*3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi*

UNEC-də təhsilalanlar seçmə fənlərin müəyyənləşdirilməsində sərbəstdirlər. Belə ki, akademik məsləhətçilər tələbələrə fərdi tədris planlarını tərtib edərkən ona həm fənn, həm də yüksəkixtisaslı müəllimlərin seçilməsində öz təkliflərini verir. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən, bura ilk növbədə əvvəlki ildən akademik borcu

qalan fənlər daxil edilir. Onu da qeyd etmək istərdik ki, Təhsil proqramlarının planlarında iqtisadiyyat və idarəetmə ixtisaslarında, Dizayn və Sənaye mühəndisliyi ixtisasında konkret istiqamətlər müəyyənləşdirilmiş və həmin istiqamətlər üzrə fənlər qeyd edilmişdir. Tələbələr ixtisasın ixtisaşmaları istiqamətində fənləri öz seçimləri əsasında həyata keçirirlər. Bu da onların gələcəkdə ixtisaslaşmalarına töhvə verir.

*3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi*

2022-ci ildə təsdiq olunmuş texniki tapşırığa əsasən tədrisin elektron idarə edilməsinin bir sıra sahələrinin elektronlaşdırılması nəzərdə tutulmuşdur. Belə ki, təsdiqlənmiş FTP/Tədris yükü modulunun texniki tapşırığı əsasən fənn üzrə qrupların tədris planlarına uyğun olaraq avtomatik yaradılması, tələbələrin tədris ili üzrə fənn seçimi, fənn üzrə qrupa uyğun olaraq müəllim seçimi (müəllim seçimi zamanı dərs cədvəlinin seçimi də aparılır), təkrar imtahan üzrə qeydiyyat, yay semestri üzrə qeydiyyat, qeydiyyat zamanı müqavilələrin avtomatik generasiyası, qanunvericiliyin tələblərinin qorunması və tədris yükünün avtomatik hesablanması prosesi əhatə olunmuşdur. Modul hazırda yazılım mərhələsindədir. Modulun təhvili 2023-cü ilin yay aylarına planlaşdırılır.

*3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası*

UNEC-də tələbələr arasında mütamadi olaraq hər semestrdə tədrisin təşkili,tədris prosesində tətbiq edilən innovativ metodlarla bağlı məmunluq, xarici dil dərslərinin keçirilməsinin effektivliyi və sair bu kimi istiqamətlərdə  rəy sorğuları təşkil edilir. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğuları aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir. Bunlardan Fənlər üzrə məmnunluq, Karyera xidmətlərindən məmnunluq, Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq, Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu, Qazanılmış ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu, Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq, Peşəkar inkişafın dəstəklənməsi fəaliyyətlərindən məmnunluq, Fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğularını misal göstərmək olar. Keçirilən sorğular nəticəsində əldə edilən məlumatlar emal edilərək bu istiqamətdə təkmilləşdirmə işləri aparılır.

*3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası*

Məlumat olaraq bildiririk ki, UNEC-in tələbə-rektoru, tələbə təşkilatlarının rəhbərləri

(TEC, TGT, THİK) tələbələrin maraqlarını əhatə edən məsələlərin müzakirəsində və qərarların qəbul edilməsi prosesində iştirak edirlər. Bu proseslərdə iştirak edən tələbə-rektor və tələbə təşkilatlarının rəhbərləri tələbələr tərəfindən bildirilmiş təklifləri, rəyləri, və.s səsləndirirlər. Bu dövrə qədər tələbələrin (eyni zamanda məzunlar) təklifləri əsasında bir çox yeniliyə imza atılmış, onların fikirləri əsasında müəyyən proseslərdə müvafiq qərarlar verilmişdir. Bütün qeyd edilənlərin nəticəsində tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası müsbət göstərici ilə xarakterizə olunur və daimi olaraq daha da müsbət aspektə doğru inkişaf edir.

*3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti*

UNEC-də tələbə rəylərinin sistemli şəkildə toplanması məqsədi ilə onların “Şəxsi kabinet” lərində “Məmnunluq Anket” i yaradılmışdır. Onların buradan təqdim edilmiş suallar əsasında “Məmnunluq Anket” lərini dolduraraq, öz müəllimlərindən, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsindən nə qədər məmnun olduqlarını ifadə etmək imkanları var. Toplanmış sorğuların nəticəsi mütəmadi olaraq təhlil edilir, sistemdə daimi olaraq təkmilləşdirmələr (suallar, sorğu formatları yenilənir) aparılır, ümumi olaraq sorğu nəticələri UNEC -də aparılan qərarvermə prosesində istifadə edilir və nəzərə alınır.

*3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti*

Tələbələr UNEC-də şikayət və təkliflərini aşağıdakı üsullarla rəhbərliyə çatdırırlar. unec@unec.edu.az, rəsmi sosial şəbəkə hesabları (facebook, instagram, teleqram və s.) fakültələrin keçirdikləri mütamadi sorğular və birpencere.unec.edu.az saytının çat bölməsindən müraciət edirlər.

*3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti*

UNEC-də akademik məsləhətçilərin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarının 5 bəndinə əsasən təşkil edilmişdir. Ali təhsil müəssisələrində Bolonya

prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə ali təhsil müəssisələrində akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilir. Tyutorlar bu vəzifəyə rektorun əmri ilə təyin olunur və tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar. Tyutorlar tələbələrə fərdi tədris planlarının tərtib edilməsində və onlara dəyişikliklər aparmasına yardım göstərirlər

*3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti*

UNEC-də EDUMAN təhsil idarəetmə sistemində kommunikasiya paneli istifadəyə verilmişdir. Sistemin istifadəsi müəllim və tələbə kabinetləri vasitəsilə həyata keçirilməkdədir. Kabinet vasitəsilə müəllim- tələbə arasında, tələbə-tələbə arasında və əməkdaş-əməkdaş arasında kommunikasiya prosesi təmin edilməkdədir. UNEC-də hər qrupa mentor təyin edilmişdir. Mentorlar mütamadi olaraq tələbələrlə görüşlər keçirilir. Görüşlər nəticəsində əldə olunan məlumatlar kafedra iclaslarında müzakirə edilir. İmtahanlardan öncə tələbələrə məsləhət saatları təşkil edilir. Tədris ilinin əvvəlində I təhsil ili tələbələrinə tyutorlarla görüş təyin olunur və onlara tədrisin kredit sistemi ilə təşkili haqqında məlumatlar verilir.

*3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti*

UNEC-də sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası aşağıda qeyd edilənlər nəzərə alınmaqla həyata keçirilir. Əlilliyi olan və sağlamlıq imkanları məhdud gənclərin ali təhsilə cəlb etmək və onaların cəmiyyətə tam inteqrasiyası üçün mütəmadi olaraq müxtəlif mövzuları üzrə il ərzində 20-25 maarifləndirmə görüşləri təşkil olunur. UNEC İnklüziv Təhsil Mərkəzinin təşkil etdiyi görüş: tələbələrin xüsusi istedadları, hobbiləri, yaradıcılıq planları və özünüinkişaf barədə müzakirələr aparılır.

*3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti*

UNEC-də sosial həssas qrupa aid edilən tələbələrin təhsil haqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 saylı qərarına əsasən həyata keçirilir. Yəni, UNEC-də normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi təşkil olunmuşdur.

Bunlara aşağıda qeyd edilən tələbə kontingenti aiddir:

1. ünvanlı dövlət sosial yardımı alanlar;

2. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

2.1. I və II dərəcə əlilliyi olan şəxslər;

2.2. işsiz kimi qeydiyyatda olanlar;

2.3. yaşa görə əmək pensiyaçıları;

2.4. yaşa görə sosial müavinət alanlar.

Bundan başqa UNEC Elmi Şurasının 165 saylı qərarı ilə 23 yaşı tamam olmuş bu qəbildən olan tələbələrin məzun olmaları üçün onların təhsil haqları UNEC-in hesabına ödənilir.

*3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti*

Təhsil müddətində tələbələrin xərclərinin ödənilməsi üçün tələbələrə bir semestrlik və ya bir dəfəlik olmaqla təqaüd almaq hüququ verilir. Təqaüd alma hüququ AR Nazirlər Kabinetinin, AR Prezidentinin və UNEC daxili qərarlarına əsasında tənzimlənir. Təhsilin motivasiya edilməsi məqsədilə UNEC daxili bəzi əlavə təqaüd qaydaları təsdiqlənmişdir. Həmin qaydalara əsasən aşağıdakı təqaüd növləri müəyyən olunmuşdur:

UNEC Elmi Şurasının 29.05.2015-ci il tarixli iclasının 138 saylı qərarını əsasən “600 və daha artıq bal toplayaraq” UNEC-ə qəbul olmuş hər bir tələbəyə bir semestr boyunca əlavə olaraq 100 AZN məbləlğində təqaüd verilir;

UNEC Elmi Şurasının 29.05.2015-ci il tarixli iclasının 138 saylı qərarını əsasən imtahan sessiyasının nəticələrinə görə bakalavriat səviyyəsində hər təhsil ilinə müvafiq olaraq ən çox bal toplayan 15 tələbəyə universitetin vəsaiti hesabına əlaçı təqaüdü həcmində təqaüd verilir;

UNEC-in Elmi Şurasının 29.06.2018-ci il tarixli iclasının 160 saylı qərarına əsasən “Beynəlxalq olimpiada və Respublika fənn olimpiadaları qalibi olub, UNEC-ə qəbul olmuş tələbəyə” bir semestr ərzində 100 AZN məbləğində universitetin xüsusi təqaüdü verilir.

UNEC Elmi Şurasının 28.02.2019-cu il tarixli iclasının 164 saylı qərarına əsasən “Nüfuzlu elmi nəşirlərdə əsərləri çap edilən” UNEC təhsilalanlarına məqalənin təsir (impact) faktoruna uyğun olaraq birdəfəlik mükafat verilir.

UNEC Elmi Şurasının 10.12.2021-ci il tarixli iclasının 181 saylı qərarına əsasən, Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 09.03.2021-ci il tarixli, F-74 sayh əmri ilə təsdiq edilmiş “Dahi Azərbaycan şairi ve mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın 1-ci bəndinin icrası ilə bağlı "Nizami ili" adlı sərgidə onun əsərlərindən ilhamlanaraq işlər təqdim etmiş və fəal iştirak etmiş UNEC Dizayn

məktəbinin 4 tələbəsinə UNEC vəsaiti hesabına 15 sentyabr 2021-ci il tarixindən - 31 dekabr 2021-ci il tarixinədək aylıq 100 AZN məbləğində təqaüd təsis edilmişdir.

### *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

*3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu*

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar UNEC-də Universitet üzrə umumi və hər fakültə üzrə isə ayrı-ayrılıqda monitorinq qrupları yaradılmışdır. Keçirilən monitorinqin nəticələri müzakirə olunur, müşahidə olunan çatışmamazlıqların aradan qaldırılması ilə əlaqədar təkmilləşdirmə işləri aparılır. UNEC Elmi Şurasının 16 sentyabr 2022-ci il tarixində 184 saylı qərarı ilə UNEC-də kafedra (departament) şurasının və kafedra (departament) ixtisas şurasının fəaliyyəti haqqında Qaydalar təsdiq edilmişdir. İxtisas şurası ixtisas üzrə fənn proqramlarının və tədris vəsaitlərinin hazırlanması, təkmilləşdirilməsi və müvafiq rəsmiləşdirmələrin aparılması, ixtisasın tədris və elmi fəaliyyətlərlə bağlı problemləri haqqında müvafiq hesabatların hazırlanması, ixtisas üzrə qiymətləndirmə və keyfiyyət təminatı fəaliyyətlərinin həyata keçirilməsi, bunlarla bağlı müvafiq hesabatların hazırlanması və sair bu kimi məsələləri həll edir.

*3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu*

UNEC-də Təhsil proqramlarında yeni fənlər üzrə xarici və yerli mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir. Təlimin nəticəsi olaraq Təhsil proqramında olan təlim nəticələri nəzərə alınmaqla nümunəvi fənn proqramları və fənlər üzrə sillabuslar hazırlanmışdır. Hazırlanmış nümunəvi fənn proqramlarında peşə kompetensiyalarını da özündə əksi etdirir. UNEC-də yaradılmış kafedra şurası təhsilalanların akademik məsələləri ilə bağlı müvafiq qərarların alınması, dərsliklər, dərs vəsaitləri və digər tədris-metodiki vəsaitlərin hazırlanması ilə bağlı müvafiq qərarların və rəsmiləşdirmələrin aparılması məsələlərini həll edir.

*3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti*

UNEC-də daxili keyfiyyət təminatı sistemi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG 2015) əsaslanır. Belə ki, təlimatlarda qeyd olunan 1.2 Proqramların tərtib və təsdiq olunması standartının tələblərinə uyğun olaraq təhsil proqramının tərtib olunması və seçmə fənlərin təyin olunmasında sənaye ehtiyacları və

dünya təhsil sahəsindəki qabaqcıl təcrübələrdən faydalanması və tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə hazırlanması üçün əsası qoyulmuş sistem mövcuddur. Əlavə olaraq proqramlar tərtib olunarkən gözlənilən təlim nəticələri nəzərə alınmaqdadır.

Qeyd olunduğu kimi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların (ESG 2015) “1.9. Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması” ilə bağlı hissədə qeyd olunan tələblərin ödənməsi üçün habelə tələbələrin və sənaye ehtiyaclarının təmin edilməsi məqsədi ilə proqramlar mütəmadi olaraq yoxlanılır.

Qeyd olunan daxili keyfiyyət təminatı elementlərinə proqramların monitorinqinin faydası tədris edilən proqramın müvafiq sahə üzrə aparılan ən son tədqiqat nəticələrini əks etdirməsi, cəmiyyətin dəyişən ehtiyaclarının müəyyən edilməsi baxımından əvəzsizdir.

UNEC-də təhsil proqramlarının tərtibi və seçmə fənlərin seçimi həmçinin bu prosesin monitorinqi maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir və onlara müvafiq düzəlişlər edilir. Prosesdə araşdırma zamanı əldə olunmuş məlumatların təhlili aparılır və proqramın müasir dövrün tələblərinə cavab verməsi üçün müvafiq düzəlişlər edilir və sonda ictimaiyyətə təqdim edilir.

*3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti*

Təhsil proqramları üzrə təşkil edilən tədris prosesinin nəticələrinin qiymətləndirilməsi müvafiq struktur rəhbərlərinin universitetin Elmi Şurasında hesabatlarının dinlənilməsi və müzakirəsi əsasında aparılır. Belə ki, Elmi Şurada tədrisin təşkili və onun nəticələri haqqında hesabat UNEC-in Tədris üzrə prorektoru, imtahan sesiyyasının nəticələri hər iki semestr üçün ayrı ayrılıqda İmtahan mərkəzinin direkroru  tərəfindən məruzə edilir.

*3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti*

Tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi həyata keçirilir. Təhsil Proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin  məsələn Ernst and Young, Deloitte, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi, Mərkəzi Bank, SOCAR, KPMG, Kapital Bank, Baker Tilly kimi nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alınmışdır. Qeyd etmək olar ki, yeni Təhsil Proqramları üzrə təhsil alan UNEC məzunları işə qəbul olarkən əldə etdikləri bacarıqlar əmək bazarının tələblərinə cavab verəcəkdir. Bu Təhsil Proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənləri əsasən əmək bazarının iştirakçıları tədris edirlər.

### 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

*3.10.1.Karyera mərkəzinin mövcudluğunun vəziyyəti*

Azərbaycan Dövlət İqtisad Universitetində Karyera Mərkəzi 2008-ci ilin 26 noyabr tarixində yaradılmış və 751/3/2016 saylı 2 noyabr 2016-cı il tarixli əmrlə təkmilləşdirilmişdir. Karyera Mərkəzi verilən səlahiyyətlər çərçivəsində ali təhsilin bütün səviyyələrində təhsilalanların və məzunların karyera inkişafında və məşğulluqlarının tənzimlənməsində yardım göstərir.

Mərkəz öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq dövlət, özəl və xarici müəssisələrlə bağlanmış memorandum əsasında həyata keçirir. Mərkəz öz vəzifərini yerinə yetirərkən təhsilalanlar və məzunlar üçün UNEC-in struktur bölmələri, universitet adından dövlət orqanları, elm və təhsil qurumları, korporativ sektor və digər təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

*3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti*

UNEC Karyera mərkəzi 2008-ci ildən etibarən tələbə və məzunlara karyera məsləhət xidmətini həyata keçirir. Məsləhət xidmətində əsasən (CV hazırlanması, peşəkar iş həyatına hazırlıq, ixtisasyönümlü praktiki ustad dərslərə yönləndirilmə, uğurlu məzunlarla görüş, şirkətlərdə təqaüdlü təcrübə proqramına hazırlıq və cəlb olunma və digər) fəaliyyətlər aiddir.Bununla yanaşı UNEC- in Elmi şurasının 14 sentyabr 2020 tarixli qərarı ilə və UNEC 100" İnkişaf Strategiyasına uyğun olaraq müasir əmək bazarının tələblərinə cavab verən yüksək ixtisaslı kadrların hazırlanması və peşəkar mütəxəssislərin tədris prosesinə cəlb olunması məqsədilə, UNEC rektorunun 32/3/2021 saylı və 25 yanvar 2021 ci il tarixli əmri ilə "Karyera planlaşdırılması və inkişafi" kafedrası yaradılmışdır. Kafedra “Karyera planlaması" ,"Yumuşaq bacarıqlar" və “Sərt bacarıqlar” fənləri üzrə tədrisi həyata keçirir.

*3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti*

UNEC Karyera mərkəzi məzunlarla əlaqəni bir neçə istiqamətdə qurur. UNEC-də 2019-cu ildən fəaliyyət göstərən UNEC Virtual Əmək Birjası portalının fəaliyyətidir. http://job.unec.edu.az/az Portalda qeydiyyatdan keçən hər bir məzun UNEC-lə əməkdaşlıq olunan müəssisələr tərəfindən yerləşdirilən aktiv vakansiya və təcrübə proqramlarına cəlb olunur. Portal UNEC təhsialanlarının məzun olduqdan sonra məzunların digər saytlarda axtarışa zaman itkisi sərf etmədən ixtisasına uyğun tez iş tapması məqsədilə yaradılıb.

UNEC Karyera mərkəzinin rəsmi Karyera mərkəzi Portalı və Mərkəzin gənclərin ən çox zaman keçirdiyi sosial mediadakı (facebook, instagram, linkedin, telegram) hesabları

təhsilalanların və müxtəlif ixtisaslar üzrə ixtisaslaşan məzunların əmək bazarının tələbatına uyğun ixtisas profilləri üzrə dövlət və özəl sektorların, beynəlxalq şirkətlərin aktiv işçi vakansiyaları, təcrübə proqramları, işə yönəlikli təqaüd proqramları, yay məktəbləri haqqında məlumat xidməti göstərir. Məzunların məşğulluğunun öyrənilməsi ilə bağlı sorğular keçirir. https://news.unec.edu.az/elan/10101-telebelerin-nezerine/9497-unec-mezunlarinin-nezerine-sorgu-kechirilir

UNEC-də və Azərbaycan universitetlərinin tarixində ilk dəfə 28,29 iyun 2021-ci il tarixlərində keçirilən XIV UNEC Karyera Yarmarkasında Virtual "Endless Fairs" Karyera platforması yaradıldı. https://karyerayarmarkasi.unec.edu.az/home Azərbaycan universitetləri arasında ilk dəfə Endless Fairs" platforması vasitəsi ilə 120 şirkət qeydiyyatdan keçərək yarmarkada iştirak edən 4002 məzuna aktiv iş təklifi təqdim etdi. Yarmarkanın keçirilmə tarixindən bir ay sonrakı nəticəsinə əsasən 708 məzun təcrübəçi olmaq imkanı əldə etdi. 564 məzun işlə təmin olundu. Platforma il boyu aktivdir və məzunların məşğulluğunun təmin olunması prosesi davam etdirilir. Platformanın əsas üstünlükləri vaxt itkisinə qənaət, daha çox məzun və şirkət əməkdaşlarının nəqliyyat və digər vəsaitlərə xərc sərf olunmadan karyera yarmarkasında virtual iştirakı və statistikanın zamanında bilinməsidir.

https://karyerayarmarkasi.unec.edu.az/home

https://unec.edu.az/unec-den-novbeti-yenilik-virtual-karyera-yarmarkasi/

EDUMAN sistemində məzunların şəxsi məlumatları (qəbul olduğu və məzun olduğu il, qəbul balı, diplom üzrə ÜOMG, ad, soyad, e-mail, əlaqə nömrəsi, şəxsiyyət vəsiqəsinin fin kodu) qorunur. UNEC Karyera mərkəzi məzunların e-mail ünvanlarına UNEC məzunlarının işsizlik sorğusu ilə bağlı email göndərərək onlardan geri dönüşü olan müraciətləri araşdırıb işsiz yaxud iş axtaran olduğunu müəyyənləşdirdikdən sonra uyğun vakansiyalar üzrə yönləndirmə və karyera məsləhəti xidmətini keçirir.

UNEC məzunlarının məşğulluğunun izlənilməsi məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə 010-076-601/02/2022 saylı 05.05.2022-ci il tarixli məktubla müraciət edilmişdir. Müraciətə cavab olaraq agentlik 2017-2021-ci illər ərzində bakalavriat səviyyəsindən məzun olmuş 10 734 nəfər məzunun 5 262 nəfərinin Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək müqaviləsi bildirişləri" altsistemindən (ƏMBAS) əldə olunmuş məlumata əsasən hal-hazırda muzdlu əmək bazarında çalışdığı haqda siyahı təqdim etmişdir.

Məlumatların elektron mübadiləsinin isə agentliyin sistemdə təkmilləşdirmə işləri bitdikdən sonra təmin edilməsi bildirilmişdir.

*3.10.4.Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti*

Məzunların təhsil aldıqları müddətdə UNEC-də təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin məzun olduqdan sonra karyera quruculuqlarındakı rolunun araşdırılması məqsədilə UNEC Karyera mərkəzi tərəfindən mütəmadi olaraq “Sorğu”lar https://forms.gle/2vC2gsuYLDYK4ye49 keçirilir. “Sorğu” (məzunların təhsil aldıqları müddətdə əldə etdikləri biliklərin cari iş həyatındakı rolu yaxud çatışmazlığı, fənlərlə bağlı rəylərin öyrənilməsi üzrə) sualları əhatə edir. Bununla yanaşı əməkdaşlıq olunan Fəxri məzunlara e-mail vasitəsilə “Sorğu” göndərilərək geri dönüş edənlərin sorğu cavabları təhlil edilir.

*3.10.5.Məzunlarla davamlı əlaqə sisteminin mövcudluq vəziyyəti*

UNEC məzunlarını davamlı izləmək üçün UNEC Extern Mərkəzinin EDUMAN mərkəzləşdirilmiş portalına istinadən məzunların e-mail ünvanlarına “Sorğu” göndərilməklə əlaqə yaradılır. Bununla yanaşı 2022/20223-cü tədris ilində UNEC Məzunlarının Asossiasiyasının yaradılması və məzunlarla əlaqələrin koordinasiyanın genişləndirilməsi ilə əlaqədar 260/1/2022 saylı 18.11.2022-ci il tarixli əmrə əsasən işçi qrup yaradılmışdır.

İşçi qrup məzunlarla əlaqələrin qurulması, il ərzində bir dəfə “UNEC məzunlarının Həmrəylik Günü”nün keçirilməsi, bununla yanaşı məzunların təlim və tədris prsosesinə cəlb olunmaları, təhsilalanların iştirak etdiyi ictimai layihələrlə gələcəkdə təsis olunacaq İanə fonduna maliyyə dəstəyi və digər tədbirlər nəzərdə tutulmuşdur.

.

# 4. ELMİ TƏDQİQAT

## 4.1 Elmi-tədqiqat strategiyası

*4.1.1 UNEC-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti*

Universitetin elmi-tədqiqat strategiyası dünya elminin inkişaf istiqamətlərinə, ölkənin mühüm ictimai-mədəni məsələlərinin həllinə uyğun və UNEC-100 İnkişaf Strategiyasının məqsəd və hədəflərinə uyğun müəyyənləşdirilmiş, elm sahəsində idarəetmə sisteminin, elmi infrastrukturun modernləşdirilməsinə, elmi tədqiqat müəssisələrinin və bütövlükdə elmin maliyyələşdirilmə mexanizmlərinin təkmilləşdirilməsinə, yüksək ixtisaslı kadrların hazırlanmasına, elmin, təhsilin və istehsalın inteqrasiyasına, elmin informasiya təminatının gücləndirilməsi istiqamətində qurulmuşdur.

Universitet daxilində elmi-tədqiqat istiqamətindəki strateji hədəflər qəbul olunmuş fərmanlar, sərəncamlar və dövlət qanunvericiliyi əsasında tənzimlənir.

*4.1.2.Elmi-tədqiqat strategiyasının UNEC-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti*

UNEC-də elmi-tədqiqat strategiyasının əsas hədəfi və missiyası UNEC-100 İnkişaf Strategiyasına uyğun müəyyənləşdirilmişdir.

Burada fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların aparılması üçün müvafiq infrastrukturun, elektron kitabxananın, müasir maddi-texniki bazanın və elmtutumlu avadanlıqdan kollektiv (digər ali təhsil müəssisələri) istifadə mərkəzinin mövcudluğunun, hesabat ili ərzində beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda (Web of Science, SCOPUS) respublika üzrə nəşr olunan məqalə sayının azı 10 faizinin universitetin əməkdaşları tərəfindən nəşr edilməsi, doktorantura səviyyəsində kadr hazırlığı aparılan hər ixtisas üzrə doktorluq dissertasiyalarına rəhbərlik edə bilən ən azı 5 professor və ya dosentin universitetdə fəaliyyət göstərən elmi-pedaqoji heyətin tərkibinə daxil edilməsi, ən azı bir dissertasiya şurasının fəaliyyət göstərməsi, magistratura səviyyəsində ixtisaslaşmaların beynəlxalq akkreditasiyası, UNEC tərəfindən anti-plagiat sistemindən istifadə edilməsi, yerli və beynəlxalq donorlardan son 5 il ərzində elm sahəsində ən azı 20 qrantın alınması məsələsi əsas strateji hədəf kimi seçilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in reallaşdırılmasına UNEC alimlərinin töhfəsini stimullaşdırmaq məqsədilə qrant müsabiqəsi təsis olunmuşdur.

*4.1.3. UNEC-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti*

2016-2017-ci illərdə elmi istiqamətdə strateji hədəf kimi Universitetin kafedraları arasında elmi əlaqələri gücləndirərək təsərrüfat hesablı müqavilə ilə elmi tədqiqat işlərinin yerinə yetirilməsi üzrə fəaliyyətin təşkili, professor-müəllim heyətinin elmi-tədqiqat və müdafiə olunmuş dissertasiya işlərindəki mühüm elmi nəticələrinin istehsalatda tətbiqinin həyata keçirilməsi, UNEC-in professor-müəllim heyətinin nüfuzlu jurnallarda məqalələrinin çap olunmasının təşviqi, yerinə yetirilən dissertasiya işlərindən əldə olunan nəticələr kafedralarda tərəfindən hazırlanan müvafiq fənn proqramlarında, mühazirə mətnlərində və təqdimat slaydlarında öz əksini tapması kimi müəyyənləşdirilmişdir.

2018-2019-cu illərdə elm-tədqiqat siyasətinin əsas istiqaməti kimi tədqiqat mərkəzlərinin yaradılması, universitet əməkdaşlarının nəşr aktivliyinin tənzimlənməsi məqsədi ilə nüfuzlu elmmetrik platformalarda indekslənən jurnallarda və ya konfrans kitablarında çap olunan elmi əsər sayının artırılması, yeni qrant layihələrinin cəlb olunması və elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi mexanizmi olan qrant müsabiqələrinin təsis olunması, magistratura səviyyəsində ixtisaslaşmaların beynəlxalq akkreditasiyası, ali təhsil müəssisələri tərəfindən anti-plagiat sistemindən istifadə edilməsi, UNEC-də dəvətli tədqiqatçı statusunun müəyyənləşdirilməsi ilə əlaqədar qaydaların hazırlanması, UNEC üzrə elmi mükafatların təsis edilməsi və ildə bir dəfə olmaq şərti ilə UNEC-də beynəlxalq nüfuzlu konfransın, fakültələrdə isə daimi ixtisaslaşmış konfransların təsis edilməsi müəyyən olunmuşdur.

Artıq 2019-cu ildən etibarən UNEC-in nizamnaməsi və dünyanın 500 ən yaxşı universitetinə çevrilmək üçün “UNEC-100” İnkişaf Strategiyası hazırlanmışdır. Bu ildən etibarən elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyası bu sənədlərdə qeyd olunan müddəalar əsasında tənzimlənmişdir.

*4.1.4. Elmi-tədqiqat məqsədlərinin UNEC-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu*

UNEC-100 inkişaf strategiyasının 2030-cu ilədək tamamlanması universitet tərəfindən uzunmüddətli strateji inkişaf proqramı kimi müəyyənləşdirilmişdir. Belə ki, 2030-cu ilə qədər “Web of Science” və “Scopus” elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını ildən-ilə artırmaq, həmin bazalara daxil olan 3 elmi jurnala sahib olmaq, elmi məruzələri nüfuzlu bazalara daxil edilən beynəlxalq elmi tədbirlər təsis və təşkil etmək,

o cümlədən hər il iqtisadçı tələbələrin beynəlxalq tələbə elmi konfransını təşkil etmək UNEC-in İnkişaf Strategiyasında hədəf kimi müəyyən olunub.

Hazırda isə UNEC-də konkret və spesifık tədqiqat istiqamətləri üzrə tədqiqat mərkəzləri və laboratoriyalar fəaliyyət göstərir. Elmi stimullaşdırılması məqsədilə isə UNEC Tədqiqat Fondu, Differensial Əmək Haqqı Sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma mexanizmi mövcuddur.

UNEC-də elmi tədqiqatlar elmi-tədqiqat institutu, innovativ biznes inkubator, kafedralar, tədqiqat mərkəzləri və labaratoriyalarda həyata keçirilir. Universitetin elmi jurnalları və virtual iqtisadi forumu mövcuddur. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə UNEC Tədqiqat Fondu, differensial əmək haqqı sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma sistemi fəaliyyət göstərir. UNEC alimləri milli və beynəlxalq donor təşkilatların qrantları, ayrı-ayrı dövlət və özəl şirkətlərin sifarişləri əsasında elmi tədqiqat layihələri həyata keçirirlər. Eləcə də son illər UNEC alimlərinin “Web of Science”, “Scopus” kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilən əsərlərinin sayı sürətlə artır. UNEC tədqiqat potensialını artırmaq və tədqiqat universitetinə çevrilmək məqsədilə tədqiqat infrastrukturunun yaxşılaşdırılmasına, nüfuzlu nəşrlərdə elmi əsərlərin nəşrinə, elmi tədqiqat qrant layihələrinin həyata keçirilməsinə, magistratura və doktorantura təhsilinin inkişaf etdirilməsinə və əqli mülkiyyət hüquqlarının qorunmasına böyük önəm verir.

13.12.2022-ci ilin məlumatlarına əsasən 16 kafedra və İqtisadi Araşdırmalar ETİ əməkdaşlarının müxtəlif beynəlxalq elmi-tədqiqat şəbəkələrində profilləri yaradılmışdır. Bu tarixə olan məlumata əsasən beynəlxalq elmi-tədqiqat şəbəkələrində 866 UNEC əməkdaşının Research Gate, ORCID, Publons profilləri, 824 nəfərin Google Scholar profili mövcuddur. Bununla yanaşı 1 noyabr 2022-ci ilin məlumatına əsasən 209 UNEC əməkdaşının Scopus müəllifi profili mövcuddur. Bu profillərdə 703 elmi əsər indeksləşmişdir.

Elmi tədqiqat strategiyası kimi magistratura və doktorantura təhsilini tamamilə mütərəqqi dünya təcrübəsinə uyğunlaşmaq, “Web of Science” və “Scopus” elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırmaq və ölkədə lider universitetlər səviyyəsinə yüksəltmək, nüfuzlu nəşrlərdə əsər çap edilməsinin stimullaşdırılması mexanizminin daim təkmilləşdirilməsi, “Web of Science” və “Scopus” bazalarına daxil edilən ən azı 2 nüfuzlu beynəlxalq elmi tədbiri (konfrans, konqres, forum və.s.) təsis və təşkil etmək, informasiya resurslarının idarəedilməsində səmərəliliyi davamlı yüksəltmək və “Web of Science” və “Scopus” bazalarına daxil olan ən azı 3 elmi jurnala sahib olmaq istiqamətində işlər həyata keçirilməkdədir. Bu illər ərzində strategiyanın əsasən SWOT (GZİT) təhlili aparılır və buna uyğun gələcək hədəflər planlaşdırılır. Belə ki, burada

mövcud olan güclü tərəflər, zəif cəhətlər, imkanlar və təhlükələr təhlil edilir. Daxili və xarici amillərin təsir amilləri müəyyənləşdirilir.

*4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti*

Elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiyası əsasən professor-müəllim heyətinin müəllifi olduğu monoqrafiya, dərslik, dərs vəsaiti və proqramlarda öz əksini tapmaqdadır. Bununla əlaqədar olaraq universitet əməkdaşları tərəfindən yazılmış tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üçün sənədlər Tədris-metodoki Şuraya təqdim olunur. Şurada AR Elm və Təhsil Nazirliyinin "Tədris vəsaitlərinə nəşr hüququnun verilməsi məsələlərinin tənzimlənməsi barədə" əmrdə göstərilən tələblərə uyğunluğu yoxlanılır və şuranın qərarı ilə çapa tövsiyə olunur.

UNEC-də Məsləhətçi-professor vəzifəsinin tutulması qaydaları haqqında Əsasnamənin təsdiqi- Qəbul olunan əsasnamə yüksək ixtisaslı elmi-pedaqoji kadrların, professorların təcrübəsindən universitetin elmi-tədris prosesində istifadə etmək, tədris və elmi proseslərdə varisliyi təmin etmək və təhsil ocağında keyfiyyətli elmi-pedaqoji kadrlar hazırlamaq məqsədi ilə hazırlanıb və həyata keçirilməkdədir.

*4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti*

Universitetdə professor-müəllim heyətinin performansı aşağıdakı qaydalar çərçivəsində nizamlanır.

1.UNEC-də Qonaq Alimin statusu və fəaliyyəti haqqında qaydaların təsdiqi haqqında;

Bu qaydalarla UNEC-də müəyyən müddət üçün qonaq statusunda çalışan alimlərin fəaliyyətinin əsaslarını, eləcə də qonaq alimin hüquq və vəzifələri, qiymətləndirilməsini əhatə edir.

2.UNEC professoru və dosenti vəzifələrinin tutulması haqqında qaydalar;

Mütəmadi olaraq UNEC professoru və dosenti ştatları üzrə müsabiqə elan olunur və professor-müəllim heyəti bu elanla ştatların tutulması ilə əlaqədar sənədlərini komissiyaya təqdim edir. Komissiyada iddiaçının elan olunan ştata təyin olunmasının uyğunluğu yoxlanılır.

3.Elmmetrika şöbəsinin fəaliyyət istiqamətləri və vəzifə öhdəliklərini tənzimləyən müvafiq müddəalar EFTİE departamentinin əsasnaməsinə əlavə olunması haqqında;

Şöbənin funksiyası UNEC professor-müəllim heyətinin və tədqiqatçılarının nüfuzlu elmi nəşr platformasındakı fəaliyyətini analiz edərək rüblük hesabatların hazırlanması və gələcək strateji məqsəd və hədəflərin müəyyənləşdirilməsinə istiqamət verməkdir.

4.UNEC professor-müəllim heyəti üzvlərinə "Tədqiqatçı" statusunun verilməsi haqqında;

Qayda əsas iş yeri UNEC olan müəllim, baş müəllim, dosent və professor vəzifələrini tutan əməkdaşlara şamil edilir. “Tədqiqatçı” statusunun verilməsi üzrə başlıca tələbləri ödəyən professor, dosent, baş müəllim və müəllimlərin akademik vəzifələrinin qarşısına “tədqiqatçı” sözü əlavə edilir və həmin şəxslərin əməkhaqqları əlavə olaraq 50 faiz artırılır.

5. Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinin Əsasnaməsi təsdiq edilməsi haqqında;

Şöbənin funksiyası UNEC-in tədqiqat universitetinə çevrilməsində tədqiqat mərkəzləri və laboratoriyaların rolunu nəzərə alaraq, aparılan tədqiqat işlərinin səmərəliliyinin artırılmasıdır.

6. Xaricdə tədqiqat aparmaq üçün dəvət almış professor-müəllim heyətinin əmək haqqı qaydaları haqqında;

Bu qaydaların əsas məqsədi nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün göndərilən UNEC professor-müəllim heyətinin xaricdə tədqiqat apardığı müddətdə UNEC-dəki əməkhaqlarının saxlanılması barədə əsas qayda və prosedurları müəyyən etməkdir.

7. EFTİE departamentinin əsasnaməsinin təsdiqi haqqında və EFTİE departamenti yaradılması haqqında;

UNEC-də aparılan elmi fəaliyyətlə bağlı görülən işlərin koordinasiyası, əlaqələndirilməsi və idarə edilməsi departamentin əsas vəzifəsidir.

8. Texnologiya Transfer şöbəsinin EFTİE departameninin tərkibində yaradılması haqqında;

Şöbənin əsas məqsədi UNEC-in maraqları çərçivəsində, regional müəssisə və təşkilatların ehtiyaclarını və UNEC-in mövcud fundamental və strateji işlərinin biznes tələbatlarına uyğunlaşmasını, o cümlədən biliklərin texnologiyaya çevrilməsini, elmi tədqiqatlardan əldə olunan nəticələrin kommersiyalaşdırılmasını və iqtisadi proseslərdə istifadə edilməsini təmin etməkdir.

9. Differensial Əmək Haqqı Sistemi və mükafatlandırma qaydalarında müvafiq dəyişikliyin edilməsi haqqında;

UNEC-də elmi-pedaqoji fəaliyyətin nüfuzlu elmi nəşr platformasında fəaliyyətinin qiymətləndirilməsi məqsədilə yaradılan sistem 2016-cı ildən tətbiq olunmaqdadır.

10. Nüfuzlu elmi nəşrlərdə əsərləri çap edilən UNEC əməkdaşlarının mükafatlandırılması haqqında qaydaların təsdiq edilməsi haqqında;

UNEC-də yüksək kvartilli jurnallarda elmi əsərləri çap olunan əməkdaşların mükafatlandırılmasıdır.

11. Müsabiqə əsasında universitetin vəsaitlərindən elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi (universitet daxili qrant):

UNEC-də aparılan elmi-tədqiqat işlərinin dəstəklənməsi və inkişafı baxımından "Müsabiqə əsasında universitetin vəsaitlərindən elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi sistemi haqqında" Əsasnaməyə uyğun olaraq 2022-ci təqvim ilində Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in reallaşdırılmasına alimlərin töhfəsini stimullaşdırmaq məqsədilə UNEC qrant müsabiqəsi həyata keçirilməkdədir.

*4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyası elektron variantda UNEC saytına yerləşdirilmişdir. Belə ki, https://unec.edu.az/application/uploads/2019/09/UNEC_-_100_inkisaf_strategiyasi.pdf linkə keçid edərək lazımi məlumatları əldə etmək mümkündür.

*4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyasının hazırlanması mərhələsində UNEC Rektorluğu, UNEC kollektivi, UNEC tələbə təşkilatları və işəgötürənlərlə aktiv müzakirələr aparılmış və bu sənəd qeyd edilən müzakirələrin nəticəsi olaraq ortaya çıxmışdır.

## *4.2 Tədqiqat resursları*

*4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti*

UNEC-də elmi-tədqiqat işləri aşağıdakı istiqamətlər üzrə yerinə yetirilir:

- dövlət büdcəli elmi-tədqiqat işləri;
- büdcədənkənar vəsaitlər (qrantlar, təsərrüfat müqavilələri əsasında müəyyənləşən maliyyə mənbələri və digər mənbələr) hesabına həyata keçirilən elmi-tədqiqat işləri.

Universitetdə elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilir. Ayrılan vəsaitlər elmi fəaliyyətin davamlı inkişafını, mövcud elmi potensialın qorunması və inkişaf etdirilməsini, dövlət maraqları

əsasında ictimai-siyasi, milli-mənəvi, sosial-iqtisadi və elmi-texniki problemlərin tədqiqini (həllini) və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsini təmin edir.

*4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti*

UNEC-də elmin müxtəlif istiqamətlərini əhatə edən 36 Tədqiqat Mərkəzi yaradılmışdır ki, bunlardan 29 Mərkəzin strukturu formalaşmışdır. Mərkəzlərdə fəaliyyət göstərən rəhbər və üzvlər həm universitetdaxili, həm universitetdən kənar, o cümlədən xarici universitetlərdə çalışan alim və tədqiqatçılardan ibarətdir. Belə ki, ümumilikdə Mərkəzlərdə ictimai əsaslarla 129 nəfər fəaliyyət göstərir ki, onlar arasında həm yerli, həm xarici alimlər yer almaqdadır.

UNEC dünya elm məkanına aktiv inteqrasiya olunur. Hər il bütün dünyada məşhur olan alimlərin iştirakı ilə iqtisadiyyatın ənənəvi və yeni aktual problemləri üzrə beynəlxalq konfranslar, forumlar, elmi seminarlar keçirilir. ABŞ, Avropa, MDB, Asiyanın qabaqcıl universitetləri ilə birgə onlayn rejimdə video konfranslar təşkil edilir. UNEC alimləri beynəlxalq elmi konfranslarda, dünyanın tanınmış tədqiqat mərkəzlərində məruzələrlə fəal çıxış edir, diskussiyalar və fikir mübadiləsi aparırlar. Hər il UNEC alimlərinin beynəlxalq jurnallardakı məqalələrinin sayının artması bizim universitetin dünya reytinqlərində mövqeyinin daha da yaxşılaşdırılmasına səbəb olur. UNEC nəşriyyatı mütəmadi olaraq elmi monoqrafiyalar, tədris-metodoloji materiallar, analitik icmallar buraxır. UNEC-də “Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri” və “İqtisad elmləri: nəzəriyyə və praktika” jurnalları nəşr olunur.

2016/2017-ci tədris ilindən Differensial Əməkhaqqı Sistemi UNEC-də uğurla tətbiq olunmağa başlanılmışdır. Differensial Əməkhaqqı Sisteminin tətbiqində məqsəd professor-müəllim heyətinin elmi-pedaqoji fəaliyyətini UNEC-in hədəfləri istiqamətinə yönəltməkdir. Bu baxımdan sistem UNEC-də nəticəyönümlü fəaliyyətlərin genişlənməsinə, professor-müəllim heyətinin fərdi və qrup məhsuldarlığının yüksəlməsinə, onlar arasında sağlam rəqabət mühitinin yaranmasına və onların işdən məmnunluq səviyyəsinin yüksəlməsinə zəmin yaratmaqla, tədris, elmi-tədqiqat və inzibati fəaliyyətlərin səmərəliliyini və keyfiyyətinın yüksəlməsinə xidmət edir. “UNEC-də artıq bir neçə ildir ki, müəllim (müəllim, baş müəllim, dosent, professor) vəzifəsi ilə yanaşı, həm də tədqiqatçı-müəllim (tədqiqatçı-müəllim, tədqiqatçı-baş müəllim, tədqiqatçı-dosent, tədqiqatçı-professor) vəzifəsi təsis edilmişdir. Tədqiqatçı-müəllim statusu tədqiqatları ilə seçilən müəllimlərə verilir və Google Scholar vasitəsilə müəyyən edilir. Belə ki, son 6 ildə elmi əsərlərinə ümumi istinadların sayı 100-dən çox (bu zaman müəllifin bir əsərinə son 6 ildə özünə istinadların sayı 2-dən çox olmamalıdır) və H-İndeksi 8-dən çox olan müəllimlərə tədqiqatçı statusu verilir. Obyektivlik və şəffaflıq tam təmin edilir. Tədqiqatçı statusu olan müəllimlərin məvacibləri 50 faiz artırılır”.

*4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti*

UNEC-in Elmi Şurasının 28.06.2019-cu il tarixli EŞ-166 No-li qərarı ilə təsdiq edilmiş "UNEC nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış professor-müəllim heyətinin tədqiqat apardıqları müddətdə əməkhaqlarının saxlanılması haqqında" Qaydalara əsasən 2016-2022-ci illər ərzində UNEC gənc tədqiqatçıları ABŞ, İsveçrə, Norveç, Almaniyanın nüfuzlu və reytinqli universitetlərində 3 aydan 1 ilədək elmi tədqiqat aparmışdırlar.

UNEC Elmi Şuranın 7 aprel 2021-ci il, EŞ177 saylı qərarı ilə artıq iki ildir ki, Gənc Müəllimlər Şurası fəaliyyət göstərir. UNEC-də alimlərin, eləcə də gənc alimlərin stimullaşdırılması sisteminin Gənc Alimlər Şurasının yaradılması ilə yanaşı onun təməlində "UNEC professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan diferensial əmək haqqı sistemi" dayanır. Bu sistemdə elmi fəaliyyətin demək olar ki, bütün formalarına geniş yer ayrılıb və onlar müvafiq qaydada stimullaşdırılır.

*4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti*

2022-ci ildə UNEC-də təhsilalanlar və professor-müəllim heyəti şəxsi kabinetlərindən birbaşa library.unec.edu.az elektron kitabxanaya giriş edərək resursları onlayn oxuya bilirlər. Hazırda burada Azərbaycan, rus, türk və ingilis dilində 1355 resurs toplanmışdır. Kitabxanaya yeni daxil olan kitabların elektron versiyası müntəzəm olaraq elektron kitabxanaya əlavə edilir. Oxuculara xidmət zamanı bir sıra beynəlxalq məlumat bazalarının rəqəmsal resurslarından istifadə olunur. Abunə olduğumuz ödənişli bazalardan - İPR Smart, EBSCO, Emerald; açıq bazalardan - İKSAD Beynəlxalq Nəşriyyat Evi, Z-Library, ECONBİZ, SAGE, Elsevier, Dünya rəqəmsal kitabxanası, Kembric universiteti nəşrləri, İstanbul universiteti kitabxanası və s. mövcuddur. Həmin bazalarda müxtəlif dillərdə minlərlə e-resurslar mövcuddur.

*4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti*

UNEC-də həyata keçirilən stimullaşdırıcı mexanizmlərdən ən əsası UNEC Rektorunun UNEC-də differensial əməkhaqqı sisteminin tətbiqi haqqında" 14.10.2015-ci il tarixli 80/1/2015 №-li əmri ilə professor-müəllim heyətinə tətbiq edilən UNEC differensial əmək haqqı sistemidir. UNEC-də artıq bir neçə ildir ki, uğurlu nəticələr təmin etmiş müəllimlərin differensial əmək haqqı sistemi tətbiq edilir. Müəllimlərin reytinqinin 70 faizi elmi tədqiqatlarla bağlı olan göstəricilər əsasında müəyyən edilir. Bu zaman xüsusi işlənmiş proqram əsasında

obyektivlik və şəffaflıq təmin edilir və hər bir şəxs prosesi daim izləyə bilir. Reytinqdə ilk 10-luqda olanların əmək haqqı 2 dəfə, 11-30-cu yerlərdə olanların əmək haqqı 70 faiz, 31-60-cı yerlərdə olanların əmək haqqı 50 faiz, 61-100-cü yerlərdə olanların əmək haqqısı isə 20 faiz artırılır.

UNEC-də fəaliyyət göstərən mərkəzlərin prioritet elmi istiqamətlərinin müəyyənləşdirilməsi, elmi fəaliyyətinin stimullaşdırılması üçün müvafiq işlər görülür. Belə ki, tədqiqatçı beynəlxalq elmi platformalarda (Scopus, Web of Science) indeksləşən nüfuzlu jurnallarda məqalə nəşr etdirdikdə UNEC-i və seçmiş olduğu tədqiqat mərkəzini affilyasiya etdiyi halda UNEC Rektorunun Əmri ilə aşağıdakı qaydada mükafatlandırılır:

- Q1 (Scopus, Web of Science) - 4500 AZN
- Q2 (Scopus, Web of Science) - 3000 AZN
- Q3 (Scopus, Web of Science) – 1500 AZN

Elmi tədqiqatların nəticələrinin və metodlarının, elmi-texnoloji nailiyyətlərin ictimaiyyətə çatdırılmasında, elmi düşüncənin formalaşmasında jurnallar başlıca yer tutur.

*4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası*

UNEC-də ali təhsil müəssisələrində aparılan təsərrüfat müqaviləli elmi tədqiqat işləri, yerli və beynəlxalq qrantlar hesabına aparılan elmi-tədqiqat fəaliyyət nəticəsində əldə olunan gəlirlərin artım dinamikası 2016-2022-ci illər üzrə AZN ilə qrafikdə öz əksini tapmışdır. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası 2016-cı il üzrə 494.861 AZN, 2017-ci il üçün 43.208 AZN, 2018-ci ildə 138.529 AZN, 2019-cu ildə 0 AZN, 2020-ci ildə 564.243 AZN, 2021-ci ildə 26.498 AZN təşkil etmişdir.

| ***İllər*** | ***Artım dinamikası (AZN)*** |
|---|---|
| 2016 | 494.861 |
| 2017 | 43.208 |
| 2018 | 138.529 |
| 2019 | – |
| 2020 | 564.243 |
| 2021 | 26.498 |

*4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti*

UNEC ilə AMEA arasında birgə elmi layihələr, elmi tədqiqat işlərinin təşkili həyata keçirilməkdir. AMEA ilə birgə simpoziumlar və seminarların həyata keçirilməsi mövcud əməkdaşlıq əlaqələrinin elmi-tədqiqat sahəsində daha da genişləndirilməsinə əsaslanır.

Bundan başqa UNEC ilə xarici universitetlər, tədqiqat mərkəzləri və institutlarla imzalanan Anlaşma Memorandumu çərçivəsində birgə elmi tədqiqat, konfrans, tədqiqat seminarları və simpoziumların keçirilməsi öz əksini tapmışdır.

Elmi-tədqiqat işlərinin aparılmasına şirkətlər tərəfindən investisiya qoyuluşunun stimullaşdırılması və cəlb edilməsi məqsədilə respublikanın 7 müxtəlif elmi-təhsil müəssisəsinin – AMEA-nın Fizika İnstitutu, AMEA akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, AMEA Polimer Materialları İnstitutu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzdində Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzi, habelə Bakı Dövlət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində fəaliyyət göstərən Elmi Tədqiqat Laboratoriyaları ilə Birgə Elmi Texniki Əməkdaşlıq Haqqında Müqavilələr bağlanılıb. Bu, həmin işlərin daha yüksək səviyyədə yerinə yetirilməsinə şərait yaradır. UNEC-in ayrıca olaraq elmi-tədqiqat sahəsində əməkdaşlıq etdiyi qurumlar aşağıdakılardır:

1. ALBA Sinxrotron Elmi-Tədqiqat Laboratoriyası (İspaniya, Barselona)
2. İtaliya Milli Tədqiqatlar Şurası (CNR), “Nello Carrara” Tətbiqi Fizika İnstitutu (İtaliya, Florensiya).
3. Verona Universiteti (İtaliya, Verona).
4. Jozef Stefan İnstitutu (Sloveniya, Lyublyana).
5. Orta Doğu Texniki Universiteti (Türkiyə, Ankara)
6. Orion İstehsalat Birliyi (Rusiya, Moskva)
7. Nello Carrara Tətbiqi Fizika İnstitutu (İtaliya, Florensiya)
8. Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Rusiya, Dubna)
9. Belarusiya EA Materialşünaslıq Elmi-Praktik Mərkəzi (Belarus, Minsk)
10. Sakarya Universiteti (Türkiyə)
11. İstinye Universiteti (Türkiyə)
12. “Солнца” Fizika Texniki İnstitut (Özbəkistan, Daşkənd)

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

*4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti*

UNEC Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti (EFTİED) 1 oktyabr 2018-ci ildən təsis edilmişdir. Tərkibinə 3 şöbə daxildir: Elmi fəaliyyətin təşkili, Elmmetrika və Texnologiya transfer şöbəsi. Departamentin əsas funksiyaları:

• İqtisad elminin müxtəlif sahələri üzrə milli elm məktəblərinin yaradılması prosesinə sistemli yanaşmanın təmin olunması;

• Elm-təhsil-iqtisadiyyat üçlüyü arasında real məzmunlu inteqrativ bağlılığa nail olunması və s.

Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsi əvvəlcə UNEC struktur bölməsi kimi Elmi fəaliyyətin təşkili və idarə edilməsi Departamentinin (EFTİED) tərkibində fəaliyyət göstərib. Şöbə EFTİED direktorunun təqdimatı və UNEC Rektorunun 828/3/2018 №-li əmri ilə yaradılıb. UNEC-də fəaliyyət göstərən tədqiqat mərkəz və laboratoriyaların işinə nəzarət Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsinə tapşırılmışdır.

*4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti*

Hesabat dövründə (2016-2022) UNEC-də beynəlxalq və ümumrespublika səviyyəli elmi və elmi-praktiki konfranslar keçirilmişdir. 2016-cı ildə 7, 2017-ci ildə 10, 2018-ci ildə 9, 2019-cu ildə 11, 2020-ci ildə 9, 2021-ci ildə 10, 2022-ci ildə isə 7 beynəlxalq və ümumrespublika səviyyəli elmi və elmi-praktiki konfranslar təşkil olunmuşdur. UNEC-də elmi fəaliyyətin səmərəli təşkili, idarə edilməsi və inkişafını təmin etmək məqsədilə AR Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq AR Prezidentinin Sərəncamı və “Elm günü”nün təsis edilməsi haqqında AR Prezidentinin Sərəncamını rəhbər tutaraq 2016-cı ildən - “Ümumdünya Elm Günü” münasibəti ilə “Elm aylığı” çərçivəsində silsiləli tədbirlər keçirilir.

*4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti*

UNEC-də təşkil olunan beynəlxalq tədbirlərdə və proqramlarda Türkiyə, Polşa, Macarıstan, İspaniya, Çexiya, Slovakiya, Almaniya, İsveçrə, Rusiya və keçmiş Post-Sovet ölkələrinin nüfuzlu universitetlərindən tədqiqatçılar və professorlar cəlb olunur. Beynəlxalq tədbirlərdə iştirak edən qonaq professorlar və qonaqlar müxtəlif panel müzakirələrdə iştirak edir və məruzələr söyləyir.

*4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti*

UNEC Tələbə Elmi Cəmiyyəti tələbələrin elmi-tədqiqat və elmi-praktiki işinin təşkili və koordinasiyası üçün yaradılmış və öz fəaliyyətini alim və müəllimlərin iştirakı ilə həyata keçirən tələbə birliyidir. UNEC-də 2015-ci ildə təsis olumuş digər gənclər təşkilatı isə “İqtisadçı Tələbələrin Elmi Fəaliyyətinə Yardım” İctimai Birliyi (“İTEFY”)-dir. 2016-cı tədris ili üçün Tələbə Elmi Cəmiyyəti (TEC) tərəfindən 1, 2017-ci ildə 9, 2018-ci ildə 3, 2019-cu ildə

20, 2020-ci ildə 15, 2021-ci ildə 15 (Covid-19 pandemiyası ilə əlaqədar olaraq tədbirlər əsas etibarilə ZOOM üzərindən keçirilmişdir), 2022-ci ildə isə 25 elmi tədbir keçirilmişdir.

*4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti*

Elmi Şuranın 28 noyabr 2014-cü il 133.7 saylı "Müsabiqə əsasında universitetin vəsaitlərindən elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi (universitet daxili qrant)" adlı qərarı ilə UNEC-də qrant layihələrinin stimullaşdırılmasına start verilmişdir. Bununla əlaqədar olaraq, UNEC-də yeni "Qrant" haqqında əsasnamə qəbul edilmişdir. UNEC-də 2016-2022-ci illər üzrə UNEC-in elmi fəaliyyət haqqında hesabatına istinadən 2016-cı ildə 4, 2017-ci ildə 1, 2018-ci ildə 8, 2019-cu ildə 1, 2020-ci ildə 3, 2021-ci ildə 2, 2022-ci ildə 9 qrant lahiyəsi həyata keçirilmişdir.

*4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti*

UNEC üzrə patentlərin əldə edilməsi və səmərəli fəaliyyətini daha da gücləndirmək məqsədilə EFTİED tərkibində "Texnologiya transfer şöbəsi" yaradılmışdır. 2016-2022-ci illərdəki EFTİED illik elmi hesabatına istinadən, UNEC-də bu illər üzrə innovasiya, ixtiraçılıq və patent-lisenziya fəaliyyətində 2016-cı il 1, 2017-ci ildə 4, 2018 - ci ildə 3 patent, 2019-cu ildə 3, 2020-ci ildə 4, 2021-ci ildə 4, 2022-ci ildə 7 patent və "UNEC İQTİSADİ FORUMU BAKI" əmtəə nişanı Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində qeydiyyata alınmışdır.

*4.3.7. İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti*

UNEC "AR beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" AR Qanununa uyğun olaraq UNEC Avropa Şurasının (TASİS, TEMPUS, ERASMUS KA1, ERASMUS KA2, SOKRATES), ABŞ (Fullbright), bir sıra beynəlxalq iqtisadi təşkilatların (BMT, UNCTAD, Dünya Bankı, DTB) beynəlxalq elmi-innovasiya layihələrinin fəal iştirakçısı olmuşdur. UNEC Creative Spark (British Council), Fulbright (ABŞ) və Jean Monnet Avropa Modeli layihələrində fəal iştirak edir.

*4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti*

UNEC-də doktorantura səviyyəsi üzrə tədris proqramı və imtahanlarının təşkili qaydaları hazırlanıb. Avropa ali təhsil məkanının tələblərinə uyğun olaraq, Azərbaycanda

doktorantura təhsilinin yenidən qurulması və inkişaf etdirilməsi – “NİZAMİ” Erasmus+ layihəsi çərçivəsində birgə tədqiqat proqramlarının həyata keçirilməsi nəzərdə tutulmuşdur. UNEC Nizami layihəsi çərçivəsində doktorantura təhsil səviyyəsində tədqiqat proqramlarına doktorantların cəlbində mühüm rol oynamışdır.

*4.3.9. Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti*

1975-2022-ci illərdə Web of Science elmi nəşr platformasında UNEC-ə məxsus 755 elmi əsər indekslənmişdir. Onlara olunan ümumi istinad sayı 2848 təşkil etmişdir. 1997-2022-ci illərdə Scopus elmi nəşr platformasında UNEC-ə məxsus 703 elmi əsər indekslənmişdir. Onlara olunan ümumi istinad sayı isə 3211 təşkil etmişdir. Ümumilikdə, UNEC-ə mənsub olan Google Scholar elmi əsərlərinin h-index göstəricisi 43, i10-index göstəricisi isə 216-dır. Universitetin digər institutsional profillərindən biridə Research Gate sistemindədir. Hazırda 1292 UNEC əməkdaşının bu sistemdə Research Gate profilləri mövcuddur. Bu profillərin 67%-i UNEC elmi-pedaqoji heyətinin payına düşür. Academia.edu sistemində 1140-a yaxın nümayəndə UNEC-ə mənsubluğunu təsdiq etmişdir və bu əməkdaşların 900-ə yaxın elmi əsəri müəlliflər tərəfindən sistemə yüklənmişdir.  Hazırda UNEC elmi-pedaqoji heyəti 866 nəfərdən ibarətdir. Onların hər birinin ORCID və Web of Science (Publons) şəbəkələrində profilləri mövcuddur. Bununla yanaşı, UNEC-in nəşr fəaliyyəti elmi göstəricilərin axtarışı, təhlili və idarə edilməsi platforması olan Lens.org sistemi üzərindən araşdırılmışdır. 12 yanvar 2023-cü ilin bu baza üzrə verilənlərinə əsasən 1980-2023-cü illər aralığında bu sistemdə UNEC-ə mənsub 505 elmi əsər yer almışdır.

*4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti*

2016-cı il üzrə nəşriyyat tərəfindən 35 ədəd dərslik və dərs vəsaiti, 2017-cu il ərzində UNEC nəşriyyatı tərəfindən 3 dərslik, 16 dərs vəsaiti, 2018-ci ildə professor-müəllim heyəti tərəfindən 29 dərslik və 44 dərs vəsaiti hazırlanmışdır. 2019-cu il ərzində UNEC nəşriyyatı tərəfindən 3 dərslik, 16 dərs vəsaiti çap olunmuşdur. “Elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda  tətbiqi” adlı fəaliyyət istiqaməti üzrə 2020-ci il üçün UNEC-də 2 dərslik, 3 dərs vəsaiti, 2021-ci il ərzində UNEC nəşriyyatı tərəfindən 4 dərslik, 2 dərs vəsaiti, 2021-ci il üçün UNEC-də 4 dərslik, 2 dərs vəsaiti, 2022-ci il üçün UNEC-də 4 dərslik, 7 dərs vəsaiti nəşr olunmuşdur.

*4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti*

UNEC-in Universitetinin AR Ədliyyə Nazirliyinə 12 oktyabr 2012-ci ildə müraciəti

əsasında ***“Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri”*** jurnalı 16 noyabr 2012-ci ildə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. 2013-ci ildən azərbaycan, ingilis və rus dillərində çap edilir. Jurnal ildə 4 (dörd) dəfə çap ediləcəkdir.

***“İqtisad elmləri: nəzəriyyə və praktika”*** jurnalı UNEC-in təsisçiliyi ilə 1994-cü ildən nəşr olunur. Jurnal yarandığı gündən redaktoru Azərbaycan EA-nın müxbir üzvü, i.e.d., prof. T.C.Vəliyev olmuşdur. Hazırda jurnala universitetin rektoru prof. Ə.Muradov rəhbərlik edir. Yarımillik nəzəri və elmi-praktik səciyyəli jurnal bu aspektdə respublikada nəşr olunan yeganə jurnaldır.

***“UNEC Ekspert”*** jurnalında oxucular dünyada və ölkədə baş verən iqtisadi proseslərə ölkənin aparıcı alimlərinin münasibətini öyrənməklə yanaşı, onların təklifləri ilə də tanış olurlar. Məlumat-təhlil tutumu zəngin olan jurnalda iqtisadiyyatın müxtəlif sahələri üzrə ekspert yanaşmaları yer alıb. Beynəlxalq təcrübə geniş təhlil edilib. Jurnal ildə iki dəfə olmaqla nəfis tərtibatla nəşr olunur.

***“Azərbaycanın Vergi jurnalı”*** AR Vergilər Nazirliyinin təsisçiliyi ilə 2003-cü ildən nəşr olunur və UNEC-də hazırlanır. Jurnal azərbaycan, ingilis, rus və türk dillərində ildə 4 (dörd) dəfə çap edilir. Jurnalın “ISSN 2305-4611” (çap) və “ISSN 2305-462X” (elektron) Beynəlxalq Standart Seriya Nömrələri vardır.

UNEC-in nəzdində mühəndislik və tətbiqi elmlər üzrə ixtisaslamış və 30.06.2021-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçirilmiş (№ 4347) yeni ***“UNEC Journal of Engineering and Applied Sciences” (JEAS)*** jurnalı təsis edilmişdir. Jurnalın həm online, həm də çap versiyada dərc olunması üçün beynəlxalq seriya nömrələri (ISSN: 2790-2538 (online); 2790-234X (print) rəsmi qaydada təmin edilmişdir. Artıq 2 nömrəsi dərc olunmuşdur.

*4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası*

UNEC-in istinadetmə indeksi göstəriciləri Web of Science, Scopus və Google Scholar sistemlərindəki institusional profillərə əsasən müəyyənləşdirilməkdədir. Bu göstərici Web of Science bazasına əsasən 2016-ci ildə 2017-ci ildə 369, 2018-ci ildə 645, 2019-ci ildə 956, 2020-ci ildə 1030, 2021-ci ildə 1571, 2022-ci ildə isə 2644 təşkil etmişdir. 1997-ci ildə UNEC-ə mənsub ilk elmi məqalənin indeksləndiyi Scopus bazasında isə 2016-cı ildə 10, 2017-ci ildə 15, 2018-ci ildə 47, 2019-cu ildə 143, 2020-ci ildə 403, 2021-ci ildə 2131 və 2022-ci ildə isə 2852 olmuşdur. Google Scholar sistemində isə bu göstərici 2016-cı ildə 325, 2017-ci ildə 289, 2018-ci ildə 437, 2019-cu ildə 733, 2020-ci ildə 1108, 2021-ci ildə 1806 və 2022-ci ildə 1472 təşkil etmişdir

| İllər | Web of Science | Scopus | Google Scholar |
|---|---|---|---|
| 2016 | 207 | 10 | 325 |
| 2017 | 369 | 15 | 289 |
| 2018 | 645 | 47 | 437 |
| 2019 | 956 | 143 | 733 |
| 2020 | 1030 | 403 | 1108 |
| 2021 | 1571 | 2131 | 1806 |
| 2022 | 2644 | 2852 | 1472 |

*4.3.13. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti*

Magistratura səviyyəsi üzrə tətbiq olunan yeni standartların əsas məqsədi tədqiqat yönümlü və elmi araşdırmalar apara bilən akademik kadr yetişdirməkdir. Magistrantlara tədqiqat yönümlü fənn olaraq "Tədqiqatlar, kommunikasiya və innovasiya" və "Tədqiqat İşinin Aparılması" fənləri tədris olunur. Magistratura səviyyəsində akademik kadr, müasir, yüksək keyfiyyətli və beynəlxalq təcrübəli elmi tədqiqatçılar hazırlamaq üçün bütün ixtisaslar üzrə "Tədqiqat metodları" fənninin tədrisi beynəlxalq təhsil sisteminə inteqrasiyanı, müəllim-tələbə mübadiləsini də genişləndirəcək.

*4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti*

Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün UNEC-də təşkil olunan təlimlər haqqında məlumatlar aşağıdakı kimidir:

Elmi məqalələrin yazılması qaydaları. Təlimçi: Wadim Striełkowski, Praqa Biznes Məktəbinin Professoru - UNEC-in ümumi professor-müəllim heyətinin 12% iştirak edib. Beynəlxalq jurnallara məqalələrin göndərilməsi qaydaları - UNEC-in ümumi professor-müəllim heyətinin 12% iştirak edib. Tədqiqatların aparılmasında, elmi məqalərin yazılmasında daha çox istifadə edilən Eviews, SPSS proqramları üzrə təlim proqramı. Təlimçi: Həsrəddin Quliyev UNEC -in 22 nəfər əməkdaşı təlim proqramında iştirak etmişdir.

*4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu*

UNEC ilə Türkiyə bursları proqramı arasında əməkdaşlıq çərçivəsində 2020-ci ildə UNEC-dən 4 nəfər əməkdaş Türkiyə bursları ilə Türkiyənin nüfuzlu universitetlərində doktorantura təhsili almaq hüququ əldə etmişdir. Təqaüd proqramı çərçivəsində təhsili başa

vurduqdan sonra UNEC əməkdaşı kimi elmi fəaliyyət və tədris prosesinə töfhə verəcəkdir. Hər il doktoranturaya qəbul prosesi ilə bağlı kütləvi informasiya vasitələrində və sosail şəbəkələrdə elanlar verilir, magistraturanı bitirməkdə olan tələbələr və məzunlar arasında doktoratura təhsili barədə məlumatlar paylaşılır.

*4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti*

| ***İllər*** | ***Elmlər doktoru sayı*** | ***Professorların sayı*** |
|---|---|---|
| 2016 | 83 | 53 |
| 2017 | 85 | 53 |
| 2018 | 84 | 56 |
| 2019 | 82 | 54 |
| 2020 | 77 | 57 |
| 2021 | 71 | 55 |
| 2022 | 74 | 54 |

*4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti*

UNEC-də elmi dərəcəsi olan tədqiqatçılar 2016-cı ildə 561, 2017-ci ildə 562, 2018-ci ildə 522, 2019-cu ildə 524, 2020-ci ildə 512, 2021-ci ildə 494, 2022-ci ildə isə 510 nəfər təşkil etmişdir. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti 2016-cı ildə 63%, 2017-ci ildə 67%, 2018-ci ildə 64%, 2019-cu ildə 63%, 2020-ci ildə 63%, 2021-ci ildə 58% və 2022-ci ildə 59% olmuşdur.

| ***İllər*** | ***Elmi dərəcəsi olan tədqiqatçıların sayı*** | ***Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə nisbəti*** |
|---|---|---|
| 2016 | 561 | 63% |
| 2017 | 562 | 67% |
| 2018 | 522 | 64% |
| 2019 | 524 | 63% |
| 2020 | 512 | 63% |
| 2021 | 494 | 58% |
| 2022 | 510 | 59% |

*4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu*

"Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin və "Elmi adlar verilməsi

qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikası Prezidenti yaninda Ali Attestasiya Komissiyasinin Fəlsəfə Doktoru Və Elmlər Doktoru Elmi Dərəcəsinin Verilməsi Qaydası və Şərtlərini əsas tutaraq UNEC-də elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəfləri uyğunlaşdırılır.

*4.3.19. Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti*

UNEC-də hər il üzrə tərtib olunan illik hesabat (2016-2022-ci illər üzrə) elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti baxımından mühüm əhəmiyyət kəsb edir.

1. Kafedralar tərəfindən ilin sonunda elmi fəaliyyət haqqında hesabatın təqdim olunması
2. Dövlət büdcəli elmi-tədqiqat işlərinə dair 3 illik hesabatın təqdim olunması
3. İllik hesabat hər ilin sonuna yaxın AR Elm və Təhsil Nazirliyinə UNEC EFTİED tərəfindən hazırlanaraq, Elm üzrə Prorektor tərəfindən təqdim olunur.

*4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili*

Doktoranturada dissertasiyaların hazırlanması və müdafiəsi prosesi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə", AR Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları", Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (bundan sonra – Ali Attestasiya Komissiyası) müvafiq qərarları ilə müəyyən edilmiş tələblərə riayət edilməklə aparılır. Dissertasiyaların ilkin müzakirəsi UNEC-in ixtisaslaşmış kafedralarında, müdafiə prosesi isə UNEC-in nəzdində fəaliyyət göstərən Dissertasiya Şuralarında (ED 2.10 və FD-1.11 nömrəli) təşkil edilir.

### *4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və* tətbiqi vəziyyəti

*4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu*

Antiplagiat və akademik dürüstlük siyasəti "Plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında" UNEC Rektorunun 206/1/2016-cı il tarixli əmrinə əsasən qəbul edilmiş Qaydalar əsasında formalaşdırılır və həyata keçirilir. UNEC-də 2016-cı ildən etibarən bütün buraxılış işləri, magistr dissertasiyaları, fəlsəfə və elmlər doktoru dissertasiyaları, bütün tədris vəsaitləri, konfrans və jurnallarda nəşr edilən elmi əsərlər plagiat yoxlamasından

keçirilir. Bu Qaydalar özü də mütəmadi olaraq təkmilləşdirilir və müasir tələblərə uyğunlaşdırılır. Hazırda qüvvədə olan “Elmi plagiat hallarına qarşı mübarizə Qaydaları”na son dəyişikliklər 2022-ci ilin sentyabr ayında Elmi Şuranın qərarı ilə qəbul edilmişdir. Tələbələr, magistrantlar, doktorantlar, akademik heyət və tədqiqatçılar bu Qaydaların tələbləri ilə vaxtaşırı tanış edilir, onlar üçün elm etikası tələbləri və bu sahədə qərarların qəbul mexanizmi barədə təlimlər təşkil edilir.

*4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu*

Plagiat yoxlamalarının keçirilməsi üçün UNEC “Strikeplagiarism” şirkətinin Azərbaycandakı nümayəndəliyi olan “PLagiat PL” şirkəti ilə 17.06.2020-ci ildə (Müqavilə No 4) müqavilə bağlamışdır. Bu müqavilə ilə plagiat yoxlamalarının aparılması üçün proqram təminatı təqdim edilir. Bu proqram təminatı dünyanın 40-da çox ölkəsində geniş istifadə olunur. Hazırda qüvvədə olan müqavilə 2024-cü ilə qədər olan dövrü əhatə edir.

*4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi*

Plagiat yoxlamalarının əhatəliliyini və keyfiyyətini yüksəltmək üçün UNEC-də müdafiə edilmiş bütün buraxılış işlər, magistr dissertasiyaları, fəlsəfə və elmlər doktorluğu dissertasiyaları, bütün tədris vəsaitləri universitetini elektron bazasına daxil edilir və plagiat proqram təminatına bu bazadan istifadə edə bilməsi texniki imkanlar yaradılmışdır. Eyni zamanda, UNEC-də tətbiq edilən antiplagiat proqram təminatının məlumat bazasının genişləndirilməsi məqsədilə digər Universitetlərin, elm və təhsil müəssisələrinin elektron bazalarının əlçatanlığı da təmin edilir və bu istiqmətində işlər davam etdirilir. Yoxlamaya təqdim edilmiş işlərin ingilis, rus və türk dillərinə tərcümə edilməklə təkrar yoxlanması üçün texniki imkanların yaradılması da gündəmdə olan ən aktual məsələlərimizdən biridir.

# 5. İDARƏETMƏ SİSTEMİ

## *5.1 İdarəetmə orqanları*

*5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti*

UNEC Elmi Şurası AR-nın Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli 365 №li Qərarı ilə təsdiqlənmiş “Azərbaycan Dövlət İqtisad Universitetinin” Nizamnaməsinin 4.6-cı bəndinə və AR Elm və Təhsil Nazirliyinin 10.11.1997- ci il tarixli 792 nömrəli Əmri ilə təsdiqlənmiş “Ali təhsil müəssisəsinin Elmi Şurası” haqqında Əsasnaməyə uyğun fəaliyyət göstərir. UNEC Elmi Şurasının strukturu AR Elm və Təhsil Nazirliyinin 13.05.2019-cu il tarixli 03-11-622/15 nömrəli məktubu ilə təsdiq edilmişdir.

UNEC Elmi Şurasının 30 sentyabr 2016-cı il tarixli 147 saylı qərarı ilə 2016/2017-ci tədris ili, 14 sentyabr 2017-ci il tarixli 154 saylı qərarı ilə 2017/2018-ci tədris ili, 14 sentyabr 2018-ci il tarixli 161 saylı qərarı ilə 2018/2019-cu tədris ili, 09 oktyabr 2019-cu il tarixli 167 saylı qərarı ilə 2019/2020-ci tədris ili, 14 sentyabr 2020-ci il tarixli 173 saylı qərarı ilə 2020/2021-ci tədris ili və 24 sentyabr 2021-ci il tarixli 180 saylı qərarı ilə 2021/2022-ci tədris ili üzrə Elmi Şuranın İş Planları təsdiq edilmişdir.

Tədris Metodiki Şura (bundan sonra TMŞ) UNEC elmi şurasında təsdiqlənmiş əsasnamə əsasında fəaliyyət göstərir. Onun tərkibinə prorektorlar, dekanlar, kafedra müdirləri, elmi-metodiki strukturların rəhbərləri, müəyyən pedaqoji və elmi — metodiki iş təcrübəsinə malik olan yüksək ixtisaslı müəllim və mütəxəssislər daxil edilir. TMŞ tərkibində 3 bölmə (Tədrisin metodoloji, metodiki və təşkilati təminatı bölməsi, Tədrisin keyfiyyətinin təminatı bölməsi və Elmi-metodiki təminat bölməsi) fəaliyyət göstərməkdədir. Hər bir bölmənin vəzifələri əsasnamə əsasında tənzimlənməkdədir. TMŞ üzvlərinə hər təqvim ili üçün 20 saat, TMŞ sədr, sədr müavini və katibi üçün isə 30 saat hesabı məbləğ ödənilməsi nəzərdə tutulur. Bu şərt TMŞ əsasnaməsində öz əksini tapmışdır. TMŞ illik fəaliyyət planı hər ilin əvvəlində TMŞ-nın ilk iclasında təsdiqlənir. Əsasnamə, illik fəaliyyət planları mövcuddur.

*5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti*

Hesabat dövründə UNEC Elmi Şurasının tərkibində tələbə-rektor, TGT-nın sədri, THK-nin sədri, TEC-nin sədri, “İqtisadçı tələbələrə dəstək” İctimai birliyinin sədri təhsilalanları təmsil edərək Elmi Şuranın üzvü seçilmişlər.

UNEC Elmi Şurasının 25 dekabr 2015-ci il tarixli 142.3 saylı qərarı ilə UNEC-də “Açıq qapı” günlərinin keçirilməsi təsdiq edilmişdir. UNEC-də “Açıq qapı” günlərinin keçirilməsi haqqında unec.edu.az saytında ətraflı məlumat verilmişdir. “Açıq qapı” günlərinin keçirilməsi ilə bağlı müvafiq linkləri təqdim edirik: https://news.unec.edu.az/tags/achig-gapi-gunu

UNEC Elmi Şurasının 27 may 2015-ci il tarixli 145 saylı qərarı ilə “İctimai Nəzarət Şurası”nın yaradılması təsdiq edilmişdir. “İctimai Nəzarət Şurası”nın fəaliyyəti ilə bağlı məlumatlar unec.edu.az saytında ətraflı məlumat verilmişdir. “İctimai Nəzarət Şurası”nın fəaliyyəti ilə bağlı müvafiq linklər təqdim edirik: https://news.unec.edu.az/tags/ictimai-nezaret-shurasi

*5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti*

UNEC Elmi Şurasının 30 sentyabr 2016-cı il tarixli 147 saylı qərarı ilə 2016/2017-ci tədris ili, 14 sentyabr 2017-ci il tarixli 154 saylı qərarı ilə 2017/2018-ci tədris ili, 14 sentyabr 2018-ci il tarixli 161 saylı qərarı ilə 2018/2019-cu tədris ili, 09 oktyabr 2019-cu il tarixli 167 saylı qərarı ilə 2019/2020-ci tədris ili, 14 sentyabr 2020-ci il tarixli 173 saylı qərarı ilə 2020/2021-ci tədris ili və 24 sentyabr 2021-ci il tarixli 180 saylı qərarı ilə 2021/2022-ci tədris ili üzrə təsdiq edilmiş İş Planları nəzərdə tutulmuş məsələlərlə bağlı müvafiq müzakirə edilmişdir.

TMŞ-nın iclasları TMŞ əsasnaməsinin 4.12-ci maddəsinə əsasən bir təqvim ilində 4 dəfədən az olmayaraq çağırılır. Növbədənkənar iclaslar Şuranın rəhbərliyinin və ya onun üzvlərinin ən azı ½ -nin təklifi ilə çağırıla bilər.

*5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti*

Elmi Şuranın gündəliyi müvafiq tədris ili üzrə təsdiq edilmiş iş planına uyğun olaraq hazırlanır. Elmi Şuranın gündəliyindəki məsələlər üzrə məruzəçilər öncədən müəyyən edilmiş reqlamentə uyğun olaraq çıxış edir və Elmi Şuranın sədri tərəfindən məruzə ilə bağlı təkliflərin, müzakirələrin aparılması üçün Elmi Şura üzvlərinə müraciət olunur. Sonda müzakirəyə təqdim olunmuş məsələ Elmi Şura üvzlərinin səs çoxluğu ilə təsdiq olunduqdan sonra müvafiq məsələ barəsində qərar qəbul edilir. Elmi Şurada müzakirəyə çıxarılan, lakin müvafiq qaydada təsdiq olunmayan məsələlərin təkmilləşdirilməklə növbəti Elmi Şurada müzakirəyə çıxarılması barədə qərar qəbul olunur.

UNEC Elmi Şurasının bütün qərarları təsdiq olunduqdan sonra prosedur adrıcıllıq üzrə DocNet elektron sənədləşmə sistemi vasitəsilə aidiyyəti struktur rəhbərlərinə təqdim olunur, müvafiq qaydada əmrlə rəsmiləşdirilir və icraya yönəldilir.

*5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti*

UNEC Elmi Şurasının qərarları UNEC Elmi Şurası AR Elm və Təhsil Nazirliyinin 10.11.1997- ci il tarixli 792 nömrəli Əmri ilə təsdiqlənmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası" haqqında Əsasnaməsinə, "Təhsil haqqında" AR-in Qanununa, UNEC AR-nın Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli 365№li Qərarı ilə təsdiqlənmiş "Azərbaycan Dövlət İqtisad Universitetinin" Nizamnaməsinə, AR Elm və Təhsil Nazirliyinin müvafiq əmr və qərarlarına, o cümlədən ölkənin digər normativ-hüquqi aktlarına uyğun şəkildə qəbul olunur, qərarlar dərhal struktur rəhbərlərə təqdim olunaraq icra edilir.

2015-2016-cı tədris ilindən başlayaraq UNEC-də sənəd dövriyyəsi DocNet elektron sənəd dövriyyəsi sistemi vasitəsilə həyata keçirilir. Elmi Şuranın gündəliyi və müzakirəyə çıxarılacaq bütün məsələlər UNEC Elmi Şura üzvlərinin korporativ e-mail ünvanlarına göndərilirdi, 2020-ci ilin sentyabr ayından isə müvafiq məsələlər Elmi Şura DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə təqdim olunur.

TMŞ öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərinə va kollegiya qərarlarına, təlimat və göstərişlərinə, eləcə də universitetin Nizamnaməsinə, Elmi Şurasının qərarlarına və rektorun əmrlərinə əsaslanır.

*5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti*

UNEC-də idarəetmə orqanları arasında qarşılıqlı əlaqə və kommunikasiya DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə ilə tənzimlənir.

*5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli 365№li Qərarı ilə təsdiqlənmiş "Azərbaycan Dövlət İqtisad Universitetinin" Nizamnaməsinin 4.6-cı bəndinə uyğun olaraq "UNEC-in ali idarəetmə orqanı Elmi Şuradır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi müvafiq əsasnamə və bu nizamnamə ilə müəyyən olunur".

İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü "UNEC prorektorlarının vəzifə bölgüsü haqqında" 27.12.2019-cu il tarixli 259/1/2019 nömrəli və 14.12.2022-ci il tarixli 285/1/2022 nömrəli əmrləri ilə həyata keçirilir.

*5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti*

UNEC Elmi Şurasının 28 oktyabr 2022-cı il tarixli 184 saylı qərarı ilə UNEC Elmi katibinin 2021-2022-ci tədris ili üzrə Elmi Şura qərarlarının icrası haqqında məruzəsi dinlənilmiş və qənaətbəxş hesab edilmişdir.

TMŞ-də fəaliyyət göstərən Tədrisin metodoloji, metodiki və təşkilati təminatı bölməsi, tədrisin keyfiyyətinin təminatı bölməsi və elmi-metodiki təminat bölmələri ildə bir dəfə hesabat verirlər.

*5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti*

UNEC Elmi Şurasının fəaliyyəti, davamlı təkmilləşdirilməsi vəziyyəti AR Elm və Təhsil Nazirliyinin 10.11.1997- ci il tarixli 792 nömrəli Əmri ilə təsdiqlənmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası" haqqında Əsasnaməsi ilə tənzimlənir.

TMŞ bölmələrinin şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi məqsədilə üç ildən bir TMŞ və bölmələrinin tərkibi yenilənir. Bu qərar TMŞ-nın əsasnaməsi ilə tənzimlənir.

## *5.2 İnsan resurslarının idarə edilməsi*

*5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti*

Akademik heyətin işə qəbulu, "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə və elan olunmuş gənc müəllim layihələri və ingilis dili müəllimləri üçün aparılan müsahibə vasitəsilə, qeyri-akademik heyətin isə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə universitet tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

*5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması*

Akademik və inzibati heyət UNEC-in Elmi Şurasının 06.12.2018-ci il tarixli 162 saylı Qərarı ilə təsdiq edilmiş "UNEC-100 İnkişaf strategiyasının "Resurslar" bölməsində nəzərdə tutumuş strateji inkişaf proqramına və maliyyə resurslarına uyğundur.

*5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması*

Hər il ştat cədvəli hazırlanarkən işçilərin səlahiyyət həcmi, məsuliyyət dərəcəsi, peşəkarlıq səviyyəsi nəzərə alınır. Eyni zamanda UNEC Elmi Şurasının Qərarı ilə təsis edilmiş ixtisas və proqram rəhbərlinin vəzifə maaşlarına 11.10.2017-ci il tarixli 790/3/2017 №-li, 27.04.2018-ci il tarixli 323/3/2018 №-li və 27.09.2022-ci il tarixli 799/3/2022 №-li əmrlər ilə əlavələr müəyyən edilmişdir. Elmi Şuranın 26.05.2017-ci il tarixli EŞ-152 №-li Qərarına və UNEC-in 10.07.2017-ci il tarixli 438/3/2017 №-li və 16.05.2018-ci il tarixli 366/3/2018 №-li əmrlərinə əsasən xarici dildə tədris aparan fakültələrin tabeliyindəki kafedralarda və magistratura səviyyəsində dərs aparan akademik heyətinin vəzifə maaşları artırılır.

*5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması*

UNEC-də işçilərin aşağıdakı motivasiya və mükafatlandırılma sistemləri mövcuddur:

- UNEC-in 14.10.2015-ci il tarixli 80/1/2015 №-li əmri ilə 2015/2016-cı tədris ilindən professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı Sistemi;
- UNEC-in 26.09.2022-ci il tarixli 798/3/2022 №-li əmri ilə inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı sistemi;
- UNEC-in Elmi Şurasının 24.11.2017-ci il tarixli EŞ-155 №-li qərarı ilə təsdiq edilmiş nüfuzlu elmi nəşrlərdə əsərləri dərc olunan UNEC əməkdaşlarının mükafatlandırılması, 03.12.2020-ci il tarixli 591/3/2020 №-li əmri ilə tətbiq edilən UNEC-də ingilis dili üzrə bilik səviyyəsi beynəlxalq sertifikatlarla təsdiqlənmiş İngilis dili müəllimlərinin vəzifə maaşlarının C1 səviyyəsi üzrə 15%, C2 səviyyəsi üzrə isə 30% artırılması;
- 03.11.2022-ci il tarixli 935/3/2022 №-li əmri ilə təsdiq edilmiş İELTS və APTİS test imtahan nəticələrinə vəzifə maaşlarına əlavələrin müəyyən edilməsi;
- UNEC-in 24.06.2022-ci il tarixli 437/3/2022 №-li əmri ilə təsdiq edilmiş "İlin gənc müəllimi" mükafatı;
- Elmi Şuranın 31.05.2022-ci il tarixli EŞ-183№-li Qərarı ilə təsdiq edilmiş "Nobel mükafatı laureatı Aziz Sancar adına" tədqiqat mükafatı.

*5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti*

UNEC-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi struktur rəhbərləri tərəfindən, habelə UNEC-in 14.10.2015-ci il tarixli 80/1/2015 №-li əmri ilə 2015/2016-cı tədris ilindən professor-müəllim heyətinin və 26.09.2022-ci il tarixli 798/3/2022 №-li əmri ilə isə inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı sistemi vasitəsilə aparılır.

*5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti*

UNEC-in 13.02.2017-ci il tarixli, 13/2/2017 №-li, 05.02.2018-ci il tarixli 13/2/2018 №-li, 08.02.2019-cu il tarixli 14/2/2019 №-li və s. əmrləri ilə işçilər ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb ediliblər. Yeni ixtisasların yaranması ilə əlaqədar, professor-müəllim heyətin fənlərin tədrisi üzrə təlimlərə cəlb edilmişlər. 2022-ci il 5 sentyabr-19 noyabr tarixlərində professor-müəllim və inzibati heyəti üçün həyata keçirilmiş "Yumşaq bacarıqlar" (Soft Skills) təlimlərində 300 nəfər akademik heyət, 197 nəfər isə inzibati heyət iştirak etmişdir.

*5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti*

Universitet səviyyəsində və Həmkarlar İttifaqı Komitəsi tərəfindən, habelə struktur bölmələrdə işçilər üçün Milli və Dövlət Bayramları münasibəti və yubileylərlə bağlı tədbirlər, habelə rayonlara ekskursiyalar və s. sosial-mədəni tədbirlər təşkil edilir.

*5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti*

Struktur bölmə rəhbərləri istisna olmaqla qeyri-akademik heyətin işə qəbulu prosesi "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə universitet tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

*5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti*

Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirməsi bu ildən UNEC-in 26.09.2022-ci il tarixli 798/3/2022 №-li əmri ilə tətbiq edilən UNEC inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan diferensial əməkhaqqı sisteminə əsasən aparılacaq.

*5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti*

Əmək münasibətlərinin bağlanması və xitam verilməsi Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə uyğun aparılır.

## *5.3 Maliyyə resurslarının idarə edilməsi*

*5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu*

UNEC-in maliyyə resursları Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli 365 nömrəli Qərarı ilə təsdiq olunmuş “Azərbaycan Dövlət İqtisad Universiteti” PHŞ-nin Nizamnaməsinə uyğun olaraq ödənişli təhsildən əldə edilən vəsaitdən, qrantlardan, elmi tədqiqat işlərindən, SABAH qruplarının fəaliyyəti, dövlət hesabına təhsil alanlara görə və təqaüdlərin ödənilməsi üçün dövlət büdcəsindən maliyyələşmələr və qanunla qadağan olunmayan digər mənbələrdən formalaşmışdır.

*5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi*

Gəlir və xərclərin 1 və 3 illik planlaşdırılması aparılır.

*5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəsissənin SİP-ə uyğunlaşdırılması vəziyyəti.*

Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi zamanı SİP-də nəzərdə tutulan tədbirlər üzrə hədəflər diqqətdə saxlanılır və müvafiq uyğunlaşdırma aparılır.

*5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti*

Elmi-tədqiqt işlərinə görə ödənişli xidmət, təlimlər, rəqəmsal nəşriyyat işləri, qrantlar, əcnəbi təhsilalanların cəlbi və təkrar ali təhsilə tələbə qəbulunun genişləndirilməsi hesabına əlavə maliyyə resurslarının cəlbi imkanları var və bu istiqamətdə mütəmadi olaraq müvafiq işlər görülür.

*5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi*

Əldə olunan maliyyə resursları Azərbaycan Respublikasının “Təhsil haqqında”, “Elm haqqında”, “Publik hüquqi şəxslər haqqında” qanunlarına və UNEC-in Nizamnaməsinə uyğundur.

*5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu*

UNEC-də maliyyə resurslarından istıfadə Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Elm haqqında" qanunlarında nəzərdə tutulmuş qaydada və UNEC nizamnaməsinə əsasən təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna yönəldilir.

*5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu*

UNEC-in illik xərclər smetası onun nizamnaməsinin 4.12.5 bəndinə əsasən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla rektor tərəfindən təsdiq edilir.

*5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi*

Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə UNEC rəhbərliyi tərəfindən mütəmadi nəzarət həyata keçirilir.

*5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

Azərbaycan Dövlət İqtidsad Universitetində malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir. Bununla əlaqədar Tender komissiyası fəaliyyət göstərir.

*5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

UNEC "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və aidiyyəti üzrə təqdim edir.

*5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti*

UNEC "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları, Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq "Vahid rüblük hesabat"ı, "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni və "ƏDV-nin məqsədləri

üçün qeydiyyata alınmayan şəxslər tərəfindən qeyri-rezidentə ödənilmiş məbləğə hesablanmış əlavə dəyər vergisinin bəyənnaməsi”ni elektron qaydada tərtib və təqdim edir. Həmçinin UNEC-in fəaliyyətinə dair illik maliyyə hesabatları Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim edilir.

*5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti*

UNEC illik maliyyə hesabatlarını “unec.edu.az” saytında dərc edir.

*5.3.13 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu*

2014-cü ildə UNEC-də Daxili audit şöbəsi yaradılmışdır. Daxili audit şöbəsi tərəfindən mütəmadi monitorinq və nəzarət tədbirləri görülür.

*5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu*

Kənar audit və nəzarət tədbirləri həyata keçirilir.

*5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti*

Müxəlif ödənişli təlimlərin təşkili, elmi-tədqiqat işləri, rəqəmsal nəşriyyat işləri, qrant layihələrində iştirak, əcnəbi təhsilalanların cəlbi və təkrar ali təhsilə tələbə qəbulunun genişləndirilməsi ilə bağlı mütəmadi tədbirlər həyata keçirilir. Sərbəst maliyyə vəsaitlərindən səmərəli istifadə etməklə UNEC 2018-2021-ci illər ərzində ümumilikdə 2,55 milyon manat xalis gəlir əldə etmişdir.

### *5.4 İnformasiya idarəetmə sistemi*

*5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu*

Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının müvafiq bəndlərinin təmin edilməsi məqsədilə UNEC rektorunun 67/1/2015 sayı 16 sentyabr 2015-ci il tarixli “Elektron Universitet sisteminin” tətbiqi haqqında əmrinə əsasən EDUMAN sisteminin tətbiqi ilə bağlı komissiya yaradılmışdır. Komissiyanın fəaliyyəti nəticəsində 2015-ci il tarixindən etibarən 9 fakültə, 3 mərkəz və 1 departamentdə EDUMAN, EXAM sistemlərinin tətbiqinə başlanılmışdır.

2016-cı ildə əlavə olaraq EDUMAN sistemində 5 modul (transkript, apellyasiya, tədris materialları, elektron jurnallara baxış, yazılı imtahanların nəticələrinin sistemə daxil edilməsi) istifadəyə verilmişdir. 2017-ci ildə yenidən 6 modul (sualların tələbə kabinetinə göndərilməsi, təqaüd, sərbəst işlər, hesabatlar, tələbə hərəkəti və yay məktəbi) istifadəyə verilmişdir. 2019-cu ildə Bir pəncərə modulu, distant təhsilin elektron idarə edilməsi modulu istifadəyə verilmiş,eyni zamanda dərs cədvəli modulu təkmilləşdirilmiş, FTP modulunun texniki tapşırığı təsdiqlənmişdir. 2019-cu ildə yaradılmış modullara texniki dəstəyin aparılması məqsədilə saathesabı müqavilə bağlanmışdır. Həmin ildə modul dərslərin təşkil edilməsi üçün yeni dərs cədvəli üzrə müqavilə təsdiqlənmiş, EXAM təkmilləşdirmə müqaviləsi hazırlanmışdır. 2020-ci ildən etibarən isə sənəd qəbulunun elektronlaşdırılması prosesi həyata keçirilmiş və sənəd qəbulu modulu istifadəyə verilmişdir. 2021-ci ildə kommunikasiya modulu üzrə texniki tapşırıq hazırlanaraq təsdiq edilmiş, tələbə və müəllim kabinetlərinin isə Zoom platformasina inteqrasiyası təmin edilmişdir. D/Y-7045/2020 saylı xidməti məlumatla EDUMAN sisteminin təkmilləşdirilməsinə dair təkliflərə əsasən FTP/Tədris yükü modulu üzrə texniki tapşırıq hazırlanmış və 2022-ci ildə texniki tapşırıq təsdiq olunmuşdur.

Bundan əlavə "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" "Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 14 iyul 569 nömrəli Fərmanı ilə dəyişikliklər və əlavələrə əsasən UNEC-də 1 may 2015-ci il tarixindən etibarən kargüzarlıq işlərinin DocNet elektron sənəd dövriyyəsi sistemi vasitəsilə aparılmasına başlanmışdır.

"Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi Dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair təlimat"ın 18-ci bəndinə əsasən DocNet elektron sənəd dövriyyəsi sistemi hazırlanmış və UNEC-də tətbiq olunur.

Kargüzarlığın aparılması ilə bağlı DocNet Elekton Sənəd Dövriyyəsi Sisteminin Sənəd reysterində Elekton Sənəd Dövriyyəsi Sistemi istifadəçi təlimatı və video təlimat formatında yerləşdirilmişdir, eləcə də, Ümumi şöbə tərəfindən mütəmadi olaraq, DocNet ESDS-dən istifadə qaydaları haqqında təlimlər keçirilir.

*5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti*

UNEC-də İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliliyi və funksionallığı aşağıdakı kimidir:

EDUMAN:

dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya.

EXAM modulu:

imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apellyasiyanın təşkili, təqaüdün müəyyən olunması.

Bir pəncərə modulu:

tələbə, məzun və əməkdaşların günün 24 saatı, həftənin 7 günü müxtəlif tipli arayışların imza və möhürlə təsdiq olunmuş, QR kodla, PDF formatında əldə olunması.

UNEC tədris binalarına giriş-çıxışı təmin edən turniket modulu:

Giriş-çıxış zamanı müxtəlif yoxlamaların aparılması ilə əməkhaqlarının hazırlanması.

Qeyd olunan modullar üzrə mütəmadi olaraq təkmilləşdirmə işləri tərəfdaş şirkət tərəfindən yaradılmış müvafiq proqrama əlavələr olunmaqla dəstək müqaviləsi çərçivəsində aparılır. Eyni zamanda məlumatların yenilənməsi məqsədi ilə müxtəlif inteqrasiya prosesləri həyata keçirilir.

DocNet Elekton Sənəd Dövriyyəsi Sistemi:

- Daxil olan – kənar təşkilatlardan daxil olan sənədlərin reysteri;
- Vətəndaş müraciətləri – İşçilər, tələbələr, vətəndaş müraciətlərinin reysteri;
- Daxili sənədlər – daxili sənədlər reyestri: xidməti məktublar, əmr, sərəncam və ərizələr;
- Çıxış sənədlər – təşkilatdan çıxan sənədlər reysteri;
- DDXM - dərkənarın dəyişdirilməsi haqqında xidməti məruzələr;
- Sənədlərin razılaşdırılması – razılaşdırmaya daxil olan tapşırıqlar reysteri;
- Sənədlərin icrası – sənədlərin icrasına, icraya daxil olan tapşırıqlar reysteri;
- Axtarış – məlumatların axtarışını həyata keçirmək üçün nəzərdə tutulub;
- Sorğu kitabçaları – İcraçı şablonları, razılaşdırma marşrutlarının şablonları, dərkənar şablonları, dərkənar mətnlərinin şablonları, tanışolma şablonları, yarlıqlar.

Yuxarıda qeyd olunan Menyular DocNet Elekton Sənəd Dövriyyəsi Sistemində Sənəd reysterini təşkil edir. DocNet ESDS-in funksionallığının təkmilləşdirilməsi ilə bağlı müntəzəm olaraq, UNEC-də tətbiq olan DocNet ESDS-in yenilənməsi təmin edilir.

*5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu*

EDUMAN elektron idarəetmə sistemi vasitəsilə səlahiyyətlərin bölgüsü idarəetmə strukturuna uyğun olaraq aparılmışdır. Belə ki, dərs cədvəli, fənn üzrə qrup bölməsi, laboratoriya bölməsi, tələbə, məzun bölməsi dekanlıqlara, fənn kataloqu, təqvim tematik plan

bölmələri kafedralara təhkim edilmiş, dekanlıq və kafedraların adı çəkilən bölmələr üzrə keyfiyyətli fəaliyyətinin təmin edilməsi, eyni zamanda EDUMAN sistemindəki digər funksiyalar isə UNEC EXTERN mərkəzinə həvalə edilmişdir. Bəzi şöbə və mərkəzlərə isə tələbə və məzun menularına yalnız baxış imkanları təmin edilmişdir.

İmtahanların təşkili məqsədilə yaradılmış EXAM sistemində də səlahiyyətlərin bölgüsü idarəetmə strukturuna uyğun olaraq aparılmışdır. Belə ki, imtahan qeydiyyatının yaradılması dekanlıqlara, sualların göndərilməsi (məxfi suallar istisna) imtahan mərkəzinə, sualların yaradılması və təsdiqi kafedraya həvalə edilmişdir.

Müxtəlif növ arayışların əldə olunması məqsədilə yaradılmış Bir pəncərə sistemində də səlahiyyətlərin bölgüsü idarəetmə strukturuna uyğun olaraq aparılmışdır. Belə ki, təqaüd və təhsil haqları haqqında arayışlar Maliyyə Təminat Departamenti, Arayış-çağırış və transkriptlərin hazırlanması dekanlıqlar, məzun olması və təhsil alması haqqında aryışların hazırlanması və bütün arayışların təsdiqi Tələbə İşləri üzrə İş Mərkəzinə həvalə edilmişdir.

*5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti*

Universitetə qəbuldan etibarən tələbələrin bütün tədris fəaliyyətləri elektronlaşdırılmışdır. Tələbələrin sənəd qəbulu UNEC-də mövcud olan senedqebulu.unec.edu.az saytı vasitəsilə aparılır. Qəbul zamanı sənədlərin elektron versiyası sistemə daxil edildikdən sonra tələbələrin müraciəti təsdiq olunur. Müraciəti təsdiq olunmuş tələbələrə avtomatik olaraq kabinet açılır. Kabinetin istifadəçi adı və şifrəsi qəbul prosesində tələbəyə təqdim edilir.

Semestrlik elektron dərs cədvəli, fənn üzrə qrupların formalaşdırılması bölməsi, tədris olunacaq fənlər fənn kataloqu, fənlər üzrə tədris materialları müəllim kabinetində olan tədris materialları bölməsilə, tələbənin dərsdə iştiraki və fəaliyyəti elektron jurnal bölməsi vasitəsilə, təhsil prosesinin sonunda tələbənin semestrlik qitmətləndirilməsi isə EXAM modulu vasitəsilə elektronlaşdırılmışdır.

UNEC-in 2015-ci ildən etibarən elektronlaşdırılmağa başlamasıyla birlikdə demək olar ki, bütün tədris prosesinin elektronlaşması 2019-cu il etibarilə daha da effektiv hala gətirilmişdir. Pandemiya ərəfəsində bütün dərslərin elektronlaşdırılması təmin edilmiş, pandemiyadan sonra isə qeyri ixtisas fənləri online formada, bəzi ixtisas fənləri isə hibrid formada təşkil edilməkdədir. Tələbələrin elektron sistemə əlçatanlılığının təmin edilməsi üçün tələbə kabinetlərindən link vasitəsilə dərslərə qoşulması asanlaşdırılmışdır. Bundan əlavə dövlət qurumları tərəfindən müəyyən edilmiş tələbləri qarşılamaq məqsədilə tədris binalarına quraşdırılmış giriş-çıxış sistemi vasitəsilə aparılır. Bu da öz növbəsində əmək

haqlarının hesablanması zamanı istifadə olunan müvafiq sistemə inteqrasiya olunur. Bundan əlavə turniketin tələbələrin elektron jurnallarına da müvafiq qaydada inteqrasiyası təmin edilmişdir.

*5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi*

İnformasiya idarəetmə sisteminə əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsi ilə təmin edilir. Belə ki, tələbələr daim cədvəllərinə, onlayn və ya hibrid dərslərin linklərinə, həmin dərslərin video yazısına, dinlədiyi fənlər üzrə müəllimlər tərəfindən yüklənmiş tədris materiallarına, tədris zamanı müəllimlər tərəfindən verilmiş tapşırıqlara baxış imkanı və həmin tapşırıqların vaxtında müəllimə təqdim edilmə imkanı, müəllim, kommunikasiya modulu vasitəsilə tələbə və ya əməkdaşlarla rahat ünsiyyətə girmə imkanı, akademik fəaliyyətinin sistem tərəfindən qiymətləndirilməsinə daimi baxma imkanı, tələbələr tərəfindən müəllimlərin qiymətləndirməsi sorğusunda iştirak imkanı, UNEC və ya ölkə daxili, həmçinin beynəlxalq tədbirlər barədə elanlara çıxış imkanı təmin edilir. Həmçinin tələbələrin UNEC-ə gəlmədən müvafiq arayış və transkriptlərin “Bir Pəncərə” vasitəsi ilə əldə etmə imkanı da mövcuddur. UNEC-in rəsmi saytı olan unec.edu.az saytı və onun tətbiqi vasitəsilə kabinetlərə rahat keçid imkanları da yaradılmışdır. Yaradılmış bütün imkanlar tələbələr tərəfindən hazırda istifadədədir.

DocNet Elekton Sənəd Dövriyyəsi Sistemində UNEC-in bütün struktur bölmələri üzrə 300-ə yaxın əməkdaş təmsil olunmaqla yanaşı, tələbələrin DocNet Elekton Sənəd Dövriyyəsi Sisteminə əlçatanlığı tələbə-rektor və THİK-in sədrinin ESDS-dən istifadəsi vasitəsilə təmin edilir.

*5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi*

Avropa keyfiyyət standartı təlimatları (ESG 2015) və qaydalarına əsasən UNEC daxili keyfiyyət təminatı sisteminin tələbəyönümlü olması nəzərə alınaraq qurulmuş informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi üçün tələbə və müəllim kabinetləri yaradılmışdır. Kabinetlər vasitəsilə xəbər və elanlar, tədris materialları daim əlçatanlığı təmin edilmişdir. Bundan əlavə tələbənin imtahan nəticəsi ilə tanışlığı və nəticədən narazı qaldığı halda dərhal müvafiq komissiyaya müraciət etməsi üçün müvafiq imkan yaradılmışdır. Müvəffəqiyyətinin ölçülməsi üçün qaydalara uyğun olaraq ÜOMG-nin avtomatik hesablanması və ona nəzarət etmə imkanı mövcuddur. Həmçinin yaradılmış Bir Pəncərə vasitəsilə tələb olunan yerə lazımi sənədin hazırlanması üçün günün istənilən saatında müvafiq müraciətin olunma imkanı tələbələrə təqdim

edilmişdir. Eyni zamanda onlayn dərslər üçün yaradılmış imkan vasitəsilə dərsi yenidən dinləmə imkanının təmin edilməsi üçün video yazılara baxış imkanı da yaradılmışdır. İnformasiya idarəetmə sistemi Tələbə performansının qiymətləndirilməsi üçün Exam sistemi, Tələbə məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə məmnunluq sistemində müvafiq sorğular keçirilir. Dövrü olaraq müvafiq hesabatların aparılması üçün informasiyaların daimi əlçatanlığı keyfiyyətin idarə olunmasına yaradılmış sistemin imkanları öz töhfəsini verir.

UNEC-də daxili keyfiyyət təminatı sisteminin icrası ilə bağlı PİNT (Planla, icra et, nəzarət və tətbiq et) sisteminin real tətbiqi işlək DocNet ESDS vasitəsilə həyata keçirilir. Belə ki, layihə və proseslərin sənəd formasında planlanması, təsdiqi, icrası (Viza, imza, dərkənar, marşrut və s. funksiyalar) və icra prosesində nəzərə alınan çatışmazlıqların nəzərə alınması prosesi şəffaf şəkildə sənəd dövriyyəsi sisteminin elektron idarə edilməsi platforması üzərindən icra edilir.

*5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi*

UNEC-i seçmiş tələbələrin siyahısının və lazimi məlumatlarının DİM-dən EDUMAN-a inteqrasiyası mövcuddur. Bundan əlavə COVİD məlumatlarını yoxlamaqla tədris binalarına girişin təmin edilməsi məqsədilə UNEC və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sistemləri arasında inteqrasiya mövcuddur. Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi ilə UNEC sistemi arasında inteqrasiya olunması üçün müraciət edilsə də hazırda o imkanın mövcud olmaması bildirilmişdir.

*5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti*

EDUMAN və EXAM daxili şəbəkə sistemində informasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin etmək məqsədilə ilk növbədə müəllim və tələbə kabinetlərinin şifrələnməsi prosesi həyata keçirilmişdir ki, bu şifrələrin sistem adminləri tərəfindən görülməsinin qarşısı alınmışdır. Şifrələrin unudulması zamanı isə tamamilə yeniləmə həyata keçirilərək yeni şifrə təmin edilməkdədir. Yalnız daxili şəbəkə vasitəsilə EDUMAN və EXAM sistemlərinə giriş mümkündür.

DocNet Elekton Sənəd Dövriyyəsi Sistemindəki bütün informasiyalar bir serverdə qorunmaqla, yalnız daxili şəbəkədən sistemə giriş hər istifadəçinin öz login və məxfi şifrəsi ilə təmin edilir. DocNet ESDS-in etibarlılığı istifadəçilərin sertifikatlaşdırılmış imzaları ilə təsdiq edilir.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə mütəmadi olaraq tərəfdaş şirkət tərəfindən mövcud informasiya sistemlərinin məlumatlarının ehtiyat nüsxəsi (backup) çıxarılır.

Bundan əlavə 2021-ci ildə 2, 2022-ci ildə 31 sayda sistem resursları Hökumət Buludunda yer almışdır:

UNEC İqtisadi forumunun, İnnovativ biznes inkubatorun, UNEC Virtual əmək birjasının, UNEC Kitabxanasının, Ömürboyu təhsil mərkəzinin, UNEC xəbərlərinin, fakültələrin (16 ədəd) və UNEC-in rəsmi saytı, Bir Pəncərə sistemi, Tələbənin şəxsi kabinetinə giriş sistemi, Tələbə təşkilatlarına seçki platforması, Biznes və menecment, Maliyyə və mühasibat, İqtisadiyyat və idarəetmə və Türk dünyası iqtisad fakültəsinin qarşısında yerləşdirilmiş monitor məlumatları.

Şəbəkə və server təhlükəsizliyinin təmin edilməsi ilə bağlı 2021-ci ildə 3, 2022-ci ildə 3 sayda işlər görülmüşdür. VPN sistemi, DHP sistemi, Domen kontroller, NAC sisteminin qurulması (şəbəkyə qoşulan avadanlıqların idarəolunması) həyata keçirilmişdir.

Proqram təminatının təhlükəsizliyi ilə bağlı görülən tədbirlər: Firewall sistemi, İstifədəçilər tərəfindən Tələbə və müəllim kabinetlərində web səhifə elementlərinə girişin bloklaşdırılması, Logların təhlili sistemi, Daxili serverdəki web resurlar üçün FAW

### *5.5 İctimaiyyətlə əlaqələr*

*5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti*

Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi saytı asue.edu.az domeni ilə 2010-cu ildə fəaliyyətə başlamışdır. 2015-ci ilin may ayında isə sayt yenilənərək, universitetin UNEC brendinə uyğunlaşdırılmış və unec.edu.az domeni ilə fəalliyyətini davam etdirmişdir. unec.edu.az saytı ilə yanaşı, 2018-ci ildə universitetin news.unec.edu.az domeni ilə UNECNews adlı xəbər saytı da yaradıldı. Saytın yaradılmasının məqsədi universitetdə baş verən bütün yenilikləri ictimaiyyətə operativ şəkildə çatdırmaq olub. Burada UNEC-dəki yeniliklərlə yanaşı, universitetin peşəkar ekspertlərinin rəyləri, tələbə, məzun və abituriyentlərə yönəlik layihələr, uğur hekayələri, müsahibələr və digər mövzuları əhatə edən məlumatlar, eləcə də müxtəlif məzmunlu elanlar yer alır. unec.edu.az saytında rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, filiallar, tədris binaları, akademik heyət və digər istiqamətlər üzrə məlumatlar əks olunub.

*5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti*

unec.edu.az saytındakı məlumatlar həmin saytdakı bölmələr üzrə hər hansı dəyişiklik baş verdikdə yenilənir. Sayta mütəmadi olaraq yeni məlumatlar verilir. news.unec.edu.az saytı isə xəbər portalı olduğu üçün orada gündəlik olaraq yeni məlumatlar yerləşdirilir.

*5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti*

UNEC barədə məlumatlar universitetin saytı ilə yanaşı, rəsmi sosial şəbəkələrimizdə - Facebook, İnstaqram, Teleqram, Youtube, Twitterdə paylaşılır. Eləcə də fakültə, inzibati struktur və tələbə təşkilatlarının sosial şəbəkələrində də paylaşılaraq geniş ictimaiyyətə çatdırılır. Eyni zamanda əməkdaşlıq etdiyimiz KİV-də işıqlandırılır.

DocNet ESDS-in Sənəd reysterinin Çıxış sənədlər menyusundan məktubların hazırlanması, poçt, e-poçt, sürətli poçt, korporativ e-mail vasitəsilə Ümumi şöbə tərəfindən ictimaiyyətin məlumatlandırılması həyata keçirilir.

*5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti*

Fəaliyyət planı illik olaraq hazırlanır və yenilənir, fəaliyyətlər həmin istiqamətdə aparılır.

*5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanı verməsi vəziyyəti*

Hədəf auditoriya və maraqlı tərəflər (abituriyentlər, valideynlər, məzunlar, işə qəbul olmaq istəyənlər və s.) universitetdə tətbiq olunan yenilikləri rəsmi saytımızdan, KİV-dən, sosial şəbəkələrdən mütəmadi olaraq izlədiklərini bildirirlər. UNEC-lə bağlı məlumat tərəfimizdən paylaşıldıqdan sonra hər hansı sualı, təklifi, iradı olanlar, Qaynar Xətt, eləcə də müvafiq struktur bölməsi ilə əlaqə saxlayaraq və rəsmi sosial şəbəkələrimizə yazaraq ətraflı məlumat əldə edirlər.

*5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti*

Məlumatlar paylaşıldıqdan sonra daxili elektron resurslar hesabına monitorinq aparılır. Eləcə də UNEC Tədqiqat Fondu tərəfindən həftəlik olaraq, ATM barədə çıxan xəbərlərin monitorinqinin hesabatı rektorun və İctimaiyyətlə əlaqələr şöbəsinin emalinə göndərilir.

# 6. İNFRASTRUKTUR

## *6.1 Tədris infrastrukturu*

*6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti*

Tədris binaları və tədris otaqları dövlət standartlarına uyğundur.

*6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti*

UNEC-də UNEC Kitabxana informasiya mərkəzi mövcuddur. Mərkəzin tərkibində Depozitar fond, Əsaslı kitabxana, Kataloqlaşdırma, kitabişləmə və biblioqrafiya şöbəsi, Xidmət şöbəsi, Elektron resurslar şöbəsi, 24/7 Kitabxana, 1,2,3,4 saylı tədris binaları üzrə oxu zalları və kitabxana fəaliyyət göstərir.

*6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti*

UNEC-də Kompozit materiallar elmi-tədqiqat mərkəzi, Laboratoriyaların işinin təşkili mərkəzinin nəzdində Nobel mükafatı laureatı Əziz Sancar adına "Qida təhlükəsizliyi" laboratoriyası, "Qida kimyası və mikrobiologiya" laboratoriyası, "Qida texnologiyaları" laboratoriyası, "Ekologiya" laboratoriyası, "Fizika 1" laboratoriyası, "Fizika 2" laboratoriyası, "Kimya 1" laboratoriyası, "Kimya 2" laboratoriyası, "Elektronika" laboratoriyası, "Elektrotexnika" laboratoriyası, "Materialşünaslıq" laboratoriyası, "Kommunikasiya sistem mühəndisliyi" laboratoriyası, "Maşın və sənaye mühəndisliyi" laboratoriyası, 12 kompüter laboratoriyası, “Bloomberg” maliyyə laboratoriyası, “Yunus Sosial Biznes Mərkəzi”, “İnnovativ Biznes-İnkubator”, “İnnovativ Bankçılıq”, “Virtual müəssisə”, “Maliyyə laboratoriyası”, UNEC dizayn məktəbinin nəzdində 2 yaradıcılıq emalatxanası, Qrafik dizayn emalatxanası fəaliyyət göstərir.

*6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti*

UNEC-də 25 laboratoriya fəaliyyət göstərir.

*6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti*

UNEC-in Maliyyə və təminat departamentində, Beynəlxalq əməkdaşlıq departamentində, Beynəlxalq iqtisadiyyat məktəbində, Elektron idarəetmə mərkəzində və Tərcümə mərkəzində UNEC-in Maliyyə və mühasibat fakültəsinin, Rus iqtisad məktəbinin, Rəqəmsal iqtisadiyyat fakültəsinin, İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri və Azərbaycan Dillər Universitetinin tələbələri istehsalat təcrübəsi keçirlər.

*6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti*

UNEC Extern mərkəzində hər bir studiyanın eyni zamanda 1000 dinləyiciyə təhsil vermək imkanı olan ən müasir standartlara uyğun audio, video və digər innovativ kommunikasiya avadanlıqları ilə təchiz olunmuş 6 studiya yaradılmışdır. Mərkəz gün ərzində 20 minə yaxın dinləyiciyə təhsil vermək imkanına malikdir. UNEC-in bütün tədris binalarında tədrisin hibrid formada (əyani və distant) təşkilinə imkan verən müasir texniki avadanlıqlarla təchiz edilmiş ümumilikdə 100 auditoriya mövcuddur.

*6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti*

UNEC-in balansında 2016-cı ildə 13 ədəd, 2017-ci ildə 13 ədəd, 2018-ci ildə 17 ədəd, 2019-cu ildə 17 ədəd, 2020-ci ildə 18 ədəd, 2021-ci ildən isə 16 ədəd minik və pikap tipli avtomobilləri var. Həmçinin yükdaşıma və qonaqlama məqsədi ilə 1 yüngül yük avtomobili və 1 mini avtobusun alınması ilə bağlı keçirilmiş tender nəticəsində qalib təşkilatla satınalma müqaviləsi bağlanmışdır.

*6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti*

UNEC-də tədris infrastrukturu hər bir əməkdaş və təhsilalan üçün əlçatandır.

*6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti*

UNEC-də sağlamlıq imkanları məhdud şəxslər tədris binalarında uyğunlaşdırılmış tədris infrastrukturu və müvafiq formatda tədris vəsaitləri ilə təmin edilir. Həmçinin gözdən əlil tələbələr üçün çap məhsullarının hazırlanması ilə bağlı “Brayl” printeri, “Brayl” displeyi, ekran oxuması üçün xüsusi proqram təminatı da alınmışdır.

*6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti*

UNEC-in 4 tədris binasının hər birində ümumi sahəsi 2498 kv.m olan, müasir avadanlıqlarla təhciz edilmiş yeməkxanaları mövcuddur. Yeməkxanalarda birgə fəaliyyət müqavilələrinə əsasən UNEC əməkdaşlarına və təhsilalanlarına keyfiyyətli və güzəştli qiymətlərlə iaşə xidməti göstərilir. Bundan əlavə 2022-ci ildən UNECOFFEE tələbələrin və əməkdaşların istifadəsinə verilmişdir.

*6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti*

UNEC-in 4 ədəd 5 mərtəbəli və 1 ədəd 9 mərtəbəli, ümumilikdə 5 binadan ibarət 2810 kv.m sahəsi olan tələbə yataqxanaları mövcuddur. Lakin qeyd edilən bütün yataqxanalarda məcburi köçkünlər məskunlaşmışdır. Müasir tələbə yataqxanasının tikilməsi barədə təkliflər hazırlanıb müvafiq qaydada təqdim edilmişdir.

*6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti*

UNEC-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi Bakı şəhəri Baş Səhiyyə İdarəsinin 3 nömrəli Tələbə Poliklinikası fəaliyyət göstərir. Poliklinikanın hər tədris binasında məntəqələri fəaliyyət göstərir. Bir sıra tibbi avadanlıqlar, cihazlar və dərman preparatları UNEC tərəfindən təmin edilir.

*6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti*

UNEC-də Elektron idarəetmə mərkəzi mövcuddur. Mərkəzin tərkibində Şəbəkə xidməti və informasiya təhlükəsizliyi şöbəsi və Texniki xidmət şöbəsi fəaliyyət göstərir.

*6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti*

UNEC-də tədris ifrastrukturundan təyinatı üzrə istifadə olunur. Bununla bağlı vaxtaşırı müşahidə və monitorinqlər aparılır, sorğular keçirilir, hesabatlar hazırlanır, nəticələr təhlil edilir.

## 6.2 Elmi-tədqiqat infrastrukturu

*6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti*

UNEC-də elmin müxtəlif istiqamətlərini əhatə edən 36 Tədqiqat Mərkəzi yaradılmışdır ki, bunlardan 29 Mərkəzin strukturu formalaşmışdır:

1. UNEC Biznes Məktəbinin nəzdində İnkişaf iqtisadiyyatı Tədqiqat Mərkəzi
2. Beynəlxalq İqtisadi Əməkdaşlığın İnkişafı
3. Analitik İnformasiya Resursları Mərkəzi
4. Ekonofizika Tədqiqat Mərkəzi
5. Enerji İqtisadiyyatı Mərkəzi
6. UNEC Multikulturalizm Mərkəzi
7. Türk Dünyası İqtisadi Araşdırmalar Mərkəzi
8. Bilik İqtisadiyyatı UNEC Tədqiqat Mərkəzi
9. Kompozit Materiallar Elmi-Tədqiqat Mərkəzi
10. Avropa İqtisadiyyatı Mərkəzi
11. UNEC Sığorta Məktəbi
12. Rəqəmsal İqtisadiyyat Tədqiqat Mərkəzi
13. Əmək Bazarının Monitorinqi Mərkəzi
14. Digital Marketinq Mərkəzi
15. Meybullayev İslam İqtisadiyyatı Mərkəzi
16. UNEC Empirik Tədqiqatlar Mərkəzi

17. Xarici Ticarətə Dəstək Mərkəzi
18. Koqnitiv İqtisadiyyat Mərkəzi
19. UNEC Kiçik və Orta Biznes Tədqiqat və İnkişaf Mərkəzi
20. Təhsil Texnologiyaları Mərkəzi
21. Xanım Tədqiqatçılar Şurası
22. İnnovativ Menecment Mərkəzi
23. Elektron Pul Araşdırma Mərkəzi
24. Monetar İqtisadiyyat Elmi-Tədqiqat Mərkəzi
25. Ermənistan İqtisadiyyatının Araşdırma Mərkəzi
26. Aziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyası
27. İqtisadi klinika
28. UNEC Kölgə İqtisadiyyatı Tədqiqat Mərkəzi
29. Səhiyyə İqtisadiyyatı Tədqiqat Mərkəzi
30. İslam Maliyyə Mərkəzi
31. "Bir kəmər, bir yol" Tədqiqat Mərkəzi
32. N. Gəncəvi adına Dayanıqlı İnkişaf və Yaşıl İqtisadiyyat Tədqiqat Mərkəzi
33. UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi
34. Sahə Araşdırmaları və Rəqabətin Təhlili Mərkəzi
35. UNEC Mühasibat və Maliyyə Tədqiqat Mərkəzi
36. BMDM nəzdində "Elektron Ticarət və Elektron İxracat" Tədqiqat Mərkəzi

Mərkəzlərdə fəaliyyət göstərən rəhbər və üzvlər həm universitetdaxili, həm universitetdən kənar, o cümlədən xarici universitetlərdə çalışan alim və tədqiqatçılardan ibarətdir. Belə ki, ümumilikdə Mərkəzlərdə ictimai əsaslarla 129 nəfər fəaliyyət göstərir ki, onlar arasında həm yerli, həm xarici alimlər yer almaqdadır.

*6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti*

UNEC-də "Mühəndislik və tətbiqi elmlər" kafedrasının nəzdində fəaliyyət göstərən 12 laboratoriya ən müasir cihazlarla təchiz olunmuşdur.

UNEC-də 2021-ci ildən kimya üzrə Nobel mükafatı laureatı, professor Əziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyası fəaliyyət göstərir. BP-nin maliyyə dəstəyi ilə UNEC-in 3 saylı tədris binasında yaradılan laboratoriya "Qida məhsullarının texnologiyası" kafedrasının nəzdində fəaliyyət göstərir, müasir texnologiyalarla və avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriyada bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələrə təlim ve tədris planına uyğun olaraq elmi-praktiki araşdırmalar, tədqiqatlar və ekspertizalar,

qida məhsullarının müvafiq keyfiyyət standartları (nəmliyi, aktiv turşuluğu, sıxlığı, mikrobioloji analizi) və tələblərə uyğunluğunun qiymətləndirilməsi prosesləri həyata keçirilir.

Türk dünyasının böyük alimi, Nobel mükafatçısı Aziz Sancar adına Qida Laboratoriyası və ölkəmizdə ilk dəfə olaraq UNEC-də fəaliyyətə başlayan Bloomberg Maliyyə Laboratoriyası. 12 Bloomberg terminalından ibarət olan laboratoriya UNEC-in bu sahədə dünyanın qabaqcıl universitetləri ilə eyni imkana malik olmasına və universitetdə keyfiyyətli araşdırma mühitinin yaradılmasına imkan verir. UNEC-də Mühəndislik və tətbiqi elmlər kafedrasının nəzdində 11, Rəqəmsal texnologiyalar və tətbiqi informatika kafedrası nəzdində isə 4 laboratoriya fəaliyyət göstərir. UNEC-də fəaliyyət göstərən 36 Tədqiqat Mərkəzinə cəlb olunan tədqiqatçıların səmərəli fəaliyyət göstərmələri məqsədilə UNEC-in 2 və 4 saylı tədris binalarında onlar üçün iş otağı ayrılmış və müvafiq avadanlıqlarla (internet, kompüter, printer, mal-material və s.) təchiz olunmuşdur.

“Mühəndislik və tətbiqi elmlər” kafedrasında texniki və texnoloji istiqamətlər üzrə yeni tədris standartlarına uyğun olaraq “Elektrik və elektronika mühəndisliyi”, “Maşın mühəndisliyi”, “Qida mühəndisliyi”, “Sənaye mühəndisliyi”, “Materiallar mühəndisliyi” və “Ekologiya mühəndisliyi” ixtisasları üzrə də tədris aparılır. Adları sadalanan ixtisaslar üzrə tədris standartlarında nəzərdə tutulan bütün ixtisasyönümlü fənlərin laboratoriya dərslərinin aparılması üçün müasir cihaz və avadanlıqlarla təchiz olunmuş 200-dən artıq praktiki işlərin aparılmasına imkan verən tədris-metodiki laboratoriyalar fəaliyyət göstərir. Eyni zamanda, magistrantların, eləcə də gənc tədqiqatçıların və professor-müəllim heyətinin geniş spektrdə elmi-tədqiqat aparmaları üçün ən müasir cihaz və avadanlıqlarla təchiz olunmuş zəngin maddi-texniki bazaya malik “Kompozit materiallar” ETM fəaliyyət göstərir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

*7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti*

UNEC-in beynəlmiləlləşmə siyasəti AR Nazirlər Kabinetinin 22 avqust 2019-cu il tarixli Qərarı əsasında təsdiq edilmiş Nizamnaməsi və 2019-2030-cu illəri üçün hazırlanmış "UNEC-100 İnkişaf Strategiyası" əsasında həyata keçirilir.

UNEC Nizamnaməsində UNEC-in vəzifə və hüquqları arasında aidiyyəti olaraq 3.1.10, 3.1.11, 3.2.3, 3.2.5 maddə və alt-maddələrdə beynəlmiləlləşmə siyasəti haqqında vəzifə və öhdəliklər öz təsdiqini tapmışdır.

"UNEC-100 İnkişaf Strategiyası"-nın ibarət olduğu 7 Strateji məqsədin 5-ci və 7-ci Strateji məqsədləri beynəlmiləlləşmə siyasətini özündə ehtiva edir. Belə ki, müvafiq olaraq 5-ci Strateji məqsəd "Beynəlmiləl universitetə çevrilmək", 7-ci strateji məqsəd isə "Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək" olaraq təsdiq edilmişdir.

*7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti*

UNEC-də təhsil alan bütün tələbələr hər bir təhsil səviyyəsi üzrə Aİ-nin maliyyələşdirdiyi Erasmus+, Türkiyənin Ali Təhsil Şurasının (YÖK) maliyyələşdirdiyi Mevlana, DAAD qrant layihələri çərçivəsində və xarici universitetlərlə ikitərəfli razılıq əsasında həyata keçirilən Non-erasmus mübadilə proqramları çərçivəsində mübadilədə iştirak edə bilirlər.

UNEC hər il Erasmus+, Non-Erasmus mübadilə proqramları, DAAD qrant layihələri çərçivəsində Avropanın müxtəlif ölkələrinin ali təhsil müəssisələri ilə, Mevlana mübadilə proqramı çərçivəsində isə Türkiyənin 50-dən artıq ali təhsil müəssisəsi ilə tələbə və müəllim mübadiləsi həyata keçirir. Erasmus+ mübadilə proqramı çərçivəsində inzibati sturukturda çalışan əməkdaşların da mübadiləsi həyata keçirilir.

Mübadilə proqramları çərçivəsində 2016/2017-ci tədris ilində ümümilikdə 37 nəfər (30 bakalavr, 7 magistr), 2017/2018-ci tədris ilində 36 nəfər (32 bakalavr,4 magistr), 2018/2019-cu tədris ilində 41 nəfər (34 bakalavr, 6 magistr, 1 doktorant), 2019/2020-ci tədris ilində 23 nəfər (22 bakalavr, 1 magistr), 2020/2021-ci tədris ilində 15 nəfər (14 bakalvr, 1 magistr), 2021/2022-ci tədris ilində isə ümumilikdə 30 nəfər tələbənin ( 28 bakalavr, 2 magistr) mübadiləsi həyata keçirilmişdir.

Akademik və inzibati heyətin mübadiləsi haqqında isə bildirmək istərdik ki, 2016-cı ildə ümumilikdə 11 nəfər ( Mevlana-9, Erasmus+2)  UNEC müəllimi və 3 nəfər inzibati struktur əməkdaşı, 2017-ci ildə ümumilikdə 16 nəfər ( Mevlana-3, Erasmus+13) müəllim və 18 nəfər

əməkdaş, 2018-ci ildə 27 nəfər ( Mevlana-14, Erasmus+13) müəllim və 14 nəfər əməkdaş, 2019-cu ildə 20 nəfər ( Mevlana-4, Erasmus+16) müəllim və 11 nəfər əməkdaş, 2020-ci ildə 1 nəfər əməkdaş, 2021-ci ildə 2 nəfər (Erasmus+) müəllim, 2022-ci ilin dekabr ayının sonuna qədər isə ümumilikdə 9 nəfər (Erasmus+) müəllim və 14 nəfər əməkdaşın mübadiləsi həyata keçirilmişdir.

*7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti*

UNEC rektorunun 03.12.2018-ci il tarixli müvafiq qərarı ilə (D/Y 11484) UNEC-də əcnəbi tələbələrin sayının artırılması ilə bağlı Tədbirlər Planı Beynəlxalq Əməkdaşlıq Departamenti (bundan sonra BƏD) tərəfindən hazırlanmışdır və əcnəbi tələbələrin cəlbi istiqamətində işlər UNEC-in aidiyyəti sturukturları tərəfindən mütəmadi olaraq hər tədris ilində həyata keçirilməkdədir.

Sözügedən tədbirlər planı üzrə aşağıda qeyd olunan maddələr üzrə işlər mütəmadi həyata keçirilməkdədir:

1. UNEC-in rəsmi internet səhifəsinin əcnəbi tələbələrlə bağlı bölməsinin yenilənməsi və faydalı məlumatlarla zənginləşdirilməsi;
2. Prioritet olan xarici bazarlarda strateji əməkdaşlıq əlaqələrinin qurulması;
3. Moskva və Kiyevdə qəbul ofislərinin fəaliyyətinin təşkili;
4. Xarici tələbələrə təqaüd (scholarship) verilməsi mexanizminin hazırlanıb UNEC rəhbərliyinə təqdim edilməsi;
5. UNEC haqqında materialların xarici şirkətlərə və səfirliklərə göndərilməsi;
6. Əcnəbi vətəndaşlarla operativ işin təşkili;
7. Qəbul prosesinin təkmilləşdirilməsi;
8. Əcnəbi tələbələrlə qəbuldan sonra işin təşkili;
9. UNEC-in virtual kampus turunun hazırlanması;
10. Əcnəbi məzunlarla işin təşkili;
11. Tədbirlər planının icrasına nəzarət.

Hesabat dövrü ərzində UNEC-də 2016/2017-ci tədris ilində 178, 2017/2018-ci tədris ilində 192 nəfər, 2018/2019-cu tədris ilində 245 nəfər, 2019/2020-ci tədris ilində 247 nəfər, 2020/2021-ci tədris ilində 355, 2021/2022-ci tədris ilində 300 nəfər əcnəbi tələbə təhsil almışdır. 2022/2023-cü tədris ilində isə 316 nəfər əcnəbi tələbə təhsil almaqdadır.

UNEC-də təhsil alan bütün tələbələr kimi UNEC-in əcnəbi tələbələri də hər semestrin nəticələrinə görə bütün tələbələrlə rəqabət aparaq təqaüd əldə edə bilirlər.

*7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC-in akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasətini onların beynəlxalq mübadilə proqramlarına iştirakını təşviq etməklə, onların müxtəlif sahələrdəki təcrübə və biliklərindən faydalanaraq onları beynəlxlaq qrant layihələrinə cəlb etmək və ideya, fikirlərindən faydalanlamaq, beynəlxalq məlumat bazalarında, elmi nəşrlərdə məqalə, tədqiqat işi nəşləri üçün təşviqedici fəaliyyətlərini qeyd etmək mümkündür.

Bununla yanaşı, akademik heyətə hər akademik tədris ili ərzində müxtəlif sahələrdə beynəlxalq ekspertlərin iştirakları ilə görüş, tədbir, təlimlər keçirilməkdədir. Həmçinin, UNEC-ə ABŞ-ın maliyyələşdirdiyi Fullbright proqramı çərçivəsində 1 il müddətinə gələn qonaq professorlar, eləcə də mübadilə proqramları çərçivəsində UNEC-ə səfər edən xarici professor və alimlərlə də akademik heyət arasında görüşlər həyata keçirilərək əlaqələr qurulur və potensial əməkdaşlıq imkanları müzakirə edilir.

Bildiririk ki, UNEC-lə xarici universitetlər arasında həyata keçirililən beynəlxalq mübadilə proqramlarında akademik heyət üzvləri aktiv iştirak edirlər. Belə ki, 2016-cı il üzrə ümumilikdə 11, 2017-ci il üzrə 16, 2018-ci il üzrə 27, 2019-cu il üzrə 20,2020-2021-ci illər üzrə 2, 2022-ci il üzrə 9 nəfər UNEC müəllimi beynəlxalq mübadilə proqramı çərçivəsində xarici universitetlərə səfər etmiş, təcrübə və elmi mübadilə həyata keçirmişlər.

Həmçinin bildiririk ki, UNEC-in 2022-ci ildə sədr seçildiyi TÜRKÜNİB tərəfindən təşkil olunan Orhun mübadilə proqramı çərçivəsində də xarici müəllimlər UNEC-ə səfər edirlər. İlk dəfə bu il 5 nəfər əcnəbi müəllim proqram çərçivəsində UNEC-ə səfər etmiş, təlim-tədris prosesinə qatılmışdır.

Əcnəbi alimlərin UNEC-in magistratura səviyyəsində təhsil alan tələbələri üçün elmi rəhbərliyi üçün xarici universitetlərlə danışıqlar aparılmış, ümumi olaraq 13 ölkənin 83 alimi ilə razılığa gəlinmişdir.

*7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC-in təşkilatçılığı ilə təşkil olunan beynəlxalq elmi-praktiki konfranslar, seminarlar və forumlarda xarici iqtisadçıların və professorların cəlbi əsas məqsədlərindən biridir.

UNEC İqtisadi Forumu aparıcı dövlət və özəl təşkilatları, eyni zamanda təcrübəli sənaye xadimlərini bir araya gətirərək iştirakçılara ən son iqtisadi və sosial inkişaf, çağırışlar və imkanları müzakirə və müəyyən etmək üçün platforma təmin edir. Məruzəçilər arasında müxtəlif akademiklər, o cümlədən Nobel mükafatı laureatları, eləcə də iri özəl və dövlət təşkilatların rəhbərləri, yerli və beynəlxalq peşəkarlar və digər sənaye ekspertləri iştirak edir. Forum rəsm sərgisi, şəhər gəzintisi, elm adamları ilə görüşlər, ikitərəfli rəsmi və işgüzar görüşlər, media məlumat görüşləri və s. kimi müxtəlif tədbirləri özündə ehtiva edir.

UNEC-in Elmi Şurasının 28.06.2019-cu il tarixli EŞ-166 No-li qərarı ilə təsdiq edilmiş "UNEC nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış professor-müəllim heyətinin tədqiqat apardıqları müddətdə əməkhaqlarının saxlanılması haqqında" Qaydalara əsasən 2016-2022-ci illər ərzində UNEC gənc tədqiqatçıları ABŞ, İsveçrə, Norveç, Almaniyanın nüfuzlu və reytinqli universitetlərində 3 aydan 1 ilədək elmi tədqiqat aparmışdırlar.

Yuxarıda qeyd edilənlərdən başqa UNEC-də elmin müxtəlif istiqamətlərini əhatə edən 36 Tədqiqat Mərkəzində 130 nəfər fəaliyyət göstərir.

*7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC Avropa Universitetlər Assosiasiyasına (EUA), Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin (TÜRKÜNİB)**,** Avrasiya Universitetlər Birliyi (EURAS), İslam Dünyasının Universitetləri Federasiyasına (FUIW), Avrasiya Universitetlər Assosiasiyasına (EAU), Qara Dəniz Ölkələri Universitetləri Şəbəkəsi (BSUN), Avrasiya Universitetləri Reytinq Təşkilat (IAAR EUA) və s. üzvüdür. Bu qurumların təşkil etdiyi tədbirlərdə fəal iştirak edir.

2022-ci ildə EUA-nın Açıq Elm Ekspert Şurasına üzvlük üçün UNEC tərəfindən Ekspert Şurasına beynəlxalq əlaqələr və proqramlar üzrə prorektorun namizədliyi irəli sürülmüşdür. 14 oktyabr 2022-ci il tarixində BSUN Baş Assambleyasında UNEC nümayənədəsi onlayn formatda iştirak etmişdir. Assembleyada Boğaziçi Universitetinin rektoru professor Mehmet Naci İncinin 2024-2026-cı il dövrü üçün BSUN-un prezidenti vəzifəsinə namizədliyinin lehinə səs vermişdir. 2017-ci ildə UNEC İstanbul şəhərində EURAS-ın təşkilatçılığı ilə keçirilən Beynəlxalq Təhsil Zirvəsi və Təhsil sərgisində təmsil olunmuşdur. 2021-ci ildə Bakı Ali Neft Məktəbi EURAS ilə birgə “Gənc ali məktəblər üçün beynəlxalq reytinq: çağırışlar və fürsətlər” mövzusunda vebinar təşkil etmiş və UNEC nümayəndəsi "Azərbaycan ali məktəbləri beynəlxalq reytinqlərdə, perspektivlərdə və çağırışlarda" mövzusunda çıxış etmişdir. Türk Universitetlər Birliyinin VI ümumi yığıncağında 2023-2024-cü illər üzrə UNEC TÜRKÜNİB-in Sədri seçilmişdir. Birliyin sədri vəzifəsini UNEC rektoru həyata keçirəcəkdir.

*7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti*

İkili diplom proqramları ali təhsildə beynəlmiləlləşmə strategiyası olaraq tələbələrə təhsil dövrü ərzində iki fərqli universitetin diplomunu əldə etməyə imkan verən təşəbbüsdür. Proqram üzrə qurulan akademik əməkdaşlıq həm bakalavriat, həm də magistratura səviyyəsində daim yeni proqramlar və inkişaf edən tədris metodlarını özündə cəmləşdirir.

İkili diplom proqramları hər iki universitet tərəfindən birgə müəyyən olunmuş ixtisaslar

daxilində əyani təhsil alan tələbələrə təklif olunmaqdadır. Əsas məqsəd təhsil qurumları arasında təhsilin beynəlmiləlləşdirilməsinə töhvə verməkdir.

Bu məqsədlə UNEC öz beynəlxalq inkişaf strategiyasında ikili diplom proqramlarına xüsusi əhəmiyyət vermiş və dünyanın tanınmış universitetləri ilə bu istiqamətdə fəaliyyətlərini genişləndirmişdir. UNEC bakalavriat səviyyəsi üzrə üç və magistratura səviyyəsi üzrə də dörd olmaqla toplam 7 universitetlə ikili diplom müqaviləsi imzalamış və UNEC təhsilalanlarına bu imkanlardan istifadə etməsinə şərait yaratmışdır.

Bununla yanaşı UNEC əlavə olaraq Yunanıstanın Qərbi-Makedoniya Universiteti ilə birgə-magistratura və ya birgə-diplom proqramına da başlamışdır. Proqramda iştirak edən əcnəbi tələbələrə sözügedən universitetin müəllimləri ilə yanaşı UNEC müəllimləri də ildə iki dəfə Yunanıstana ezam olaraq dərslərin keçirilməsində iştirak edirlər.

Müqavilə üzərindən imzalanmış ikili diplom proqramları:

1. Fransa Respublikasının Montpellier Universiteti ilə bakalavriatura üzrə ikili diplom proqramı (İDP) – 2015-ci il
2. Fransa Respublikasının ICD Biznes Məktəbi ilə bakalavriatura üzrə İDP – 2019-cu il
3. Rusiya Federasiyasının Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə bakalavriatura üzrə İDP – 2016-cı il
4. Amerika Birləşmiş Ştatlarının Linkoln Universiteti ilə magistratura üzrə İDP – 2019-cu il
5. Fransa Respublikasının Montpellier Universiteti ilə magistratura üzrə İDP – 2019-cu il
6. İsveçrə Konfederasiyasının UBİS universiteti ilə magistratura üzrə İDP – 2013-ci il
7. Litva Respublikasının Mykolas Romeris Universiteti ilə magistratura üzrə İDP – 2017-ci il

Türkiyənin Ege Universiteti ilə də Qida mühəndisliyi ixtisası üzrə ikili diplom müqavilələri qarşılıqlı olaraq imzalanaraq Ege Universiteti tərəfindən təsdiq üçün Türkiyənin Ali Təhsil Şurasına (YÖK) təqdim edilmişdir.

*7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti*

UNEC-in beynəlmiləlləşmə siyasəti çərçivəsində Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektorun nəzarəti ilə BƏD tərəfindən rüblük, və illik hesabatlar mütəmadi olaraq hazırlanır və rəhbərliyə təqdim edilir. Bununla yanaşı UNEC-100 KPİ çərçivəsində hər ilin sonu növbəti il üçün keyfiyyət göstəricilərini nəzərə alaraq hədəflər və istənilən nəticələr haqqında proqnozlar BƏD tərəfindən də təqdim edilir.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

*7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti*

UNEC-də beynəlmiləlləşmə proseslərini idarə edilməsi UNEC rektorunun təyinatı əsasında Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektorun nəzarəti ilə BƏD-in Xarici əlaqələr, Strateji İnkişaf və Layihələrin idarə edilməsi şöbələri tərəfindən yerinə yetirilir. Aidiyyəti olaraq BƏD sturukturunun Əsasnaməsi, şöbələr haqqında məlumatlar, şöbə müdirləri və əməkdaşların vəzifə öhdəlikləri haqqında əlaqədar sənədlər qoşmaya əlavə edilir.

*7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti*

UNEC beynəlmiləlləşmə siyasətini icra edən təşkilati sturukur UNEC-100 İnkişaf strategiyasına uyğun aşağıda qeyd olunan strateji məqsədlərə nail olmaq fəaliyyətləri yerinə yetirir:

Strateji Məqsəd 5. Beynəlmiləl Universitetə Çevrilmək

Strateji Məqsəd 7. Yüksək Beynəlxalq Reytinqli Universitetə Çevrilmək

*7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti*

Mübadilə proqramlarında iştirak etməyə haqq qazanan UNEC tələbələrinin mübadilədən əvvəl fakültələrdə çalışan akademik məsləhətçi tyutorların köməyi ilə xarici ali təhsil müəssisəsində alacağı fənlərin kreditlərinə və sillabuslarına baxılır və UNEC-dəki fənlərlə uyğunlaşdırılır.

Mübadilə proqramlarında iştirak edən UNEC tələbələri mübadilə sonunda əldə etdikləri fənlərin və kreditlərinin tanınması barədə müraciətlərinə 20.12.2018-ci il tarixində 255/1/2018 saylı əmrlə yaradılmış “Fənlərin uyğunlaşdırılması” komissiyasında baxılır və müvafiq qərarın verilməsi üçün UNEC rəhbərliyinə təqdim olunur.

*7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti*

UNEC-də əcnəbi müəllimlər təlim tədris prosesinə akademik heyət üzvü olaraq, eləcə də beynəlxalq mübadilə proqramları çərçivəsində cəlb olunurlar.

Hesabat dövrü ərzində 2016/2017-ci tədris ilində 5 nəfər ştat müəllim kimi, 3 nəfər isə saathesabı qaydada, 2017/2018-ci tədris ilində 3 nəfər ştat müəllim kimi, 2 nəfər isə saathesabı qaydada, 2018/2019-cu tədris ilində 3 nəfər ştat müəllim kimi, 2019/2020-ci ildə 5 nəfər ştat müəllim kimi, 2020/2021-ci ildə 4 nəfər ştat müəllim kimi, 3 nəfər isə saathesabı

qaydada, 2021/2022-ci tədris ilində isə 5 nəfər ştat müəllim kimi, 2 nəfər isə saathesabı qaydada əcnəbi müəllim UNEC-də akademik heyət üzvləri arasında çalışmışdır.

Bununla bərabər, beynəlxalq mübadilə proqramları çərçivəsində ümumilikdə 2016/2017-ci tədris ilində 9, 2017/2018-ci tədris ilində 4, 2018/2019-ci tədris ilində 9,2021/2022- ci tədris ilində isə 16 nəfər əcnəbi müəllim müddətli şəkildə təlim-tədris prosesinə cəlb olunmuşdur.

Həmçinin bildiririk ki, UNEC-in 2022-ci ildə sədr seçildiyi TÜRKÜNİB tərəfindən təşkil etdiyi Orhun mübadilə proqramı çərçivəsində də əcnəbi müəllimlər UNEC-ə səfər edirlər. İlk dəfə bu il 5 nəfər əcnəbi müəllim proqram çərçivəsində UNEC-ə səfər etmiş, təlim-tədris prosesinə qatılmışdır. Onu da qeyd etmək istəyirik ki, UNEC-in magistratura səviyyəsində təhsil alan magistrantları üçün 13 ölkənin 37 fərqli universitetinin 87 əcnəbi alimi tərəfindən elmi rəhbərlik həyata keçirilir.

*7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti*

UNEC-də beynəlmiləlləşmə siyasətinin idarə edilməsi səmərəliliyinin monitorinqi UNEC-100 inkişaf strategiyasına uyğun olaraq rüblük və illik hesabatlar UNEC rəhbərliyinə Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektoru tərəfindən təqdim edilir. Ən son 2022-ci il üzrə hesabat cari ilin noyabr ayında təqdim edilmişdir.

[https://news.unec.edu.az/xeber/125-universitet/9481-bold-red-unec-100-inkishaf-strategiyasi-uzre-beynelxalq-emekdashligin-hesabati-dinlenildi-bold-red](https://news.unec.edu.az/xeber/125-universitet/9481-bold-red-unec-100-inkishaf-strategiyasi-uzre-beynelxalq-emekdashligin-hesabati-dinlenildi-bold-red)

*7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti*

Bildiririk ki, UNEC-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 saylı Qərarı ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"-na və digər normativ hüquqi aktlarına uyğun şəkildə həyata keçirilən və adları aşağıda qeyd olunan beynəlxalq ikili diplom proqramları var.

*1. Fransanın Montpellier Universiteti ilə həyata keçirilən bakalavr üzrə ikili diplom proqramı*

2016/2017-ci tədris ilindən başlayaraq UNEC-in “Dünya İqisadiyyatı”, “Maliyyə”, “Mühasibat”, “İqtisadiyyat” və “Biznesin idarə edilməsi” ixtisasları üzrə təhsil alan tələbələri Montpellier Universitetinin “Beynəlxalq Menecment və Biznes” üzrə bakalavr diplomunu əldə edirlər. Həm UNEC həm də Fransanın Montpellier Universitetinin diplomunu almağa imkan verən proqramda ilk iki tədris ilini UNEC-də təhsil almış və 120 kredit qazanmış mükəmməl

ingilis dil bilikləri olan tələbələr iştirak edirlər. Təhsillərinin 3-cü ilini Fransanın Montpellier Universitetində keçirən tələbələr müvafiq kreditləri yığaraq UNEC-ə geri qayıdırlar. Daha sonra 4-cü kursu UNEC-də müvəffəqiyyətlə başa vuran tələbələr dörd ilin sonunda hər iki universitetin diplomlarını əldə edirlər.

*2. Fransanın Montpellier Universiteti ilə həyata keçirilən magistratura üzrə ikili diplom proqramı*

UNEC-də Montpellier Universitetinin diplomunu əldə etmək imkanı UNEC tərəfindən magistr tələbələri üçün də hazırlanmışdır. Proqramda UNEC-in magistratura səviyyəsində tədrisi aparılan müvafiq ixtisaslarda təhsilalanlar iştirak edə bilərlər. Magistr tələbələr tədrisin II ilində yaz semestrində Montpellier Universitetində davam edərək nəticədə hər iki ali təhsil universitetinin diplomlarını əldə edirlər. Tədris ingilis dilində aparılır.

*3. Fransanın İCD Biznes Məktəbi ilə həyata keçirilən bakalavr üzrə ikili diplom proqramı*

UNEC Fransanın Leon şəhərində yerləşən Fransa və ABŞ-ın birgə təhsil müəssisəsi olan (CEFAM) ilə bir təhsil konsorsiuma aid olan ICD Biznes Məktəbi ilə (École de commerce et de Marketing) ikili diplom proqramı üzrə müqavilə imzalamışdır. Proqram çərçivəsində UNEC tələbələri iki semestr müddətinə 60 ECTS kreditindan ibarət müvafiq bakalavr proqramları üzrə İCD Beynəlxalq Biznes Məktəbində təhsillərini dəvam etdirəcəklərdir. UNEC tələbləri Dünya İqtisadiyyatı, Maliyyə, Mühasibat, İqtisadiyyat, Biznesin idarəolunması ixtisasları üzrə təhsil alacaqlar.

Həm UNEC həm də İCD-in diplomunu almağa imkan verən proqramda ilk iki tədris ilini UNEC-də təhsil almış və 120 kredit qazanmış mükəmməl ingilis dil bilikləri olan tələbələr iştirak edirlər. Seçilmiş tələbələrə təhsilin III ilində iki variant üzrə (ya Fransada, ya Azərbaycanda) təhsillərini davam etdirmək imkanı verilir. Proqramı uğurla bitirən tələbələr hər iki ali təhsil müəssisəsinin diplomunu əldə edirlər. Tədris ingilis dilində aparılır.

*4. Rusiyanın Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə bakalavr üzrə ikili diplom proqramı*

UNEC-in Rus İqtisad Məktəbinin tələbələri və rus dilini bilən UNEC-in digər fakültələrinin tələbələri 1-ci kursdan bu proqramda qoşula bilərlər. Tələbələr birinci və ikinci tədris ilində UNEC-də təhsil alır, sonra üçüncü tədris ilində MDHİU-da təhsillərini davam etdirirlər. Dördüncü tədris ilində tələbələr UNEC-ə qayıdıb təhsillərini başa vururlar. Akademik tələblərini yerinə yetirən tələbələrə Rusiyanın təhsil və kvalifikasiya sənədi - bakalavr diplomu və UNEC diplomu veriləcəkdir. UNEC tələbələrinin proqramda iştirak etmək üçün əsas qəbul şərtləri rus dilində sərbəst danışması və bütün dərslər 71 baldan ümumi orta müvəffəqiyyət göstəricisinə sahib olmasıdır. Tədris rus dilində aparılır. İkili diplom proqramının ixtisas istiqaməti – “Mühasibat uçotu və audit”.

*5. İsveçrənin UBİS universiteti ilə magistratura üzrə ikili diplom proqramı*

2013-cu ildən etibarən UNEC Biznes Məktəbi İsveçrənin Cenevrə şəhərində yerləşən UBİS (University of Business and International Studies) Biznes və Beynəlxalq Tədqiqatlar Universitetinin (BBTU) ilə birgə aşağıdakı ixtisaslar üzrə ikili diplom proqramını həyata keçirir:

- Biznesin idarə edilməsi üzrə magistr (BBTU MBA);
- Beynəlxalq əlaqələr üzrə magistr (MAIR);
- Bank işi və maliyyə üzrə magistr (MSBF).

UNEC-UBİS ikili diplom proqramının məzunları proqramı uğurla başa vurandan sonra İsveçrənin UBİS universitetindən də məzun olaraq hər iki diplom ilə təltif edilirlər. Müqavilənin vaxtı bitdiyinə görə yenilənməsi üzrə işlər aparılır.

*6. Litvanın Mykolas Romeris Universiteti (MRU) ilə magistratura üzrə ikili diplom proqramı*

UNEC “Maliyyə bazarları”, “Maliyyə menecmenti” və “Maliyyə nəzarəti və audit” ixtisası üzrə təhsil alan birinci kurs magistr tələbələrinə tədrisin 2-ci semestrində Litvanın Mykolas Romeris Universitetində təhsillərini davam etmək və hər iki universitetin diplomunu əldə etmək imkanı yaradılmışdır.

*7. ABŞ-ın Linkoln Universiteti ilə magistratura üzrə ikili diplom proqramı*

UNEC-lə ABŞ-ın Linkoln Universiteti arasında MBA proqramı üzrə ikili diplom müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən, UNEC tələbələri öz seçimlərinə uyğun olaraq, 1 və ya 2 il ABŞ-da oxumaqla, yaxud ABŞ-dan gələn professorların tədris etdiyi 9-12 fənni Bakıda UNEC-də dinləyib uğurla imtahan verdikdən sonra UNEC diplomu ilə yanaşı, həm də ABŞ Linkoln Universitetinin diplomunu əldə edə biləcəklər.

*8. UNEC ilə Ege Universiteti arasında “Qida mühəndisliyi” ixtisası üzrə ikili diplom proqramı*

UNEC ilə Türkiyə Respublikasının Ege Universiteti arasında Qida mühəndisliyi ixtisası üzrə bakalavriat səviyyəsində ikili diplom proqramının həyata keçirilməsi ilə bağlı danışıqlar 2019-cu ildə universitetlər arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bundan sonra ikili diplom çalışmalarının həyata keçirilməsi məqsədilə hər iki universitetin nümayəndələrindən ibarət işçi qrupu yaradılmış və Qida mühəndisliyi üzrə tədris proqramının uyğunlaşdırılması üçün qarşılıqlı danışıqlara başlanmışdır. İkili diplom protokolu hər iki dildə təsdiqlənmiş, tədris proqramları hər iki tərəfin işçi qrupu tərəfindən qəbul edildikdən sonra münasibət bildirilməsi üçün həm protokolun, həm də tədris proqramlarının son variantı Elm və Təhsil Nazirliyinə göndərilmiş və nazirlik tərəfindən təsdiqlənmişdir. Həmçinin, Ege Universiteti tərəfindən də müvafiq protokol və tədris proqramını Türkiyənin Ali Təhsil Şurasına (YÖK) göndərilmiş və YÖK tərəfindən də təsdiq olunmuşdur. Protokol tərəflər arasında imzaya

təqdim olunmuşdur.

*9. Qazaxıstan Respublikasının Ş. Yessenov adına Xəzər Dövlət Texnologiya və Mühəndislik Universiteti (Yessenov Universiteti) ilə bakalavriatura üzrə ikili diplom proqramı*

Qazaxıstan Respublikasının Yessenov Universiteti tərəfindən UNEC-lə bakalavriat təhsil səviyyəsi üzrə ikili diplom proqramı çərçivəsində əməkdaşlıq təklif daxil olmuşdur. Qarşı tərəflə işçi qaydada "Zoom" platforması üzərindən 16.03.2022 tarixində onlayn görüş təşkil olunmuşdur. UNEC və Yessenov Universitetinin nümayəndə heyətinin iştirakı ilə keçirilən görüşdə ikili diplom proqramının istiqamətləri üzrə danışıqlar aparılmışdır Ortaq ixtisas olaraq UNEC-in bakalavriatura təhsil dərəcəsi üzrə rus dilində tədris olunan "Maliyyə" ixtisası götürülmüşdür. UNEC və Yessenov Universiteti arasında ikili diplom proqramının tətbiq olunması məqsədilə seçilmiş ixtisas üzrə birgə tədris proqramının hazırlanması üçün 106/1/2022 nömrəli 25.04.2022-ci il tarixli əmrlə işçi qrupu yaradılmışdır.

*7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası*

Akademik heyətin mübadilə dinamikası aşağıdakı cədvəldə əks olunmuşdur:

| İllər | Mübadilə proqramlarında iştirak edən akademik heyətin sayı |
|---|---|
| 2016 | 11 |
| 2017 | 16 |
| 2018 | 27 |
| 2019 | 20 |
| 2020 | 0 |
| 2021 | 2 |
| 2022 | 9 |

*7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti*

UNEC-də çalışan akademik və inzibati heyətin mübadilədə iştirakı UNEC Elmi Şurasının 6.12.2018-ci il tarixli EŞ-162 saylı və 31.05.2022-ci il tarixli EŞ-183 saylı qərarı ilə təsdiq olunmuş "Mübadilə qaydaları" əsasında şəffaf şəkildə aparılır. Mübadilələrin elanı UNEC-in rəsmi veb-səhifəsinin elanlar bölməsində paylaşılır, daha sonra isə rəsmi sosial şəbəkələrin hesablarında kütləvi şəkildə oxucuların diqqətinə çatdırılır.

*7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti*

UNEC-də təhsilanlar, professor-müəllim və inzibati heyət üçün nəzərdə tutulmuş mübadilə proqramlarında iştirak üzrə dinamika aşağıdakı cədvəllərdə öz əksini tapmışdır. Akademik və inzibati heyət haqqında məlumat:

| İllər | Mübadilə proqramlarında iştirak edən professor-müəllim heyəti | Mübadilə proqramlarında iştirak edən inzibati heyət |
|---|---|---|
| 2016 | 11 | 3 |
| 2017 | 16 | 18 |
| 2018 | 27 | 14 |
| 2019 | 20 | 11 |
| 2020 | 0 | 1 |
| 2021 | 2 | 0 |
| 2022 | 9 | 14 |

Hesabat dövrü ərzində mübadilədə iştirak edən təhsilalanlar haqqında məlumat:

| **İllər** | **Bakalavr sayı** | **Magistrant sayı** | **Doktorant sayı** | **Ümumi Say** |
|---|---|---|---|---|
| 2016-2017 | 30 | 7 | - | 37 |
| 2017-2018 | 32 | 4 | - | 36 |
| 2018-2019 | 34 | 6 | 1 | 41 |
| 2019-2020 | 22 | 1 | - | 23 |
| 2020-2021 | 14 | 1 | - | 15 |
| 2021-2022 | 28 | 2 | - | 30 |

*7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti*

UNEC QS, Times Higher Education (THE) World University Rankings, THE Impact Rankings, Webometrics, UniRank, U-Multirank, UI GreenMetric, US News, RUR, IAAR beynəlxalq reytinq təşkilatları ilə əməkdaşlıq edir.

UNEC-in Qazaxıstanın "IAAR (Müstəqil Akkreditasiya və Reytinq Agentliyi) Avrasiya universitetləri reytinqi" sıralamasında iştirak etməsi üçün zəruri məlumatlar BƏD-in Strateji inkişaf şöbəsi tərəfindən təqdim edilmişdir. IAAR Eurasian University Ranking (IAAR EUR)-2022 reytinqində UNEC 15-ci yerə yüksəlmiş və UNEC "IAAR EUR Quality star" mükafatına layiq görülmüşdür.

QS Reytinq agentliyi 2023-cü il üçün "QS Dünya Universitetlərinin Reytinq" sıralamasını açıqlamışdır. Nəticələrə əsasən "QS Dünya Universitetləri Reytinq" də UNEC dünyanın 1001-1200 ən yaxşı universiteti sırasında qərarlaşmışdır. 2022-ci ildə QS Regional reytinqində UNEC 221-230-cu yerlərdə qərarlaşmışdır.

İspaniyanın Milli Tədqiqat Şurasının tərkibindəki Cybermetrics laboratoriyası tərəfindən tərtib olunan reytinqdə UNEC dünyanın top-5000 universiteti siyahısında 3712-ci yerdə qərarlaşıb. Dünya universitetlərinin fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının 17 Dayanaqlı İnkişaf Məqsədləri (DİM) üzrə ölçən Dünyanın ən nüfüzlu reytinq təşkilatlarından biri olan THE 2022-ci il üçün "THE Impact Rankings" reytinqini açıqlayıb. Dünyanın 106 ölkəsindən olan 1406 universitetin iştirak etdiyi reytinqdə UNEC 801-1000-ci yeri tutmuşdur.

SCimago (Scimago Institutions Rankings) reytinq agentliyi də öz növbəsində 2022-ci il üzrə dünya universitetlərinin reytinqini açıqlayıb. Reytinq 4362 ali təhsil müəssisəsinin məlumatları əsasında hazırlanıb. Hesablanması 3 kateqoriya üzrə (tədqiqat performansı (SCOPUS data bazası), innovasiyaya çıxış və cəmiyyətə təsir) aparılan bu reytinqdə UNEC dünya universitetləri sırasında 708-ci, Azərbaycanda isə 1-ci yerdə qərarlaşıb. Sahələr üzrə reytinqə görə də UNEC ölkə universitetləri arasında liderdir.

UNEC Greenmetrics reytinqində 2022-ci ildə 10 pillə irəliləmiş və dünyada 866-cı yerə yüksəlmişdir. UNEC-in beynəlxalq reytinq sıralamasındakı tutduğu mövqe haqqında məlumat linklərini çatdırırıq:

1. https://www.topuniversities.com/universities/azerbaijan-state-university-economics
2. https://www.webometrics.info/en/Europe/Azerbaijan
3. https://iaar.agency/rating/9/0/2022
4. https://www.timeshighereducation.com/world-university-rankings/azerbaijan-state-university-economics
5. https://www.scimagoir.com/rankings.php?sector=Higher+educ.&country=AZE
6. https://www.topuniversities.com/universities/azerbaijan-state-university-economics
7. https://www.4icu.org/az/
8. https://greenmetric.ui.ac.id/rankings/overall-rankings-2022
9. https://roundranking.com/universities/azerbaijan-state-university-of-economics-unec.html?sort=O&year=2022&subject=SO

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

*7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti*

Beynəlmiləlləşmə siyasətinin icrası üçün UNEC tərəfindən, beynəlxalq mübadilə proqramlarında nəzərdə tutulan təqaüdlər üçün, Erasmus+ mübadiləsi çərçivəsində Aİ tərəfindən, Mevlana mübadilə proqramı çərçivəsində isə Türkiyənin Ali Təhsil Şurası tərəfindən (YÖK) maliyyə vəsaitləri ayrılır.

Erasmus+ K2 və Jean Monet layihələrində qazanılan qrant vəsaitləri isə layihənin büdcəsi olaraq Aİ tərəfindən maliyyələşdirirlir. İkitərəfli müqavilələr əsasında mübadilə proqramlarında iştirak edən tələbələr isə bütün xərcləri şəxsi vəsaitləri hesablarına qarşılayırlar.

*7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti*

UNEC-100 İnkişaf Strategiyasının icra göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü 28.02.2022-ci il tarixli 60/1/2022 saylı əmrlə təsdiq edilmişdir. Həmin icra göstəricilərində beynəlmiləlləşmə siyasəti üzrə beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor, BƏD, bütün fakültələr və UNEC-in müvafiq sturuktur bölmələri insan resursları olaraq ayrılmışdır.

*7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti*

Beynəlmiləlləşmə siyasətinin əsas icrası kimi BƏD-ə UNEC-in əsas tədris binasında müvafiq infrastrukturla təhciz edilmiş 3 otaq ayrılmışdır. Bununla yanaşı UNEC-ə səfər edən professor və müəllim heyəti üçün IV tədris binasının nəzdində qonaq evi fəaliyyət göstərir.

*7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti*

Resursların monitorinqi UNEC Maliyyə və Təminat Departamenti və Audit şöbəsi tərəfindən mütəmadi olaraq aparılır. Resurs və avadanlıqların inventarlaşdırılması zamanı departamentin 3 nəfər əməkdaşı (hər şöbədən 1 nəfər) maddi-məsul şəxs təyin edilmişdir.

### *7.4 Beynəlmiləlləşmə performansı*

*7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti*

İllik özünüqiymətləndirmə hesabatları Beynəlxalq əlaqələr və proqramlar üzrə prorekor tərəfindən UNEC-rektoruna təqdim edilir. Bununla yanaşı rüblük hesabatlar, pres relizler mütəmadi olaraq hər il hazırlanır.

Mübadilə və ikili diplom proqramlarında iştirak edən tələbələrə iştirak sertifikatları və diplomlar təqdim edilir və qarşı tərəfin buna ciddi yanaşması proqram koordinatorları tərəfindən rəhbərliyin göstərişi əsasında həyata keçiririlir.

*7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti*

Hesabatlar təqdim edilərəkən növbəti il, dövr üçün hədəflər müəyyənləşdirilir. Cari ilin hesabatı təqdim edilərkən növbəti il üçün hədəflər aşağıda qeyd olunmuşdur:

1. 2022-ci illə müqayisədə xarici universitetlərlə əməkdaşlıq müqavilələrinin sayını 30% artırmaq;
2. Ən azı iki yeni ikili diplom müqaviləsinin imzalanmasını həyata keçirmək;
3. Beynəlxalq və yerli qrant layihələrində aktiv iştirak və ən azı üç qrant layihəsinin qazanılmasını təmin etmək;
4. Əcnəbi tələbələrin qəbulunun sayını 30% artırmaq;
5. Erasmus mübadilə proqramında iştirak edən tələbələrin sayını 20% artırmaq;
6. İki tərəfli əməkdaşlıq çərçivəsində (non-erasmus) mübadilədə iştirak edən tələbələrin sayını 10% artırmaq;
7. Mübadilə proqramında iştirak edən müəllimlərin sayını 20% artırmaq;
8. QS beynəlxalq reytinqində UNEC-in 900-1000 ən yaxşı universitet sırasına yüksəldilməsini təmin etmək.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 42 | | | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 15 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 33 | | | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **57** | | | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | |
| 3.2 Təhsil proqramları | 30 | | | | |
| 3.3 Tədrisin təşkili | 66 | | | | |
| 3.4 Tədris metodları və üsulları | 24 | | | | |
| 3.5 Təlim və tədris resursları | 50 | | | | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 36 | | | | |
| 3.7 Professor-müəllim heyəti | 35 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.8 Tələbəyönümlü tədris | 33 | | | | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 15 | | | | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 14 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **315** | | | | |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 24 | | | | |
| 4.2 Tədqiqat resursları | 20 | | | | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 59 | | | | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **112** | | | | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 27 | | | | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 29 | | | | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 45 | | | | |
| 5.4 İnformasiya idarəetmə sistemi | 24 | | | | |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **143** | | | | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 42 | | | | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **48** | | | | |

| 7. Beynəlmiləlləşmə | | | | | |
|---|---|---|---|---|---|
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilati strukturu | 30 | | | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 12 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | |
| **İstiqamət üzrə yekun bal** | **72** | | | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **804** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

***I istiqamət – Strateji inkişaf***

➢ UNEC-də strateji inkişaf planının hazırlanması, təsdiqi və icrası üzrə prosedurlar bu sahədəki mövcud standartlara cavab verir. Strateji planlaşdırma hazırda UNEC-də idarətmənin əsasını təşkil edir. Universitetin 100 yaşının tamam olacağı 2030-cu ilə istiqamətlənmiş konkret məqsədləri, hədəfləri və bunlara nail olmaq üçün fəaliyyət istiqamətləri mövcuddur. UNEC, idarəetmənin bütün səviyyələri üzrə elm, tədris, inzibati və sosial fəaliyyətlərini əsasən bu məqsəd və hədəflər əsasında qurur.

Bundan başqa həmin istiqamət üzrə görülən işlərin təkmilləşdirilməsi məqsədilə aşağıdakılar tövsiyyə olunur:

- Strateji İnkişaf Planının icrasının effektivliyinin təmin edilməsi məqsədilə e-monitorinq sisteminin qurulması.

***II istiqamət – Keyfiyyət təminatı***

➢ Universitetin təsdiq edilmiş KİS/001 saylı Keyfiyyət Siyasəti sənədi üzrə KİS-in tətbiqi ilə əlaqədar daxili auditin keçirilməsi və yekun hesabatın hazırlanması məqsədilə rektorun daxili əmrləri mövcuddur. Həmin Keyfiyyət Siyasəti sənədi KİS-in davamlı təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün universitetin fəaliyyətində nəzərdə tutulan qabaqcıl vəzifələri sadə və anlaşılan formada özündə ehtiva edir. Belə ki, fəaliyyətin icrası ilə bağlı müvafiq meyarlar, qiymətləndirmə ölçüləri çərçivəsində fakültələr və digər struktur bölmələr üzrə hesabatlar tərtib edilmişdir. “Keyfiyyət Siyasəti” sənədi bütün struktur bölmələrə, həmçinin professor-müəllim heyətinə müəllim kabinetləri vasitəsilə göndərilmişdir. “Keyfiyyət Siyasəti” sənədi özündə ehtiva etdiyi vəzifələr müəyyənləşdirərkən universitet üzrə təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərini təkmilləşdirmək kimi prioritet istiqamətlər nəzərə alınmışdır.

➢ Keyfiyyət təminatı şöbəsi rektora tabe müstəqil struktur bölmə vahidi kimi UNEC Elmi Şurasının qərarı ilə təsdiq edilmiş Əsasnaməyə və Strateji İnkişaf Planı (SFP) uyğun olaraq fəaliyyətinə davam edir. UNEC-də fəaliyyət göstərən tədqiqat mərkəzlərində dövlət qurumları, özəl şirkətlər və digər maraqlı tərəflərdən əməkdaş kimi 50-dən çox nümayəndə cəlb olunmuşdur. UNEC-də “Keyfiyyət ili” çərçivəsində görüləcək işlərin 7 başlıqdan ibarət Tədbirlər Planı “UNEC – 100” İnkişaf Strategiyasının 1.2, 1.3, 1.6, 2.1 Strateji Hədəflərini, İSO 9001 Keyfiyyət İdarəetmə Sistemi üzrə məqsəd və hədəflərin proqramı və onların izlənilməsi Strateji Məqsədlər üzrə müvafiq Strateji fəaliyyətləri də özündə ehtiva edir. Fəaliyyət planı üzrə icra mexanizmi DocNet Elektron Sənəd Dövriyyəsi Sistemi və PİNT tsikli vasitəsi ilə tənzimlənir.

UNEC Elmi Şurasının qərarı ilə təsdiq edilmiş UNEC-100 İnkişaf Strategiyasının icra göstəriciləri, həmin göstəricilər üzrə məsul şəxslər, icraçı strukturlar və səlahiyyət bölgüsü daxili əmrlə təsdiq edilmişdir. Təsdiq edilmiş SFP-nı özündə aşağıdakı meyarları ehtiva edir:

1. İşə götürənlər: Dövlət və özəl sektor, ictimaiyyət;
2. Tələbələr;
3. Təhsil sistemi (proqramları və kurrikulum);
4. Fakültə (akademik heyət);
5. İdarəetmə (inzibati menecment).

Müvafiq əmrlə UNEC – 100 İnkişaf Strategiyasının 7 strateji məqsədi üçün strateji hədəflər və onların icra göstəriciləri təsdiq edilmişdir. Həmin icra göstəriciləri üzrə isə illərə görə kəmiyyət ölçüsü, monitorinq və hesabat tezliyi, nəzərdə tutulan strateji fəaliyyətlərlə bağlı icrası strukturlar və cavabdeh səlahiyyətli şəxslər müəyyən edilmişdir. UNEC Elmi Şurasında tədris illəri üzrə fakültələr, kafedralar üzrə mənimsəmə və keyfiyyət göstəriciləri haqqında hesabatlar (prorektorların, struktur bölmə rəhbərlərinin hesabatları) müzakirə edilir və zəruri tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilir. Maraqlı tərəflərin məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə məmnunluq səviyyəsi 72 faizdən yuxarı, ümumilikdə müxtəlif vasitələrlə 21 sorğu keçirilmişdir.

- ATM-in rəhbərliyi və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi ilə bağlı işlər yüksək səviyyədə həyata keçirilmişdir. Belə ki, Keyfiyyət İdarəetmə Sisteminə (KİS) keçidlə əlaqədar Təşkilat Komissiyası yaradılmış, daxili audit keçirilərək yekun hesabat KİS üzrə rəhbərlik təmsilçisinə təqdim olunur. Akademik və inzibatı heyətlə rəhbərlik arasında, həmçinin struktur bölmələr arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olmasının əyani sübutu kimi, UNEC-də DocNet Elektron Sənəd Dövriyyəsi Sistemini göstərmək olar. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması UNEC-də gündəlik akademik və inzibati fəaliyyətin əsas tərkib hissəsini təşkil etməkdədir. UNEC keyfiyyət elçiləri fakültələr (mərkəz və məktəb) üzrə fəaliyyətə başlamış və müvafiq indikatorlar əsasında tədris keyfiyyətini müşahidə etmiş və keyfiyyət mədəniyyətinin inkişafına töhfə vermişlər.

EDUMAN sistemi vasitəsilə professor-müəllim heyəti tərəfindən tədris materiallarının yüklənməsi, qiymətləndirilməsi, tələbə sorğuları və tələbələrin imtahan sonrası elektron apelyasiyaya sistemi vasitəsiylə müraciət etmək imkanlarının olması əks-əlaqəyə, keyfiyyət müşahidəsi və mədəniyyətinin davamlı inkişafının izlənilməsinə və araşdırılmasına xidmət edir. Əks-əlaqənin qurulmasında görülən işlərdən biri olan “Bir pəncərə” (BP) sistemi vasitəsi ilə tələbələr müvafiq təhsil sənədlərini hazırlanması üçün şəxsi kabinetlərindən 7/24 xidmətə müraciət etmək imkanı əldə etmişlər.

Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlərə UNEC-də “Özünüqiymətləndirmə və Keyfiyyətin

Yüksəldilməsi” üzrə sədr rektor olmaqla daimi Şura yaradılması, tədrisin keyfiyyəti təminatı ilə əlaqədar UNEC-də beynəlxalq təlimçilər tərəfindən 100-dən çox təlimin keçirilməsi və daha da önəmlisi Keyfiyyət təminatı şöbəsinin birbaşa rektora tabe struktur vahidi olmasını göstərmək olar. UNEC üzrə keyfiyyət təminatı istiqamətində yuxarıda qeyd edilən işlər Elmi Şura qərarı ilə təsdiq edilmiş Keyfiyyət təminatı şöbəsinin Əsasnaməsi və müvafiq meyarları (işə götürənlər, tələbələr, təhsil sistemi, fakültə, idarəetmə) özündə ehtiva edən Strateji İnkişaf Planına (2022-2026) uyğun olaraq aparılır.

UNEC-də keyfiyyət təminatı istiqamətində görülən işlərin effektivliyini artırmaq üçün aşağıdakılar tövsiyyə olunur:

- Müvafiq strukturun təkmilləşdirilməsi;
- Daxili keyfiyyət təminatı üzrə UNEC-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması işinin təşkili;
- Yeni akkreditasiya meyarlarına əsasən gələcəkdə ÖH hazırlanarkən məlumatların indikatorları özündə ehtiva etməsi üçün hesabat nümunələrininin (formaların) hazırlanması və struktur bölmələrə göndərilməsi;
- UNEC-in beynəlxalq akkreditasiyadan keçirilməsinin təmin edilməsi.

***III istiqamət – Təlim və tədris***

- UNEC-də təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyalarının tanınması müvafiq qanunvericilik tələbləri əsasında həyata keçirilir. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı əvvəlki tədris ilinin/illərinin faktiki qəbul göstəriciləri, universitetin auditoriya fondu, akademik heyət, kadr potensialı, maddi texniki baza kimi imkanlar, tələbələrin istehsalsat təcrübəsinin nəticələri əsasında aparılmış təhlillər, UNEC Karyera mərkəzi tərəfindən əmək bazarının tələbləri istiqamətində aparılmış təhlillər, UNEC-də təşkil olunan Məzun yarmarkalarında iştirak edən işəgötürənlərin fikirləri nəzərə alınır. UNEC-ə qəbul olunmuş tələbələr tərəfindən əvvəlki təhsillərində əldə etmiş olduqları fənlərin və kreditlərinin tanınması və ayrı-ayrı ixtisasların tədris planlarında olan fənlərlə uyğunlaşdırılması barədə müraciətlər UNEC rektorunun 20.12.2018-ci il tarixində 255/1/2018 saylı əmri ilə yaradılmış “Fənlərin uyğunlaşdırılması” komissiyasında baxılır və müvafiq qərarın verilməsi üçün UNEC rəhbərliyinə təqdim olunur.
- UNEC-də Azərbaycan Respublikasi Nazirlər Kabinetinin 18 iyul 2018-ci il 311 saylı qərari ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nində qeyd edilmiş səviyyələr üzrə, bakalavr səviyyəsində 22 ixtisas, magistr səviyyəsində 20 ixtisas 61 ixtisaslaşma, MBA proqramı üzrə “Biznesin idarə edilməsi” ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 29 istiqamət və fəlsəfə doktoru üzrə 11 ixtisas olmaqla mütəxəssis hazırlığı aparılır. Təhsil proqramlarında ixtisas və ixtisaslaşmalar üzrə məzunun kompetensiyaları hazırlanarkən əmək bazarının nümayəndələrinin tövsiyyələri, ixtisasın (ixtisaslaşmanın) çərçivəsi, fənlər üzrə təlim və öyrənmə metodları, qiymətləndirmə üsulları, təlim nəticələri nəzərə alınmış və UNEC-in unec.edu.az rəsmi İnternet saytında yerləşdirilmişdir.
- UNEC-də tədrisin təşkili Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş qaydaların tələbləri gözlənilməklə həyata keçirilir. Tədris planları hazırlanarkən, bakalavriyat səviyyəsində 240 (4 il) AKTS, magistratura səviyyəsində isə 120 (2 il) AKTS kredit olması, məcburi və seçmə fənlərin bölgüsü zamanı balansın saxlanılması, bakalavr səviyyəsi üzrə tələbələrin həftəlik dərs saatları 22,5 saat, magistratura səviyyəsi üzrə isə 12-16 saat gözlənilməsi normaları nəzərə alınmışdır.
- Təlim nəticələrinin əldə olunmasını təmin edən müasir, innovativ, yaradıcı və interaktiv metod və texnalogiyalar tətbiq edilməklə tədris prosesi təşkil edilir. Bununla

yanaşı fənlərin spesifikliyindən asılı olaraq tədrisində nəzəri biliklərin praktiki biliklərə, bacarıqlara ötürülməsi üçün universitet lazımi səviyyədə müasir infrastrukturla təmin edilmişdir. Tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi üzrə tədris prosesinin təşkili UNEC-də İnkluziv Təhsil Mərkəzinin köməkliyi ilə həyata keçirilir. Tədris prosesinin müasir metod və üsullarının tətbiqi vəziyyəti üzrə dövrü monitorinqlər və preventiv tədbirlər həyata keçirilir. Dövrü monitorinqlər fakültə, məktəb və mərkəzlər üzrə yaradılmılş monitorinq qrup üzvləri vasitəsilə həyata keçirilir. Keçirilmiş monitorinqlər zamanı aşkar edilmiş çatışmazlıqlar və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi üzrə həyata keçirilir.

➢ UNEC-də "Tədrisin Elektron İdarəetmə Sistemi – EDUMAN" tətbiq edilir. Bu sistem dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya sahələrini, EXAM modulu imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apellyasiyanın təşkili, təqaüdün müəyyən olunmasını, Bir pəncərə modulu tələbə, məzun və əməkdaşların günün 24 saatı, həftənin 7 günü müxtəlif tipli arayışların imza və möhürlə təsdiq olunmuş, QR kodla, PDF formatında əldə olunmasını əhatə edir. UNEC-də tədris prosesininin daha da keyfiyyətli aparılması üçün 100 hibrid auditoriya, elektron tribuna, proyektor, ağıllı lövhə, texniki və texnoloji ixtisaslarda tədrisin daha səmərəli təşkil edilməsi üçün ixtisaslaşdırılmış laboratoritalarda təcrübələrin artırılması ücün müasir cihaz və avadanlıqlarla təchiz edilmişdir. UNEC-də EBSCO, İPRSmart, Emerald Publishing kimi beynəlxalq elmi-metrik bazalara çıxış imkanları olan 24/7 KİM yeni elektron kitabxana fəaliyyət göstərir.

UNEC-də professor-müəllim heyətinin fəaliyyətinin təşkilində effektivliyinin artırılması istiqamətində tövsiyyə olunur:

- Akademik heyətin elmi və pedaqoji fəaliyyətini təmin edən zəruri otaq sayının artırılması və uyğun şəraitin yaradılması.

➢ UNEC-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi qanunvericiliyin müvafiq tələblərinə əsasən 100 ballıq sistemlə aparılır. UNEC-də təhsilalnların bilik və bacarıqlarının qiymətləndirilməsinin üz-üzə və məsafədən keçirilməsi üçün müvafiq texniki imkanlar mövcuddur. Qiymətləndirmə əsasən mərkəzləşdirilmiş formada imtahan zallarında keçirilir. Qabiliyyət imtahanları bütünlüklə,

xarici dil fənlərində isə danışıq bacarığı üzrə qiymətləndirmə üz-üzə keçirilir. Sağlamlıq imkanları məhdud təhsilalanların biliklərinin qiymətləndirilməsi onların istəyinə müvafiq olaraq test və yazılı üsullardan istifadə etməklə həyata keçirilir.

➢ Əsas iş yeri UNEC olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayı 866, saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayı isə 231 nəfər olmaqla UNEC üzrə 1097 nəfər professor-müəllim heyəti çalışır. Ümumi akademik heyətin tələbə sayına nisbəti 1/17 təşkil edir ki, bu da tələb ollan normativlərə əsasən cavab verir. Yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar tədrisi nəzərdə tutulmuş yeni fənlərin tədrisinin daha keyfiyyətli təşkil edilməsi ilə bağlı nəzəri və praktiki biliklərə malik ölkənin əmək bazarının iştirakçıları və xarici ölkələrdə təhsil almış məzunlar tədrisə cəlb edillir. Pedaqoji səriştələrinin yüksəldilməsinin stimullaşdırılması məqsədi ilə akademik heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Differensial Əməkhaqqı Sistemi yaradılmışdır.

➢ UNEC-də təhsilin I ili istisna olmaqla digər təhsil illərində təhsilalanlar fərdi tədris planlarının tərtib edilməsində iştirak edirlər. UNEC-də təhsilalanlar seçmə fənlərin müəyyənləşdirilməsində sərbəstdirlər. Belə ki, akademik məsləhətçilər tələbələrə fərdi tədris planlarını tərtib edərkən ona həm fənn, həm də yüksəkixtisaslı müəllimlərin seçilməsində öz təkliflərini verir. Tədris planlarında iqtisadiyyat və idarəetmə, Dizayn və Sənaye mühəndisliyi ixtisaslarında konkret istiqamətlər müəyyənləşdirilmişdir ki, həmin istiqamətlər üzrə də tələbələr ixtisasın istiqamətində fənləri öz seçimləri əsasında həyata keçirir. UNEC-də tələbə rəylərinin sistemli şəkildə toplanması məqsədi ilə onların "Şəxsi kabinet"lərində "Məmnunluq Anket"i yaradılmışdır. UNEC-də tələbələr arasında tədris prosesində tətbiq edilən innovativ metodlarla bağlı məmunluq, dərslərinin keçirilməsinin effektivliyi istiqamətində rəy sorğuları təşkil edilir.

UNEC-də tələbəyönümlü tədrisin təşkilində effektivliyinin artırılması istiqamətində aşağıdakılar tövsiyyə olunur:

- Tələbələrin təhsilverənlərin və eləcə də fənn seçimində sərbəstliyin təmin edilməsi məqsədilə EDUMAN sistemində FTP modulunun elektronlaşdırılması işinin sürətləndirilməsi;
- Tələbə və məzunlar arasında keçirilməsi nəzərdə tutulan rəy sorğularının sistemli qaydada keçirilmə qrafikinin və müvafiq məqsədlərə uyğun mövzularının müəyyənləşdirilərək tətbiq edilməsi.

➢ Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar UNEC-də hər fakültə üzrə monitorinq qrupları fəaliiyət göstərir. Keçirilən monitorinqin nəticələri müzakirə olunaraq müşahidə olunan çatışmazlıqlar aradan qaldırılır. Tədris proqramlarında olan yeni fənlərin tədrisinin səmərəli təşkili ilə əlaqədar mütamadi olaraq xarici və yerli mütəxəssislərin iştirakı ilə təlimlər təşkil olunur. Bunun nəticəsində Təhsil proqramında olan təlim nəticələri nəzərə alınmaqla nümunəvi fənn proqramları və fənlər üzrə sillabuslar hazırlanır. UNEC-də daxili keyfiyyət təminatı sistemi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG 2015) əsaslanır.

➢ UNEC-də məzunların karyera inkişafına və məşğulluqlarının tənzimlənməsinə yardım göstərilməsi məqsədilə Karyera Mərkəzinin fəaliyyət göstərməsi müvafiq standartlara cavab verir. Mərkəzin əmək yarmarkasının təşkili, məzunların ustad dərslərə yönləndirilməsi, uğurlu məzunlarla görüş, şirkətlərdə təqaüdlü təcrübə proqramına hazırlıq və cəlb olunma işləri bu istiqamətin məqsəd və hədəflərinə xidmət edir.

Məzunlarla davamlı əlaqə sisteminin təkmilləşdirilməsi məqsədilə tövsiyyə olunur:

- Dövlət qurumlarının sistemləri ilə inteqrasiya imkanlarının genişləndirilməsi istiqamətində görülən işlərin sürətləndirilməsi.

***IV istiqamət – Elmi tədqiqat***

- Universitet daxilində elmi-tədqiqat istiqamətindəki strateji hədəflər qəbul olunmuş fərmanlar, sərəncamlar və dövlət qanunvericiliyi əsasında tənzimlənir. UNEC-100 inkişaf strategiyasının 2030-cu ilədək tamamlanması universitet tərəfindən uzunmüddətli strateji inkişaf proqramı kimi müəyyənləşdirilmişdir. Belə ki, 2030-cu ilə qədər "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını ildən-ilə artırmaq, həmin bazalara daxil olan 3 elmi jurnala sahib olmaq, elmi məruzələri nüfuzlu bazalara daxil edilən beynəlxalq elmi tədbirlər təsis və təşkil etmək, o cümlədən hər il iqtisadçı tələbələrin beynəlxalq tələbə elmi konfransını təşkil etmək UNEC-in İnkişaf Strategiyasında hədəf kimi müəyyən olunub.
- Universitetdə elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilir. Ayrılan vəsaitlər elmi fəaliyyətin davamlı inkişafını, mövcud elmi potensialın qorunması və inkişaf etdirilməsini, dövlət maraqları əsasında ictimai-siyasi, milli-mənəvi, sosial-iqtisadi və elmi-texniki problemlərin tədqiqini və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsini təmin edir. UNEC-də elmin müxtəlif istiqamətlərini əhatə edən Tədqiqat Mərkəzlərində ümumilikdə ictimai əsaslarla 129 nəfər fəaliyyət göstərir ki, onlar arasında həm yerli, həm xarici alimlər yer almaqdadır.
- UNEC-də elmi fəaliyyətin təşkili və koordinasiyası Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamenti tərəfindən həyata keçirilir. Elmi-tədqiqat fəaliyyəti əsasən universitetin, professor-müəllim heyətinin və tədqiqatçıların nüfuzlu elmi nəşr platformasındakı göstəricilərinə əsasən qiymətləndiriir. Belə ki, burada h-index, elmi əsər sayı, istinad göstəriciləri və s. əsas indiqatorlar hesab olunur. Differensial əmək haqqı sistemi isə bu göstəricilərin artım dinamikasına nail olunmasını tənzimləyən əsas sistemdir.
- Antiplagiat və akademik dürüstlük siyasəti Plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında UNEC Rektorunun 206/1/2016-cı il tarixli əmrinə əsasən qəbul edilmiş Qaydalar əsasında formalaşdırılır və həyata keçirilir. UNEC-də 2016-cı ildən etibarən bütün buraxılış işləri, magistr dissertasiyaları, fəlsəfə və elmlər doktoru dissertasiyaları, bütün tədris vəsaitləri, konfrans və jurnallarda nəşr edilən elmi əsərlər

plagiat yoxlamasından keçirilir. Hazırda qüvvədə olan “Elmi plagiat hallarına qarşı mübarizə Qaydaları”na son dəyişikliklər 2022-ci ilin sentyabr ayında Elmi Şuranın qərarı ilə qəbul edilmişdir. Tələbələr, magistrantlar, doktorantlar, akademik heyət və tədqiqatçılar bu Qaydaların tələbləri ilə vaxtaşırı tanış edilir, onlar üçün elm etikası tələbləri və bu sahədə qərarların qəbul mexanizmi barədə təlimlər təşkil edilir.

Elmi tədqiqat istiqaməti üzrə qeyd edilən nəticələrin effektivliyini artırmaq üçün aşağıdakılar tövsiyyə olunur:

- Müxtəlif ATM-lərlə birgə tədqiqat proqramlarının hazırlanması və icra mexanizminin qurulması;
- Beynəlxalq tədqiqat laboratoriyalarının yaradılması;
- Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artırılması istiqamətində məqsədyönlü və planlaşdırılmış işlərin görülməsi;
- Elmi tədqiqatların maliyyələşdirilməsində dövlətin payının artırılmasına dair təkliflərin aidiyyatı üzrə təqdim edilməsi;
- İşə cəlb olunan UNEC doktorantlarının hər il qeydiyyatının aparılması işinin təşkili.

***V istiqamət – İdarəetmə sistemi***

➢ UNEC-də monitorinqlərin aparılması, o cümlədən idarəetmə orqanlarının fəaliyyətləri barədə hesabatlar müvafiq tədris illəri üzrə Elmi Şuranın iş planlarında nəzərdə tutulmuşdur. İdarəetmə orqanlarında qəbul olunan qərarlar operativ şəkildə hazırlanaraq təsdiqlənir və icra olunur. İdarəetmə orqanlarının iş planlarında nəzərdə tutulmuş bütün istiqamətlər üzrə fəaliyyəti tam yerinə yetirilir.

➢ UNEC-də insan resurslarının idarə edilməsi müvafiq qanunvericiliyin tələblərinə və UNEC daxili müvafiq komissiyaların fəaliyyətlərinə uyğun həyata keçirilir. Əməkdaşların motivasiya və mükafatlandırılma sistemləri kimi professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı Sistemi və 26.09.2022-ci il tarixli əmri ilə inzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı sistemi mövcuddur. İnsan resurslarının idarə edilməsi sahəsində effektivliyin artırılması məqsədilə tövsiyyə olunur:

- İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Diferensial Əməkhaqqı sisteminin tətbiqinin sürətləndirilməsi;

➢ UNEC-də maliyyə resurslarının idarədilməsi sahəsində 2014-cü ildən etibarən gəlir və xərclərin 1 və 3 illik planlaşdırılması aparılır. 2016-2022-ci illərdə UNEC-in gəlirlərindən qənaətlə istifadə, gəlir və xərclərin planlaşdırılması və təhlil edilməsi cari xəclərlə yanaşı bir sıra layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. Təkcə sərbəst maliyyə vəsaitlərindən səmərəli istifadə etməklə UNEC 2018-2021-ci illər ərzində ümumilikdə 2,55 milyon manat xalis gəlir əldə etmişdir.

Əlavə gəlirlərin əldə edilməsi imkanlarının genişləndirilməsi məqsədi ilə müxəlif ödənişli təlimlərin təşkili, elmi-tədqiqat işləri, rəqəmsal nəşriyyat işləri, qrant layihələrində iştirak, əcnəbi təhsilalanların cəlbi və təkrar ali təhsilə tələbə qəbulunun genişləndirilməsilə bağlı mütəmadi tədbirlər həyata keçirilir.

➢ UNEC-də informasiya idarəetmə sistemi kimi EDUMAN, DocNet Elekton Sənəd Dövriyyəsi, Bir pəncərə sistemi fəaliyyət göstərir. Bu sistemlərin səlahiyyət bölgüsü və təhlükəsizliyinin təmin edilməsi müvafiq standartlara cavab verir. Rəqəmsallaşdırılması nəzərdə tutulan sahələrin artması, daimi olaraq dövlət altsistemləri ilə inteqrasiya işlərinin qurulması istiqamətində işlər aparılması bu istiqamət üzrə məqsəd və hədəflərə uyğun aparılır.

- UNEC-də ictimaiyyətlə əlaqələrin qurulması işi qənaətbəxşdir. UNEC-in rəsmi saytındakı məlumatlar mütəmadi olaraq yenilənir, eləcə də universitetdə baş verən yeniliklər müvafiq vasitələrlə ictimaiyyətə operativ olaraq çatdırılır. UNEC-in rəsmi sosial şəbəkələrinə, 1846 Qaynar Xəttinə daxil olan müraciətlərin hər biri operativ şəkildə araşdırılaraq cavablandırılır. KİV-dən universitetlə bağlı daxil olan sorğular aidiyyəti strukturlara yönləndirilərək cavablandırılması təmin olunur.

Bu meyar üzrə qeyd olunan məsələlərin effektivliyin artırılması istiqamətində tövsiyyə olunur:

- İctimaiyyətin daha dolğun məlumatlandırılması məqsədi ilə sistemli şəkildə sorğuların keçirilməsi.

***VI istiqamət – İnfrastruktur***

- 2016/2017–2021/2022-ci tədris illərində UNEC-in infrasturukturunun yaxşılaşdırılması və maddi-texniki bazasının inkişaf etdirilməsi məqsədilə bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, hesabat dövründə UNEC-də distant təhsilin həyata keçirilməsi üçün Mərkəz yaradılmışdır. Mərkəz gün ərzində 20 minə yaxın dinləyiciyə təhsil vermək imkanına malikdir. UNEC-in bütün tədris binalarında tədrisin hibrid formada (əyani və distant) təşkilinə imkan verən müasir texniki avadanlıqlarla təchiz edilmiş ümumilikdə 100 auditoriya qurulmuşdur. Həmçinin Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun texniki və texnoloji ixtisaslar üzrə 13 tədris laboratoriyası, "Blomberq maliyyə laboratoriyası" yaradılmış, kompüter laboratoriyalarının sayı 11-ə çatdırılmışdır. Elektron Universitet modeli sisteminin işləyişi, təkmilləşdirilməsi elektron həllər, həm də texniki avadanlıqlarla təmin edilmişdir. 24/7 fəaliyyət göstərən müasir avadanlıqlarla təchiz edilmiş kitabxana yaradılmışdır. 1, 2 və 4 saylı tədris binalarında bütün imtahan zalları yeni monoblok tipli kompüterlərlə təchiz edilmişdir. 1 saylı tədris binasında kiçik akt zalı və karyera mərkəzi hibrid formada görüşləri və təlimləri dəstəkləyən texniki avadanlıqlar və inventarlarla təchiz olunmuşdur. 2A saylı tədris binası tamamilə təmir edilmiş və yeni inventar-avadanlıqlarla təchiz olunmuşdur. 1 saylı tədris binasının auditoriyalarında və imtahan zallarında parta və oturacaqlar yenisi ilə əvəz edilmişdir.

Texniki və texnoloji ixtisaslar üçün müasir standartlara cavab verən 3 saylı tədris binası inşa edilmişdir. Modern memarlıq elementləri ilə zəngin olan yeni binada auditoriya, mühazirə, linqafon otaqları, ən müasir texnologiya ilə təchiz olunan laboratoriyalar, idman zalı, kitabxana, böyük və kiçik konfrans zalları vardır. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılmışdır.

- UNEC-də elmin müxtəlif istiqamətlərini əhatə edən 36 Tədqiqat Mərkəzi yaradılmışdır. UNEC-də 2020/2021-ci tədris ildən türk dünyasının böyük alimi, kimya üzrə Nobel mükafatı laureatı, professor Əziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyası fəaliyyət göstərir. UNEC-in 3 saylı tədris binasında yaradılan laboratoriya müasir texnologiyalarla və avadanlıqlarla təchiz olunmuşdur. Laboratoriyada bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələrə təlim ve tədris planına uyğun olaraq elmi-praktiki araşdırmalar, tədqiqatlar və ekspertizalar, qida məhsullarının müvafiq keyfiyyət

standartları və tələblərə uyğunluğunun qiymətləndirilməsi prosesləri həyata keçirilir. Ölkəmizdə ilk dəfə olaraq UNEC-də fəaliyyətə başlayan Bloomberg Maliyyə Laboratoriyası, “Mühəndislik və tətbiqi elmlər” kafedrasının nəzdində 12, “Rəqəmsal texnologiyalar və tətbiqi informatika” kafedrası nəzdində isə 1 laboratoriya fəaliyyət göstərir. Bu laboratoriyalar ən müasir cihazlarla təchiz olunmuşdur.

***VII istiqamət – Beynəlmiləlləşmə***

➢ UNEC 100 İnkişaf Strategiyasında beynəlmiləlləşmə sahəsinə istiqamətlənmiş konkret məqsədlər, hədəflər göstərilmiş və bunlara nail olmaq üçün icra göstəriciləri mövcuddur. UNEC, beynəlmiləlləşmə fəaliyyətlərini əsasən bu məqsəd və hədəflər əsasında qurur.

Beynəlmiləlləşmə istiqamətində fəaliyyət sahələrinin genişləndirilməsi və təkmilləşdirilməsi yönündə aşağıdakılar tövsiyyə olunur:

- Beynəlmiləlləşmə siyasəti üzrə müvafiq sənədin icrasının effektivliyini təmin edilməsi məqsədilə icra mexanizminin təkmilləşdirilməsi.

## III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin,proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.